**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# “ÖLKƏ ƏRAZİLƏRİNİN İŞĞALI NƏTİCƏSİNDƏ AZƏRBAYCAN İQTİSADİYYATINA VURULMUŞ ZƏRƏRİN STATİSTİK TƏHLİLİ”

**mövzusunda**

## MAGİSTR DİSSERTASİYASI

**İsgəndərov Rəvan Mübariz oğlu**

**BAKI – 2022**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**

**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh oğlu**

**___________________________ imza**

**"___" _____________ 2022-ci il**

# "ÖLKƏ ƏRAZİLƏRİNİN İŞĞALI NƏTİCƏSİNDƏ AZƏRBAYCAN İQTİSADİYYATINA VURULMUŞ ZƏRƏRİN STATİSTİK TƏHLİLİ"

**mövzusunda**

## MAGİSTR DİSSERTASİYASI

**İxtisasın şifri və adı:** 060406 - Statistika

**İxtisaslaşma:** Müəssisələrinin statistikası

**Qrup:** 706

**Magistrant**
**İsgəndərov Rəvan Mübariz oğlu**

**_____________________imza**

**Elmi rəhbər**
**i.e.n., dos. Cabbarova Aynur İmran qızı**

**_____________________ imza**

**Proqram rəhbəri**
**i.ü.f.d., dos. Hümbətova Suqra İnqilab qızı**

**_____________________ imza**

**Kafedra müdiri**
**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi oğlu**

**______________________ imza**

**BAKI – 2022**

## Elm andı

Mən, İsgəndərov Rəvan Mübariz oğlu and içirəm ki, “Ölkə ərazilərinin işğalı nəticəsində Azərbaycan iqtisadiyyatına vurulmuş zərərin statistik təhlili” mövzusunda magistr dissertasiyasını elmi əxlaq normalarına və istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim bütün mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazmışam.

**“ÖLKƏ ƏRAZİLƏRİNİN İŞĞALI NƏTİCƏSİNDƏ AZƏRBAYCAN İQTİSADİYYATINA VURULMUŞ ZƏRƏRİN STATİSTİK TƏHLİLİ”**


**XÜLASƏ**

**Tədqiqatın aktuallığı: Azərbaycan öz ərazilərini işğalçı qüvvələrdən təmizləyərək bölgənin ölkə iqtisadiyyatına yenidən inteqrasiyası üçün böyük layihələrə start vermişdir. Erməni işğalının Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına vurduğu sosial-iqtisadi, maddi-mənəvi və ekoloji ziyanın miqyasının müəyyən edilməsi və ödətdirililməsi imkanlarının araşdırılması quruculuq və bərpa prosesləri ilə yanaşı Azərbaycan dövlətinin qarşısında duran ən aktual məsələlərdən biridir.**

**Tədqiqatın məqsədi: Dissertasiyanın işinin başlıca məqsədi erməni işğalı nəticəsində Azərbaycan ərazilərinə vurulmuş maddi-mənəvi zərərin ümumi statistik təhlili və müvafiq nəticələrin əldə edilməsidir.**

**İstifadə olunmuş tədqiqat metodları: Tədqiqat zamanı bir sıra metodlardan istifadə olunmuşdur. İnduksiya, deduksiya, analiz və sintez, müqayisə və ümumiləşdirmə, o cümlədən statistik təhlil metodları ilə tədqiqatın baza məlumatları təhlil edilmiş və tədqiqat predmetinin normativ əsasları öyrənilmişdir.**

**Tədqiqatın informasiya bazası: Tədqiqatın işinin informasiya bazasını milli statistik məlumatlar, həmçinin müxtəlif elmi jurnalların, akademik araşdırmaların və dövri mətbuatın məlumatları təşkil edir.**

**Tədqiqatın məhdudiyyətləri: Erməni işğalı nəticəsində Azərbaycana vurulmuş maddi, mənəvi və ekoloji ziyanın miqyasının müəyyən edilməsi prosesində qarşıya çıxan başlıca məhdudiyyət informasiya bazasında olan müəyyən çatışmazlıqlar, yerli və xarici ədəbiyyatın kifayət qədər olmaması, mövzu ilə bağlı yetərli elmi araşdırmların aparılmaması bəzi çətinliklər törətmişdir.**

**Tədqiqatın elmi yeniliyi və praktiki nəticələri: Ermənistanın işğalı nəticəsində Azərbaycanın sosial-iqtisadi infrastrukturu, maddi-mənəvi irsi, ətraf mühit və təbii sərvətlərinə vurulmuş ziyanın miqyası geniş şəkildə təhlil edilmişdir. Vurulan maddi ziyanın təxmini həcmi yenidən qiymətləndirilmişdir.**

**Nəticələrin istifadə oluna biləcəyi sahələr: İşğalın səbəb olduğu maddi ziyanın gələcək qiymətləndirilməsi prosesində də bu tədqiqatın əldə etdiyi nəticələr və gəldiyi qənaətlərə müraciət edilə bilər.**



**Açar sözlər: Azərbaycan, Qarabağ , iqtisadi inkişaf, regional inkişaf**

## "STATISTICAL ANALYSIS OF THE DAMAGE CAUSED TO THE AZERBAIJANI ECONOMY AS A RESULT OF THE OCCUPATION OF THE COUNTRY'S TERRITORIES"


## SUMMARY

**The actuality of the subject: Azerbaijan has launched major projects to re-integrate the region into the country's economy by clearing its territories of occupying forces. One of the most pressing issues facing the Azerbaijani state, along with the process of construction and restoration, is to determine the extent of the socio-economic, material, moral and environmental damage caused by the Armenian occupation of Karabakh and East Zangazur economic regions and to compensate.**

**Purpose and tasks of the research: The main purpose of the dissertation is a general statistical analysis of the material and moral damage inflicted on the territories of Azerbaijan as a result of the Armenian occupation and the achievement of relevant results.**

**Used research methods: A number of methods were used during the research. The basic data of the research were analyzed by the methods of induction, deduction, analysis and synthesis, comparison and generalization, as well as statistical analysis, and the normative bases of the research subject were studied.**

**The information base of the research: The database of the research consists of national statistics, as well as data from various scientific journals, academic research and periodicals.**

**Restrictions of research: The main limitations in the process of determining the scale of material, moral and environmental damage inflicted on Azerbaijan as a result of the Armenian occupation were certain shortcomings in the database, insufficient local and foreign literature, insufficient scientific research on the subject.**

**The novelty and practical results of investigation: The scale of damage to Azerbaijan's socio-economic infrastructure, material and spiritual heritage, environment and natural resources as a result of the Armenian occupation has been extensively analyzed. The estimated amount of material damage was reassessed.**

**Scientific-practical significance of results: In the process of further assessment of the material damage caused by the occupation, the results and conclusions of this study can be applied.**



**Keywords: Azerbaijan, Karabakh, economic development, regional development**

# İXTİSARLAR

| | |
|---|---|
| **ATƏM** | Avropa Təhlükəsizlik və Əməkdaşlıq Konfransı |
| **ABŞ** | Amerika Birləşmiş Ştatları |
| **BMT** | Birləşmiş Millətlər Təşkilatı |
| **İKT** | İslam Konfransı Təşkilatı |
| **NMR** | Naxçıvan Muxtar Respublikası |
| **SSRİ** | Sovet Sosialist Respublikaları İttifaqı |
| **SES** | Su Elektrik Stansiyası |
| **ÜDM** | Ümumdaxili Məhsul |
| **YUNESKO** | BMT-nin Təhsil, Elm və Mədəniyyət Məsələləri üzrə Təşkilatı |

## MÜNDƏRİCAT

**GİRİŞ........................................................................................................8**

**I FƏSİL. ÖLKƏ ƏRAZİLƏRİNİN İŞĞALININ SOSİAL-İQTİSADİ NƏTİCƏLƏRİNƏ NƏZƏRİ-METODOLOJİ YANAŞMA.............................14**

1.1. Erməni işğalının Azərbaycanın iqtisadi inkişafına təsirləri.....................14

1.2. İşğaldan azad edilmiş ərazilərin Azərbaycanın iqtisadi inkişafındakı gələcək rolu.............................................................................................25

**II FƏSİL. ERMƏNİSTANIN İŞĞALI NƏTİCƏSİNDƏ AZƏRBAYCANA VURULMUŞ MADDİ, MƏNƏVİ VƏ EKOLOJİ ZİYANIN MİQYASI..........34**

2.1. Ermənistanın işğalı nəticəsində Azərbaycanın sosial-iqtisadi infrastrukturuna vurulmuş ziyanın miqyası..................................................34

2.2. Ermənistanın işğalı nəticəsində Azərbaycanın maddi-mədəniyyət abidələrinə vurulmuş ziyanın miqyası.....................................................42

2.3. Ermənistanın işğalı nəticəsində Azərbaycanın ətraf mühitinə və təbii sərvətlərinə vurulmuş ziyanın qiymətləndirilməsi..................................47

**III FƏSİL. ERMƏNİSTANIN İŞĞALI NƏTİCƏSİNDƏ AZƏRBAYCAN İQTİSADİYYATINA VURULMUŞ ZİYANIN STATİSTİK TƏHLİLİ VƏ ONUN ÖDƏNİLMƏSİ İMKANLARININ QİYMƏTLƏNDİRİLMƏSİ.........54**

3.1. Erməni işğalı nəticəsində Azərbaycan iqtisadiyyatına vurulmuş iqtisadi ziyanın ümumi statistik təhlili və ödənilməsi imkanlarının qiymətləndirilməsi.......54

3.2. İşğaldan azad edilmiş ərazilərdə iqtisadiyyatın bərpası üzrə həyata keçirilən dövlət tədbirləri: iqtisadiyyatın yenidənqurulması siyasəti.......................63

**NƏTİCƏ VƏ TƏKLİFLƏR.................................................................68**

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI..................................73**

Cədvəllərin siyahısı.........................................................................79

# GİRİŞ

**Mövzunun aktuallığı:** Azərbaycanın ayrılmaz parçası olan keçmiş Dağlıq Qarabağ və ətraf rayonların Ermənistan tərəfindən işğalı ölkəmizin sosial-iqtisadi inkişaf məqsədlərinə və perspektivlərinə, o cümlədən maddi-mənəvi dəyərlərinə ölçüyəgəlməz zərərlər vurmuşdur. Qarabağın işğalı zamanı bölgənin iqtisadiyyatı infrastruktur və əmək amili baxımından çox böyük ziyan və itkilərə məruz qalmışdır. İşğal nəticəsində infrastrukturu zədələnmiş qurum, təşkilat və sistemlər haqqında məlumatlara nəzər saldıqda, bölgə iqtisadiyyatına vurulmuş ziyanın və itirilmiş dəyərlərin miqyasının çox böyük olduğu açıq şəkildə görünür. Hələ 1994-cü ilə aid ilkin hesablamalara görə, Azərbaycan Respublikası öz iqtisadi potensialının 16 faizini itirmiş və ölkəyə 60 milyard Amerika dollarından çox ziyan dəymişdir.

Ermənistanın dövlətinin həyata keçirdiyi işğalçılıq siyasəti regionda enerji ehtiyatlarının hasilatı və ixracı üzrə irimiqyaslı layihələrin həyata keçirilməsini ləngitmiş, nəticədə bütün region ölkələri sosial-iqtisadi baxımdan mənfi təsirlərə məruz qalmışdır.

Lakin Azərbaycan dövləti və xalqı bu işğalçılıqla heç vaxt barışmamış və işğal edilmiş ərazilərin yenidən qaytarılacağına həmişə ümidli olmuşdur. 2020-ci ilin sentyab ayında başlayan Vətən müharibəsi Azərbaycan ərazilərinin 30 illik işğal, talan və istismarına son qoymuşdur. Ermənistanla Azərbaycan arasındakı 44 gün davam edən şiddətli müharibə hər iki tərəf üçün ciddi insan itkiləri və sosial-iqtisadi sınaqlarla dolu bir mərhələ olsa da, sonda zəfər qazanan tərəf Azərbaycan dövləti olmuş və Ermənistan dövləti tərəfindən uzun illər işğal altında saxlanılan Laçın, Kəlbəcər, Ağdam, Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli və Şuşa, habelə Suqovuşan daxil olmaqla keçmiş Dağlıq Qarabağın mühüm bir hissəsi erməni işğalçı qüvvələrindən təmizlənmişdir. Bununla da, Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, Qarabağ münaqişə tarixə qovuşmuşdur.

İki dövlət arasında 2020-ci ilin noyabr ayında Rusiyanın vasitəçiliyi imzalanan sazişdən dərhal sonra erməni işğalı dövründə böyük dağıntı və talana məruz qalmış Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulması, bərpası və ölkə iqtisadiyyatına inteqrasiyası üçün ciddi işlərə başlanmışdır. Qarabağ regionu və ətraf

rayonları yenidən canlandırmaq, xarabalıqlara çevrilmiş yaşayış yerlərini ağıllı şəhər və kəndlərə çevirmək, infrastruktur və iqtisadiyyatın yenidənqurulması bütün mümkün resurs və imkanlar səfərbər edilmişdir.

İşğaldan azad edilən ərazilərdə həyata keçirilən və hazırda da davam edən ilk işlərdən biri yol, kommunikasiya, enerji şəbəkələri kimi zəruri infrastrukturların bərpasına başlamaq olmuşdur. Bərpa və quruculuq işləri, uzun müddət öz yurdlarından uzaq düşmüş məcburi köçkünlər üçün zəruri yaşayış şərtlərinin təmin edilərək azad edilmiş yerlərdə yenidən məskunlaşdırılması Azərbaycan dövlətinin qarşısında duran prioritet məsələlərdən biridir.

Azərbaycan öz ərazilərini işğalçı qüvvələrdən təmizləyərək bölgənin ölkə iqtisadiyyatına yenidən inteqrasiyası üçün böyük layihələrə start versə də, erməni işğalının bölgəyə vurduğu sosial-iqtisadi, maddi-mənəvi və ekoloji ziyanın miqyasının müəyyən edilməsi hazırda ən aktual məsələlərdən biridir.

Erməni işğalı dövründə Azərbaycan ərazilərinə vurulmuş maddi və mənəvi zərərlərin araşdırılması və öyrənilməsi, habelə müvafiq nəticələrin çıxarılaraq təkliflərin irəli sürülməsi aşağıdakı səbəblərə görə aktualdır:

- Erməni işğalının son otuz ildə Azərbaycanın iqtisadi inkişafına vurduğu ziyan və təsirlərin araşdırılması ölkənin bundan sonrakı inkişaf strategiyasının müəyyən edilməsində vacib məsələlərdən biridir.
- İşğaldan azad edilmiş ərazilərin Azərbaycanın gələcək iqtisadi inkişafında necə rol oynaya biləcəyini analiz etmək bölgənin iqtisadi potensialının dəyərləndirilməsi baxımından əhəmiyyətlidir.
- Məhz bunu nəzərə alaraq, ilk öncə Ermənistanın işğalı nəticəsində Azərbaycanın sosial-iqtisadi infrastrukturuna, maddi-mənəvi irsinə, ətraf mühitinə və təbii sərvətlərinə vurulmuş ziyanın miqyasını araşdırmaq son dərəcə aktual məsələdir.
- Bundan əlavə, vurulan ziyanın ödənilməsi imkanlarının təhlil edilməsi və işğaldan azad edilmiş ərazilərdə iqtisadiyyatın bərpası üzrə həyata keçirilən dövlət siyasətinin öyrənilməsinin vacibliyi də mövzunun aktuallığını artırır.

Bütün qeyd edilənləri nəzərə alaraq, dissertasiya işinin əsas məqsədi Azərbaycan ərazilərinin işğalı nəticəsində ölkə iqtisadiyyatına vurulmuş zərərin

statistik təhlili araşdırılmasıdır.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi:** Dissertasiya işinin birinci fəslində erməni işğalının Azərbaycan iqtisadiyyatına vurduğu sosial-iqtisadi ziyanın nəticələri nəzəri-medodoloji cəhətdən araşdırılmış, işğaldan azad edilmiş ərazilərin ölkə iqtisadiyyatına verəcəyi faydalar tədqiq edilmişdir. İkinci fəsildə işğalın Azərbaycanın sosial-iqtisadi infrastrukturuna, maddi-mədəniyyət abidələrinə, o cümlədən ətraf mühit və təbii sərvətlərinə vurduğu ziyan öyrənilmişdir. Erməni işğalı nəticəsində Azərbaycan iqtisadiyyatına vurulmuş iqtisadi ziyanın ümumi statistik təhlili və ödənilməsi imkanlarının qiymətləndirilməsi, habelə dövlətin həyata keçirdiyi iqtisadi bərpa və yenidənqurma siyasəti dissertasiya işinin üçüncü fəslində müzakirə edilmişdir.

Mövzu ilə əlaqədar əsasən yerli və xarici akademik məqalələr, kitablar, bir sıra aktual internet resursları araşdırılmış, o cümlədən rəsmi statistik məlumatlar nəzərdən keçirilmişdir. Dissertasiya işində Fikrətzadə F., Şahbazov, T., Süleymanov. E., Süleymanov V., Rzayeva S., Əsədov N., Hacıyev, Q., İbadoğlu, Q., Həsənov T., Mahmudov, Y., Şükürov K., Məsimli Ə., Şahmarov Ə., Naskali E. G., Erdal Ş. və s. müəlliflərin tədqiqat işlərindən isifadə edilmişdir. O cümlədən müxtəlif illərdə keçirilən “Qarabağ dünən, bu gün və sabah” adlı elmi konfransların materialları, Aqrar Tədqiqatlar Mərkəzi və Strateji Araşdırmalar Mərkəzinin araşdırmaları mövzunun məqsədləri üçün nəzərdən keçirilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri:** Dissertasiyanın işinin məqsədi erməni işğalı nəticəsində Azərbaycan iqtisadiyyatına vurulmuş zərərin ümumi statistik təhlili və müvafiq nəticələrin əldə edilməsidir. Bu məqsədə çatmaq üçün aşağıdakı vəzifələrin həlli qarşıya qoyulmuşdur:

- İşğal nəticəsində Azərbaycan iqtisadiyyatına vurulmuş zərərlərin və bölgənin ölkə iqtisadiyyatındakı gələcək rolunu nəzəri-metodoloji cəhətdən təhlil etməli;
- Ermənistanın işğalı nəticəsində Azərbaycana vurulmuş sosial-iqtisadi, maddi-mənəvi və ekoloji zərəri müəyyən etməli;
- İşğal nəticəsində Azərbaycan iqtisadiyyatına vurulmuş iqtisadi ziyanın ümumi statistik təhlili və ödənilməsi imkanlarının qiymətləndirilməsi aparılmalı;

- İşğaldan azad edilmiş ərazilərdə iqtisadiyyatın bərpası üzrə həyata keçirilən yenidənqurma tədbirləri və iqtisadi siyasət öyrənilməli.

**Tədqiqat işinin obyekti və predmeti:** Erməni işğalı nəticəsində itirilmiş torpaqlar tədqiqatın obyektini, işğal nəticəsində Azərbaycan iqtisadiyyatına vurulmuş zərərin statistik təhlili isə predmetini təşkil edir.

**Tədqiqat metodları:** Tədqiqat zamanı bir sıra metodlardan istifadə olunmuşdur. İnduksiya, deduksiya, analiz və sintez, müqayisə və ümumiləşdirmə, o cümlədən statistik təhlil metodları ilə tədqiqatın baza məlumatları təhlil edilmiş və tədqiqat predmetinin normativ əsasları öyrənilmişdir. Dissertasiya işinin birinci fəslində işğal nəticəsində ölkə iqtisadiyyatına dəymiş ziyan analiz və sintez metodu ilə təhlil edilmişdir. Xüsusilə, sənaye və kənd təsərrüfatına, maddi-mədəni önəm daşıyan obyektlərə dəymiş maddi ziyanın dəyərinin müəyyən edilməsi üçün müxtəlif mənbələrə və araşdırmalara istinad edilmişdir. İkinci fəsildə statistik təhlil və ümumiləşdirmə metodlarından istifadə edilməklə Azərbaycanın sosial-iqtisadi infrastrukturuna, maddi mədəniyyət abidələrinə, o cümlədən ətrf mühit və təbii sərvətlərinə vurulmuş ziyan təhlil edilmişdir. Son fəsildə eksperiment və modelləşdirmə üsullarının köməyi ilə təhlillər aparılmış, sistemləşdirmə və ümumiləşdirmə metodları əldə edilmiş nəticə qeyd edilmiş və müvafiq təkliflər verilmişdir.

**Tədqiqatın informasiya bazası:** Tədqiqatın işinin birinci fəslinin informasiya bazasını milli statistik məlumatlar, həmçinin müxtəlif elmi jurnalların, akademik araşdırmaların və dövri mətbuatın məlumatları təşkil edir. Tədqiqatın predmeti Azərbaycanın işğal altında olmuş ərazilərinə vurulmuş maddi və mənəvi ziyanın statistik təhlili olduğu üçün əsasən yerli ədəbiyyat və mənbələrə üstünlük verilmişdir.

Tədqiqat işinin ikinci və üçüncü fəsillərində informasiya bazası kimi qanunvericilik aktları, statistik məlumatlar, rəsmi hesabatlar, tədqiqat işləri, məqalələr və dövri mətbuatda dərc edilmiş məlumatlar çıxış edir. Əldə edilmiş məlumatlar etibarlı mənbələrdən götürülmüş və onlardan bəziləri müəyyən cədvəllər şəklində təqdim edilmişdir.

**Tədqiqatın məhdudiyyətləri:** Erməni işğalı nəticəsində Azərbaycana vurulmuş maddi, mənəvi və ekoloji ziyanın miqyasının müəyyən edilməsi prosesində qarşıya çıxan başlıca məhdudiyyət mövzunu ilə əlaqədər ədəbiyyat və faktların çox məhdud, köhnə və təkrar olmasıdır. Bundan əlavə, erməni işğalının Azərbaycana vurduğu maddi, mənəvi və ekoloji ziyanın hərtərəfli və cari qiymətləndirilməsinin aparılmamasını da qeyd etmək olar. İnformasiya bazasında olan müəyyən çatışmazlıqlar, yerli və xarici ədəbiyyatın kifayət qədər olmaması, mövzu ilə bağlı yetərli elmi araşdırmların aparılmaması bəzi çətinliklər törətmişdir.

**Tədqiqatın elmi yeniliyi:** Aparılmış tədqiqat nəticəsində əldə edilmiş elmi yeniliklər aşağıdakılardır:

- Erməni işğalının son otuz ildə Azərbaycanın iqtisadi inkişafına vurduğu ziyan və təsirlərin araşdırılmasının vacibliyi əsaslandırılmışdır;
- İşğaldan azad edilmiş ərazilərin Azərbaycanın gələcək iqtisadi inkişaf prioritetlərindəki rolu müəyyən edilmişdir;
- İşğaldan azad edilmiş ərazilərin iqtisadi potensialının dəyərləndirilməsi aparılmışdır;
- Ermənistanın işğalı nəticəsində Azərbaycanın sosial-iqtisadi infrastrukturu, maddi-mənəvi irsi, ətraf mühit və təbii sərvətlərinə vurulmuş ziyanın miqyası geniş şəkildə təhlil edilmişdir;
- Vurulan maddi ziyanın təxmini həcmi yenidən qiymətləndirilmişdir;
- Vurulan ziyanın beynəlxalq hüququn norma və prinsiplərinə əsasən ödənilməsi imkanlarının mövcudluğu əsaslandırılmışdır;
- İşğaldan azad edilmiş ərazilərdə iqtisadiyyatın bərpası və yenidən qurulması üzrə dövlət siyasəti öyrənilmişdir;
- Həyata keçirilən bərpa və iqtisadi yenidənqurma siyasətinin daha da effektiv hala gətirilməsi üçün bir sıra təkliflər irəli sürülmüşdür.

**Nəticələrin praktiki əhəmiyyəti və tətbiq sahələri:** Erməni işğalı nəticəsində Azərbaycan ərazilərinə dəymiş maddi ziyanın statistik təhlili elmi olduğu qədər praktik tərəfdən ğəhəmiyyətlidir. Azərbaycan iqtisadiyyatına, sosial infrastrukturuna, əhali gəlirlərinə, maddi-mədəniyyət nümunələrinə, ətraf mühit və

təbii sərvətlərinə vurulan maddi zərərlərin təhlili və qiymətləndirilməsindən əldə edilən nəticələr bölgənin yenidən qurulması siyasətində və müvafiq strateji sənədlərin hazırlanmasında əsaslı istinad mənbəyi ola bilər. Bundan əlavə, tədqiqat işi Ermənistan dövlətinə qarşı kompensasiya iddiaları qaldırmaq üçün gərəkli hüquqi prosedurları analiz edir ki, müvafiq hissələr beynəlxalq təşkilatlar qarşısında hüquqi iddiaların qaldırılması zamanı istifadə edilə bilər. Son olaraq, işğalın səbəb olduğu maddi ziyanın gələcək qiymətləndirilməsi prosesində də bu tədqiqatın əldə etdiyi nəticələr və gəldiyi qənaətlərə müraciət edilə bilər.

# I FƏSİL. ÖLKƏ ƏRAZİLƏRİNİN İŞĞALININ SOSİAL-İQTİSADİ NƏTİCƏLƏRİNƏ NƏZƏRİ-METODOLOJİ YANAŞMA

## 1.1. Erməni işğalının Azərbaycan iqtisadiyyatına təsiri

Dağların və yüksək ovalıqların üstünlük təşkil etdiyi coğrafi mövqeyə malik Qarabağ bölgəsi Azərbaycanın qərb hissəsində, Kür və Araz çayları arasında yerləşir. Daha mülayim iqlimə, zəngin çaylara və bitki örtüyünə malik Qarabağ tarixən həm əkinçilik, həm də heyvandarlıq üçün əlverişli bölgə olmuşdur. Həmçinin dünyada mövcud olan on bir iqlim qurşağından altısı Azərbaycanın Qarabağ iqtisadi rayonunda müşahidə edilməkdədir.

Qarabağ tarixin demək olar ki, hər bir dövründə mühüm siyasi və iqtisadi mərkəz rolunu oynamışdır. Dünyanın ən qədim yaşayış məskənlərindən olan Azıx və Tağlar mağaralarının Qarabağda yerləşməsi bölgənin qədim məskunlaşma yeri kimi də tarixi əhəmiyyətindən xəbər verməkdədir (Hacıyev, Q., 2005: s. 55). Müxtəlif araşdırmalar göstərir ki, Qarabağın maddi-mənəvi sivilizasiyası Azərbaycanın maddi-mənəvi sivilizasiyasına daxildir.

Təbii sərvətlərlə zəngin olan Qarabağın mühüm keçid məntəqəsində yerləşməsi, coğrafi mövqeyi Qafqaz regionunda maraqları olan güclərin bu ərazini ələ keçirmək üçün davamlı mübarizəsi və s. səbəblər üzündən bölgə keçmişdən bu günə qədər tarixin hər dövründə müharibə və konfliktlərə səhnə olmuşdur. Başqa sözlə, Qarabağla bağlı son 150 ildə mövcud olmuş problemlərdə təbii-iqtisadi zənginlik, coğrafi mövqe və böyük dövlətlərin regionla bağlı strategiyaları mühüm amillər olmuşdur.

Keçən əsrin 80-ci illərinin sonları və 90-cı illərin əvvəllərində Sovet İttifaqının süqutu müxtəlif regionlarda mövcud olan etnik münaqişələri alovlandırdı və ya yeni münaqişlərin meydan çıxmasına gətirib çıxardı. Bu münaqişələrdən biri də Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi oldu. Azərbaycan ərazisi olsa da, son iki əsrdə imperiya güclərinin məkrli planlarına müvafiq olaraq köçürmələr nəticəsində ermənilərin sayı tədricən artırılan Dağlıq Qarabağa Sovetlər İttifaqı dövründə böyük strateji əhəmiyyətinə görə muxtar vilayət statusu verilmişdi

(1923). Ermənistan Sovet Sosialist Respublikası Ali Sovetinin Sovet İttifaqı dövründə Azərbaycanın tərkibində olan Dağlıq Qarabağın Ermənistanın tərkibinə keçməsi barədə qərar qəbul etməsi isə yeni müstəqillik əldə etmiş iki ölkə arasında müharibə vəziyyətinə gətirib çıxardı; 1988-ci ildə kəskinləşməyə başlayan Qarabağ münaqişəsi 1992-ci ildə ümumi müharibəyə çevrildi.

Mövcud vəziyyət Ermənistan ərazisində yaşayan azərbaycanlı əhalinin kütləvi şəkildə deportasiyası və etnik təmizləmə siyasəti ilə daha da alovlandı. 1988-ci ilin sonunda qalan 72 Azərbaycan kəndi də ələ keçirildi və nəhayət, 1989-cu ilin sonlarında bütün azərbaycanlılar Ermənistandan qovuldular. Beləliklə, Rusiya çarlığının 90, Sovet İttifaqının isə 70 ili ərzində azərbaycanlılar öz tarixi vətənlərindən, İrəvan və digər Qərbi Azərbaycandakı yurdlarından tamamilə çıxarıldılar.

**Cədvəl 1: Qarabağın işğalının Azərbaycanın işçi qüvvəsinə təsirləri**

| | |
|---|---|
| Öldürülənlər | 20.000 nəfər |
| Yaralananlar | 50.000 nəfər |
| Şikəst və əlil qalanlar | 50.000 nəfər |
| Əsirlər | 5.100 nəfər |
| Məcburi köçə məruz qalanlar | 1.000.000 nəfər |

**Mənbə:** http://anl.az/el/emb/QARABAQ/statistika.htm

1918-ci ildə əsası qoyulan zaman 9,8 min kvadrat kilometr əraziyə malik olan Ermənistan işğal və etnik təmizləmə hesabına təqribən 30 min kvadrat metr əraziyə sahib oldu. Ermənistan respublikası azərbaycanlılardan tamamilə təmizləndikdən sonra Azərbaycana məxsus Dağlıq Qarabağ və Qarabağ ətrafındakı Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarının işğal mərhələsi başlandı (Məsimli, Ə., 2007, http://www.anl.az/el/q/qarabag_6/q-12.htm). Rusiyanın fəal dəstəyi və iştirakı ilə Azərbaycan torpaqlarının beşdə biri Ermənistan tərəfindən işğal edildi.

1994-cü il mayın 12-də Azərbaycanla Ermənistan arasında atəşkəs sazişi imzalandı. Avropa Təhlükəsizlik və Əməkdaşlıq Konfransının (ATƏM) Minsk Qrupu, Rusiya, ABŞ və Türkiyə münaqişə üçün yeni sülh planı hazırlasalar da, məsələ ilə bağlı razılıq əldə oluna bilmədi.

Dağlıq Qarabağ və ətraf rayonların işğalı Qarabağın iqtisadi strukturuna böyük ziyan vurdu. Eyni zamanda Sovet İttifaqının dağılmasından sonra azad bazar

şərtlərinə görə yenidən strukturlaşma prosesinə keçən Azərbaycana və Ermənistana, işğala görə Ermənistanla sərhədlərini bağlayan Türkiyəyə iqtisadi cəhətdən bir sıra mənfi təsirlər göstərdi.

Azərbaycanın ayrılmaz parçası olan Dağlıq Qarabağ və ətraf rayonların Ermənistan tərəfindən işğalı son 30 ildə ölkənin sosial-iqtisadi resurslarına, o cümlədən maddi-mənəvi dəyərlərinə ölçüyəgəlməz zərərlər vurmuşdur. Bu maddi və mənəvi, o cümlədən ekoloji ziyanın miqyasını az da olsa aydınlatmaq üçün bölgənin Sovet İttifaqından əvvəl və sovet dövründə sosial-iqtisadi mənzərəsinə nəzər yetirmək məqsədəuyğun olacaqdır. Çünki yalnız bu halda erməni işğalının vurduğu maddi və mənəvi ziyanın miqyası əhatəli şəkildə anlaşıla bilər.

Dağlıq Qarabağ və ətrafında hələ Sovet İttifaqından əvvəl, 20-ci əsrin əvvəllərində kənd təsərrüfatı və kənd təsərrüfatına əsaslanan müəssisələr üstünlük təşkil edirdi. Qarabağ iqtisadiyyatında əsasən şərabçılıq, ipəkçilik və pambıqçılıq mühüm rol oynayırdı. Şuşa şəhərində şərabçılıq müəssisələri başqa şəhərlərə nisbətən daha çox idi (Əsədov, N., 2004, http://www.anl.az/el/q/qarabag_3/q-38.htm). Qarabağın ipəkçilik müəssisələri əsasən Şuşa və Cəbrayılda yerləşirdi. 19-cu əsrin sonu 20-ci əsrin əvvəllərindən pambıqçılıq Azərbaycanın və müvafiq olaraq Qarabağın aqrar sektorunda mühüm yer tutmağa başlamış və ildən-ilə inkişaf etmişdir. Həmin dövrdə pambıq emalı sənayesi üçün zəruri xammal potensialının yaradılması məqsədilə Şuşa şəhərində xeyli miqdarda kənd təsərrüfatı torpaqları ayrılmışdır.

20-ci əsrin əvvəllərində Qarabağ iqtisadiyyatında mühüm yer tutan sahələrdən biri də xalçaçılıq olmuşdur. Qarabağ xalçaçılığı 18-ci əsrin ikinci yarısından Şuşada mərkəzləşmiş və inkişaf etmişdir. Qarabağın Şuşa, Cavanşir və Cəbrayıl şəhərlərində toxunan xalçalar xarici bazarlarda mühüm əhəmiyyət kəsb edirdi. Xarici ölkələrdə, İngiltərə və Amerika bazarlarında Qarabağ xalçalarına ciddi tələbat var idi (Hacıyev, Q., 2005: s. 55).

Həmin dövrdə Qarabağda heyvandarlıqla bağlı sənaye sahələri daha çox primitiv xarakter daşıyırdı. Bu sahə ilə Qarabağın bütün əraziləri məşğul idi.

Ümumi və qısa şəkildə qiymətləndirildikdə, 20-ci əsrin əvvəllərində Qarabağ

iqtisadiyyatının sürətlə olmasa da, inkişaf etdiyi və bu inkişafın tədricən kapitalist xarakterli olduğu meydana çıxır.

SSRİ dövründə Qarabağ iqtisadiyyat əsasən 1923-cü il iyunun 7-də Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılmasından sonra inkişaf etmişdir. Dağlıq Qarabağın bir tərəfdən Azərbaycanın tərkibinə daxil olması, digər tərəfdən isə muxtar vilayət statusu alması Azərbaycanın iqtisadi inkişafı üçün böyük imkanlar yaratmışdır. Bölgənin gündən-günə inkişafı ermənilərin bölgəyə marağını artırmışdır. Elektrik stansiyaları və dəmir yolları Qarabağı Azərbaycanla birləşdirdiyi üçün Qarabağ tədricən iqtisadi mərkəzə çevrilməyə başlamışdı.

Azərbaycanın digər bölgələri ilə müqayisədə Qarabağın təbii sərvətlərinin zənginliyi və coğrafi mövqeyinin verdiyi imkanlar rayonun inkişafında mühüm rol oynamışdır. Qarabağ bu xüsusiyyətləri ilə ölkə iqtisadiyyatının lokomotiv güclərindən biri olmaq funksiyasını öz üzərinə götürdü.

Sovet İttifaqı dövründə də Dağlıq Qarabağın iqtisadiyyatı çar imperiyası dövründə olduğu kimi, daha çox kənd təsərrüfatı sahəsinə, o cümlədən üzümçülük, ipəkçilik və heyvandarlığa əsaslanırdı. Bölgə sənayesi elektronika, maşınqayırma, toxuculuq, ağac məmulatları və mebel istehsalatı üzərində cəmləşmişdi. Dağlıq Qarabağda sənaye məhsulları istehsalının illik artımı ümumilikdə ölkənin artım tempindən yüksək olmuşdur (Əsədov, N., 2002, http://www.anl.az/el/q/qarabag_1/q-39.htm).

Dağlıq Qarabağ Muxtar Vilayəti yarandıqdan 40 il sonra (1923-1963) rayonun sosial-iqtisadi göstəricilərində böyük irəliləyiş müşahidə olunmuşdur. 1963-cü ildə rayonda mövcud olan 1,4 min traktor və 670 yük maşını kənd təsərrüfatı sektorunda baş verən mühüm inkişafın ifadəsi kimi göstərilə bilər. Sənaye sektorunun inkişaf səviyyəsini ifadə etmək baxımından 1963-cü ildə 1940-cı illə müqayisədə sənaye istehsalı 341 faiz, elektrik enerjisi istehsalı 945 faiz artmışdır (Mahmudov, Y və Şükürov, K., 2005: s. 35).

1980-ci illərin ortalarında Qarabağda sosial-iqtisadi inkişafın göstəricisi kimi pedaqoji institutlar, kənd təsərrüfatı texnikumları, tibb texnikumları, 196 orta məktəb, 14 xəstəxana və d. müəssisələr fəaliyyət göstərirdi. Qarabağda yaşayış, məktəbəqədər uşaq müəssisələri və səhiyyə ocaqları həm Azərbaycan, həm də

Ermənistan SSR-in (Sovet Sosialist Respublikası) 1980-ci illərdəki ümumi göstəricilərindən yüksək idi. 1965-1987-ci illər arasında iqtisadi göstəricilərə nəzər saldıqda məlum olur ki, Dağlıq Qarabağın iqtisadi inkişaf səviyyəsi Azərbaycan SSR və Naxçıvanla müqayisədə daha yüksəkdir (Mahmudov, Y və Şükürov, K., 2005: s. 35-36).

Qarabağın işğalı zamanı rayonun iqtisadiyyatı infrastruktur və əmək amili baxımından çox böyük ziyan və itkilərə məruz qalmışdır. İşğal nəticəsində infrastrukturu zədələnmiş qurum, təşkilat və sistemlər haqqında məlumatlara nəzər saldıqda, bölgə iqtisadiyyatına vurulmuş ziyanın və itirilmiş dəyərlərin böyük miqyas təşkil etdiyi açıq şəkildə görünür. İlkin hesablamalara görə, Azərbaycan öz iqtisadi potensialının 16 faizini itirmiş və ölkəyə 60 milyard Amerika dollarından çox ziyan dəymişdir (Məsimli, Ə., 2007, http://www.anl.az/el/q/qarabag_6/q-12.htm).

Ermənistan-Azərbaycan müharibəsi zamanı ərazisinin 13 110 kvadrat kilometrini, yəni Dağlıq Qarabağla birlikdə təxminən 20%-ni itirmişdi. İşğal edilmiş ərazilər – Dağlıq Qarabağla (Xankəndi, Xocalı, Xocavənd, Ağdərə və Şuşa) yanaşı, Laçın, Kəlbəcər, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı və Zəngilan rayonları Qarabağdan kənarda işğal olunmuş torpaqlar olaraq, Azərbaycan ərazisinin 12%-nə bərabər idi. Rəsmi sənədlərdə Ermənistanın işğal etdiyi torpaqlar 20% olaraq göstərilsə də, işğal zonasına yaxın yerlərdə normal həyat və istehsal fəaliyyətini həyata keçirə bilməməsi səbəbindən, Azərbaycanın 25%-ə yaxınını işğal altında hesab etmək olardı.

İşğal olunmuş rayonlar zəngin yeraltı və yerüstü təbii sərvətlərə malikdir. Bölgədə ən çox yayılmış metallar dəmir filizi, qızıl, civə, xrom, perlit, gips, mərmər, əqiq və mineral sulardır. Bölgənin istirahət-turizm zonaları baxımından da böyük potensialı vardır (Həsənov, T., 2002, http://www.anl.az/el/q/qarabag_1/q-48.htm). Lakin uzun illər işğal altında olduğu üçün bölgədəki təbii sərvətlərdən davamlı inkişaf anlayışından uzaq və ermənilərin istəklərinə xidmət edəcək şəkildə istifadə edilmişdir.

İşğal altında olan Qarabağda Ermənistanın nəzarəti altında olan bəzi yerli və xarici şirkətlər tərəfindən müxtəlif istehsal fəaliyyətləri həyata keçirilmişdir. İşğal

olunmuş bölgədə istehsal fəaliyyəti ilə məşğul olan firmalar daha çox Ermənistandan kənarda yaşayan ermənilərə məxsus idi. Təkcə 2001-2003-cü illərdə Qarabağ iqtisadiyyatının yenidən qurulmasına 35 milyon dollar kapital qoyulub. İnvestisiyalar sonrakı illərdə də davam edib.

Münaqişə illərində Ermənistan "Hərbi münaqişələr zamanı mədəni sərvətlərin mühafizəsi haqqında" Haqq Konvensiyasının və "Mədəni sərvətlərin qeyri-qanuni dövriyyəsinə dair" Paris Konvensiyasının müddəalarını kobud şəkildə pozaraq Azərbaycanın mədəni irsini talayıb. Azərbaycanın Ekologiya və Təbii Sərvətlər Nazirliyi müxtəlif illərdə dəfələrlə bəyan edib ki, Ermənistan tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərində təbii sərvətlərin talan edilməsi və Dağlıq Qarabağdakı bəzi qızıl yataqlarının beynəlxalq şirkətlərə satılması faktları mövcuddur. Kəlbəcər və Zəngilan torpaqlarındakı qızıl yataqları ermənilər tərəfindən uzun illər qeyri-sağlam şəkildə istifadə olunmuş, bu yataqların xammalı Ermənistandakı Ararat qızıl zavoduna daşınmışdır. Xammal daha sonra külçələrə çevrilərək Rusiyaya və başqa dövlətlərə satılmışdır.

Azərbaycanın təbii sərvətlərinin qeyri-qanuni yollarla istismarında bir sıra xarici ölkə şirkətləri də iştirak edərək, bu beynəlxalq iqtisadi cinaəyətə şərik olmuşdur. Məsələn, Kanadanın First Dynasty Mines (FDM) şirkəti işğal altındakı Azərbaycan torpaqlarında yerləşən Kəlbəcərin "Söyüdlü" qızıl yatağının hasilatı ilə məşğul olub. Qızıl yatağının təxminən 73%-i işğal altındakı Kəlbəcər torpağında yerləşirdi. FDM şirkəti qızıl ehtiyatının təxminən 40 ton olduğu təxmin edilən Söyüdlü yatağından təkcə 2003-cü ildə 2 ton, 2004-cü ildə 2,5 ton, 2005-ci ildə 3 ton, 2006-cı ildə isə 5 tondan çox qızıl hasil etmişdir. Cari qiymətlərlə hesablandıqda Azərbaycan milyardlarla dollar zərərə uğramışdır (Məsimli, Ə., 2007, http://www.anl.az/el/q/qarabag_6/q-12.htm).

Beynəlxalq əhəmiyyət kəsb edən sənədlərdə və hesabatlarda ermənilərin işğal etdikləri Azərbaycan torpaqlarında narkotik maddələr becərdikləri və bu rayonlardan narkotik vasitələrin tranzit yolu kimi istifadə etdikləri açıq şəkildə qeyd olunmuşdur. Həmçinin işğal altında olan və nəzarətdən uzaq olan Dağlıq Qarabağ və onun ətraf rayonlarında narkotik bitkilərin yetişdirildiyi, məhsullarının gizli

şəkildə İran, Rusiya və Avropa bazarlarına çıxarıldığı bəzi səlahiyyətli qurumlar tərəfindən də bildirilir. 2020-ci ildə Azərbaycan əraziləri işğaldan azad edildikdən sonra buna dair onlarla fakt və sübutlar ortaya çıxarılmış, işğalçılar və maraqlı tərəflər üçün əhəmiyyətli narko-tranzit yolları kəsilmişdir.

ABŞ-ın narkotik maddələrlə bağlı hazırladığı hesabatlarda da beynəlxalq qurumların nəzarətindən uzaq, işğal etdikləri torpaqlarda ermənilər tərəfindən narkotik maddələrin istehsalı və satışı ilə bağlı məlumatlar da yer almışdır. Narkotik maddələrin istehsalı və satışından əldə edilən gəlirlər Azərbaycana qarşı fəaliyyətin maliyyələşdirilməsinə və regionda silahlanmaya yönəldilmişdir.

Ermənilər işğal etdikləri torpaqlarda narkotik maddələrin əkilməsini inkar edirlər. Bununla belə, işğal olunmuş ərazilərdə narkotik vasitələrin becərilməsi və satışı ilə bağlı çoxsaylı hadisələrin məhkəmələr tərəfindən qeydə alınması, Azərbaycanda baş verən bəzi cinayət hadisələri də Dağlıq Qarabağ torpağında narkotik maddələrin istehsal olunduğunu təsdiqləyir.

Döyüş bölgələrində ağır silahların və digər hərbi sursatların tətbiqi də bölgənin təbiətinə, torpaq örtüyünə və bitki növlərinə xeyli ziyan vurmuşdur. Habelə, aqrar sahədə istehsal sisteminin düzgün qurulmaması ölkənin torpaq sahələrinin aşınmasına səbəb olmuşdur. Nəticədə dağ-mədən və tikinti materialları sənayesində aparılan fəaliyyət nəticəsində respublikanın 4,3 min hektar ərazisi yararsız hala düşmüşdür.

İşğal altında olmuş Kiçik Qafqazın dağlıq bölgəsi Azərbaycanın ən böyük meşə rayonudur. Bu rayonlarda toplam meşə və qoruq sahəsi işğaldan əvvəl 269 min hektar olmuşdur (Şahmarov, Ə., http://www.anl.az/el/q/qarabag_1/q-48.htm). İşğal illərində meşələrdən kəsilən ağaclar qonşu ölkələrə daşınmışdır. Meşələrin məhv edilməsi bölgədə bəzi heyvan növlərinin nəsli kəsilməsinə və ekoloji tarazlığın pozulmasına təsir göstərmişdir. Məsələn, Azərbaycanın işğal altında olan Kəlbəcər və Zəngilan rayonlarında nadir ağacların kəsilərək və ya yandırılaraq məhv edilməsi ekoloji terror kimi qiymətləndirilməlidir. Azərbaycan meşələrindən kəsilən ağaclar bəzi Avropa şirkətləri vasitəsilə qonşu ölkələrə daşınaraq bazara çıxarılmışdır. Həmçinin erməni işğal altında olmuş rayonlarda 7 ağac zavodu fəaliyyət göstərmiş, kəsilən

ağaclardan Azərbaycan iqtisadiyyatına 35 milyard dollara yaxın ziyan dəymişdir.

SSRİ dövründə inzibati planlama çərçivəsində Azərbaycan uğurlu kənd təsərrüfatı ölkələrindən biri idi. Lakin Azərbaycan ərazilərinin işğalı normal kənd təsərrüfatı fəaliyyətinin aparılmasını da böyük zərbə vurmuşdur, çünki erməni işğalına qədər Azərbaycanın kənd təsərrüfatı sektorunda istehsal edilən məhsulların 35-40 faizi həmin ərazilərin payına düşürdü (Məsimli, Ə., 2007, http://www.anl.az/el/q/qarabag_6/q-12.htm).

Taxıl, yem, üzüm, tütün, kartof, pambıq istehsalı bölgənin kənd təsərrüfatında üstünlük təşkil edirdi. 1993-cü ildə Dağlıq Qarabağın işğalı ilə ərazisinin 20 faizini itirən Azərbaycan tərəvəz, meyvə, üzüm yetişdirmək üçün yararlı əkinçilik sahələrindən məhrum olmuş və bu məhsulların istehsalında xeyli azalma baş vermişdi. Dağlıq Qarabağda üzümçülük sahəsinə xüsusilə 1970-ci illərdən sonra daha çox önəm verilmişdi. Şərab fabrikləri üzümçülüyün və şərabçılığın inkişafı ilə bağlı yeni texnologiyadan istifadə etməklə yaradılmışdır. Azərbaycanın kənd təsərrüfatı torpaqlarını işğalı ilə üzüm istehsalı və şərab ixracı xeyli azalmışdı. 117 üzüm emalı zavodunun əksəriyyəti istehsalatdan kənarda qalmışdı. Digər tərəfdən, işğaldan sonra ölkədə tərəvəz istehsalı da iki dəfə azalmışdı.

Uzun illər erməni işğalı altında qalmış ərazilərin əksəriyyəti münbit əkinçilik əraziləri olmuşdur. Məsələn, Füzuli rayonunda ildə 100 min ton üzüm istehsal olunurdu. Zəngilan şəhərinin üç üzüm emalı zavodu və 3000 hektar üzüm bağı var idi. Ağdam pambıqçılığı ilə, Qubadlı isə heyvandarlığı ilə məşhur idi. Heyvandarlıq baxımından xüsusilə xırdabuynuzlu heyvandarlıq mühüm əhəmiyyət kəsb edirdi. Erməni işğalı bu rayonlarda təxminən 145 min iribuynuzlu və 455 min baş xırdabuynuzlu mal-qaranın itirilməsinə səbəb olmuşdur.

Ümumilikdə qiymətləndirildikdə, Azərbaycanın işğal olunmuş ərazilərində taxılın14,3 faizi, üzümün 31,5 faizi, ətin 14,5 faizi, südün 17,1 faizi, yunun 19,3 faizi istehsal olunurdu.

İşğal olunmuş torpaqlarda 900-ə yaxın yaşayış sahəsi, 131 min ev, 1025 təhsil müəssisəsi, 798 səhiyyə ocağı tərk edilmişdi. Eyni zamanda, kənd təsərrüfatına yararlı 1,3 milyon hektar torpaq, 1200 kilometr suvarma sistemi, 7 min aqrar

müəssisə, sahəsi 280 min hektar olan meşə tərk edilib.

**Cədvəl 2: İşğal nəticəsində Qarabağın sosial-iqtisadi infrastruktuna dəyən ziyan**

| | |
|---|---|
| Yaşayış yerləri | 890 |
| Evlər | 150 000 |
| Dövlət qurumları | 7 000 |
| Məktəblər | 693 |
| Uşaq bağçaları | 855 |
| Tibb müəssisələri | 798 |
| Kitabxanalar | 927 |
| Məscidlər | 9 |
| Tarixi yerlər | 9 |
| Tarixi abidələr | 464 |
| Muzeylər | 40 000 |
| Sənaye müəssələri | 6 000 |
| Yollar | 800 km |
| Körpülər | 160 |
| Su xətləri | 2 300 km |
| Qaz-boru xətləri | 2 000 km |
| Elektrik xətləri | 15 000 km |
| Meşə sahələri | 280 000 hektar |
| Suvarma sistemləri | 1 200 km. |

**Mənbə:** Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Prezident Kitabxanası. 2005, https://files.preslib.az/site/karabakh/gl1.pdf).

Hesablamalara görə, 920-dən çox kitabxana, 10-dan çox arxeoloji obyekt, 450-dən tarixi əhəmiyyətli abidə Ermənistanın işğalı altında qalmışdır. Eyni zamanda, Azərbaycan zəngin təbii sərvətlərdən, xüsusilə 39,6 min ton ehtiyata malik 3 qızıl mədəni, 4 civə və sürmə yatağından məhrum olmuşdur. Hesablamalara əsasən, Ermənistanla müharibə nəticəsində iqtisadi potensialının təxminən 16%-ni itirən Azərbaycana 25-60 milyard dollar civarında ziyan dəymişdir (Məsimli, Ə., 2007, http://www.anl.az/el/q/qarabag_6/q-12.htm).

Qarabağın işğalı ilə 72 min hektar sahədən əldə edilən 200 min ton taxıldan, 730 min ton üzümdən, 4 min ton tütündən, 20 min ton ətdən, 100 min ton süddən məhrum edilmə Azərbaycan iqtisadiyyatına böyük məbləğdə ziyan vurmuşdur (Naskali, E.G və Şahin, E, 2002: s. 470). Azərbaycanın bütün civə və perlit ehtiyatları, tikinti və s. materialların 35-60%-i, mineral su ehtiyatlarının 40%-i, meşələrin təxminən 24%-i, su ehtiyatlarının 8%-i Ermənistan tərəfindən işğal olunmuş Azərbaycanda yerləşirdi. İşğal olunmuş rayonlarda 13 197,5 hektar qiymətli meşə sahəsi və 6 geoloji aktiv qalmışdı.

Ümumi uzunluğu 25 min km olan avtomobil yolu, 160 körpü, 14,5 min km elektrik xətti, 2500 transformator, 2,3 min km su xətti, 2 min km təbii qaz xətti, 240 km kanalizasiya xətti, 160 su çəni, 35 min nömrə tutumlu telefon stansiyaları işğal nəticəsində zərər görmüşdür.

Eyni zamanda, 4 hava limanı, strateji əhəmiyyətli Bakı-Ağdam və Horadiz-Ordubad dəmir yolu xətləri, Bakı-Xankəndi-Naxçıvan təbii qaz kəməri işğal olunmuş torpaqlarda qalmışdı.

Ermənistanın işğal etdiyi ərazilərdə 310-dan çox sənaye müəssisəsi qalmışdı ki, onlar Azərbaycanda istehsal olunan tikinti materiallarının 11 faizi, ayaqqabı istehsalının 11 faizi, inək yağının 25 faizi, şərabın 35 faizi, xam ipəyin 13,5 faizi və mineral suların 15 faizini təşkil edirdilər.

Erməni işğalı xüsusilə kənd təsərrüfatı, heyvandarlıq və turizm sektorlarına mühüm təsir göstərmişdir. Azərbaycanın suya olan tələbatının ödənilməsi baxımından mühüm əhəmiyyət kəsb edən su ehtiyatlarının və suvarma sistemlərinin Ermənistan tərəfindən işğal olunmuş rayonlarda yerləşməsi ölkənin suvarma potensialını böyük ölçüdə kiçiltmişdir. İşğal olunmuş torpaqlardan başlayaraq suvarma kanallarının kəsilməsi Azərbaycanın dağətəyi ərazilərində məskunlaşmış rayonların əkinçilik və heyvandarlıq sahəsinə böyük zərbə vurmuşdu. Məsələn, Tərtər, Ağdam, Bərdə və Goranboy rayonlarında 80 min hektar ərazinin suvarılması üçün istifadə edilən Sərsəng bəndindən paylanan su kanalları ermənilər tərəfindən kəsildiyi üçün kənd təsərrüfatı sahəsində məhsuldarlıq qeyd olunan rayonlarda əhəmiyyətli dərəcədə azalmışdı.

Azərbaycan-Ermənistan münaqişəsinin davam etməsi Qafqaz regionunun Avropa ilə əməkdaşlığına da mənfi təsir göstərmişdir. Azərbaycanın turizm baxımından ən əlverişli bölgəsi olan Qarabağın işğalı ölkənin turizm sektoru baxımından ən mühüm itkilərdən biri olmuşdur. Qarabağ problemi ilə bağlı Ermənistanla münaqişə Azərbaycanın digər dövlətlərin vətəndaşları tərəfindən təhlükəli region kimi qəbul edilməsinə səbəb olmuş və bununla da ölkənin xarici turizmə ciddi şəkildə ziyanla üzləşmişdir.

Erməni işğalı nəticəsində Azərbaycanın qərb istiqamətində Naxçıvan Muxtar

Respublikası, Türkiyə Respublikası və oradan Avropaya gedən avtomobil yolları Ermənistan tərəfindən blokadaya alınmışdır. Nəticədə 90-cı illərdə Naxçıvanda ağır sosial-iqtisadi şəraitin formalaşmasına gətirib çıxarmışdır. Eyni istiqamətdə blokadaya alınmış Bakı-Culfa-İran İslam Respublikası dəmir yolu planlaşdırılan Şimal-Cənub qlobal nəqliyyat marşrutu layihəsi üçün də problem yaratmışdır (Həsənov, T., 2003, http://www.anl.az/el/q/qarabag_2/q-48.htm). Bakı-Tbilisi-Qara dəniz istiqamətində fəaliyyət göstərən Avrasiya nəqliyyat marşrutu da Ermənistan sərhədlərinin 25-30 kilometrliyindən keçdiyi üçün təhlükə altında hesab edilmişdir.

Yuxarıda göstərilən təsirləri nəzərə alsaq, Azərbaycanın son otuz illik sosial-iqtisadi inkişaf strategiyasında Qarabağ problemi və onun həlli də böyük əhəmiyyət kəsb etmişdir. Təbii ki, enerji ehtiyatları ilə regionda diqqət çəkən Azərbaycanın sosial-iqtisadi inkişafına mane olmaq və ya ən azı ləngitmək baxımından Ermənistan və Ermənistanın yürütdüyü siyasətə dəstək verən dövlətlər Qarabağ probleminin həllini istəmirdilər. Əslində isə Azərbaycana qarşı aparılan bu siyasət son nəticədə bütün Qafqaz regionuna mənfi təsir göstərmişdir (İbadoğlu, Q., 2002, http://www.anl.az/el/q/qarabag_1/q-31.htm).

Ermənistanın həyata keçirdiyi işğalçılıq siyasəti regionda enerji ehtiyatlarının hasilatı və ixracı üzrə irimiqyaslı layihələrin həyata keçirilməsini ləngitmiş, nəticədə bütün region ölkələri sosial-iqtisadi baxımdan mənfi təsirə məruz qalmışdır.

## 1.2. İşğal azad edilmiş ərazilərin Azərbaycanın iqtisadi inkişafındakı gələcək rolu

2020-ci ilin sentyab ayının 27-də başlayan Vətən müharibəsi Azərbaycan ərazilərinin 30 illik işğal, talan və istismarına son qoydu. Ermənistanla Azərbaycan arasındakı 44 günlük şiddətli müharibə hər iki tərəf üçün ciddi insan itkiləri və sosial-iqtisadi sınaqlarla dolu bir mərhələ olsa da, sonunda zəfər qazanan tərəf Azərbaycan oldu və Ermənistan tərəfindən uzun illər işğal altında saxlanılan Laçın, Kəlbəcər, Ağdam, Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli və Şuşa, Suqovuşan daxil olmaqla keçmiş Dağlıq Qarabağın mühüm bir hissəsi separatçı qüvvələrdən təmizləndi.

Ermənistanla Azərbaycan arasında 2020-ci ilin noyabr ayında ayında imzalanan sazişdən dərhal sonra uzun illər erməni işğalı altında böyük dağıntı və talana məruz qalan Qarabağın yenidən qurululması, bərpa və inteqrasiya işlərinə başlandı. Azərbaycan keçmiş Dağlıq Qarabağ regionunu və ətraf rayonları yenidən canlandırmaq, xarabalıqlara çevrilmiş yaşayış yerlərini ağıllı şəhərlərə və kəndlərə çevirmək üçün bütün mümkün resurslarını səfərbər etdi.

İşğaldan azad edilən ərazilərdə görülən və hazırda da davam edən ilk işlərdən biri yol, kommunikasiya kimi zəruri infrastruktur işlərinə başlanması olmuşdur. Bərpa və quruculuq işləri, uzun müddət öz yurdlarından uzaq düşmüş məcburi köçkünlər üçün zəruri yaşayış şərtlərinin təmin edilərək azad edilmiş yerlərdə yenidən məskunlaşdırılması Azərbaycan dövlətinin qarşısında duran ilk prioritet məsələlərdən biridir.

Azərbaycan dövlətinin qarşısında duran prioritet məsələləri nəzərə alaraq, dövlət başçısı İlham Əliyevin iqtsadi rayonların yenidən bölgüsü barədə verdiyi fərman ölkə ərazisində iqtisadi strukturlaşmanın yeni mexanizmini yaratdı. Belə ki, Azərbaycan Prezidentinin 2021-ci ilin iyul ayında imzaladığı fərmana müvafiq olaraq, ölkədə iqtisadi rayonların yeni bölgüsü müəyyən edilmişdir. Həmin hüquqi akta əsasən ermən işğalçılarından təmizlənmiş ərazilərin bərpası, orta və uzun vədədə inkişaf etdirilməsi, müvafiq infrastruktur sisteminin qurulması və məcburi köçkünlərin öz ata-baba yurdlarına geri dönməsi istiqamətlərində genişmiqyaslı

tədbirlər nəzərdə tutulmuşdur.

Ölkə başçısının 2021-ci ilin fevral ayında verdiyi Sərəncama müvafiq olaraq hazırlanmış "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafın milli prioritetləri" sənədi erməni işğalçılarından təmizlənmiş torpaqlara Böyük Qayıdışın konkret hədəflərini müəyyən edir. Böyük Qayıdışın ölkənin növbəti onillikdə sosial-iqtisadi inkişafın əsas milli prioritetlərindən biri kimi sənəddə öz əksini tapması Azərbaycan dövlətinin Qarabağ iqtisadi rayonunun yenidən qurulmasına, onun ölkənin sosial-iqtisadi həyatına inteqrasiyasına nə qədər önəm verdiyinin göstəricisidir. Çünki işğalçılardan təmizlənmiş bölgənin mövcud potensialının iqtisadi cəhətdən dəyərləndirilməsi və ölkə iqtisadiyyatına yenidən inteqrasiyası Böyük Qayıdış üçün həyati əhəmiyyətli məsələdir.

Uzun illər Qarabağ və ətraf rayonların sənaye, kənd təsərrüfatı və sosial-mədəni infrastrukturunun dağıdılması, talan edilməsi Azərbaycanı məcbur etmişdir ki, hər şeyin yenidən başlasın. Əlbəttə, məhz bu səbəbdən bölgənin iqtisadi potensialının düzgün şəkildə qiymətləndirilməsi və buna uyğun olaraq Azərbaycan iqtisadiyyatına inteqrasiyası uzun müddətli və çətin proseslərdən biri olacaqdır.

Qarabağ mədən sənayesi, metalurgiya, qida sənayesi, turizm, emal sənayesi, kənd təsərrüfatı, yaşıl enerji, yaradıcı sənaye sahələrində ölçüyəgəlməz inkişaf potensialına malikdir. Bölgənin sənaye potensialına aid keçmiş statistik məlumatlara diqqət yetirdikdə görmək olar ki, Dağlıq Qarabağla Azərbaycanın iqtisadi rayonları arasında sıx iqtisadi əlaqələr mövcud olmuşdur. Bir neçə istiqamətdə fəaliyyət göstərən yol-nəqliyyat infrastrukturu bölgənin Azərbaycanla iqtisadi əlaqələrində əhəmiyyətli yer tutmuşdur. Məhz bu yollarla gətirilən xammal, yanacaq və digər zəruri vasitələr hesabına Dağlıq Qarabağda mövcud olan sənaye müəssisələri işləyir və yaxud Azərbaycanın digər iqtisadi rayonlarındakı iri müəssisələrin filialı kimi fəaliyyət göstərirdilər. 1986-cı ildə Dağlıq Qarabağ regionunun xarici iqtisadi əlaqələrinin həcmində Ermənistan Respublikasının payı 1,7 faiz cıvarında olduğu halda, oradan Azərbaycana edilən ixrac 33 faizdən çox idi (İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, 2020: https://ereforms.gov.az/az/media/xeberler/isgal-olunmus-erazilerin-azad-edilmesi-azerbaycan-iqtisadiyyatina-ne-ved-edir-193).

Keçmişdə mövcud olmuş yol-nəqliyyat infrastrukturu və kommunikasiya əlaqələrinin bərpa edilməsi və mövcud iqtisadi siyasətə əsasən yenilərinin qurulması bölgənin Azərbaycanın başlıca iqtisadi rayonları ilə əlaqələrinin yenidən bərpası və sənaye potensialının dirçəldilməsi üçün ən birinci görülməli olan işlərdən biridir. Hazırda erməni işğalı nəticəsində dağıdılmış və məhv edilmiş avtomobil və dəmir yollarının yenidən qurulması istiqamətində Azərbaycan hökuməti tərəfindən həyata keçirilən intensiv işlər gələcək iqtisadi layihələr və xarici investisiya üçün çox mühüm əhəmiyyətə malik olacaq. Bakı ilə Xankəndi arasında mövcud olmuş şosse və dəmir yolu infrastrukturunun və digər kommunikasiyaların yenidən qurulması Qarabağın dağlıq hissəsi ilə paytaxt arasında birbaşa iqtisadi əlaqələrdə diqqət yetirilməsi mühüm məsələlərdən digəridir.

İnşaası başa çatmış 101 kilometrlik "Zəfər yolu" bölgənin yol-nəqliyyat infrastrukturunda strateji və mənəvi əhəmiyyətinə görə seçilir. Uzunluğu 124 kilometr olacaq Zəngilan-Horadiz avtomobil yolunun tikintisi isə hazırda davam etməkdədir. İşğaldan azad edilmiş ərazilərdə icrası davam etdirilən digər əhəmiyyətli infrastruktur layihələri Bərdə-Ağdam, Xudafərin-Qubadlı-Laçın və Xanlıq-Qubadlı avtomobil yollarıdır (Azərtac, 2021: https://azertag.az/xeber/Qarabag_ve_Serqi_Zengezurda_yol_infrastrukturu_ile_bagli_gorulen_isler_achiqlanib-1936060).

Qarabağ iqtisadi rayonunun gələcək inkişafı, yük və sərnişin daşımaları üçün dəmir yolları kritik əhəmiyyətə malik olacaqdır. Bu istiqamətdə sovet döründə mövcud olmuş dəmir yolu infrastrukturunun bərpa edilməsi və yenidən inşası istiqamətində həyata keçirilən layihələrdən ən önəmlisi uzunluğu 100 kilometr olan Horadiz-Ağbənd dəmir yolu xəttidir. Bu layihə Azərbaycanın Naxçıvanla dəmir yolu əlaqəsini Zəngəzur dəhlizi vasitəsilə bərpa edəcəkdir. Həyata keçirilən digər layihə isə Bərdə-Ağdam dəmir yolunun bərpasıdır.

Azərbaycanın öz ərazilərini işğaldan azad etməsi regional ticari və iqtisadi əlaqələrin canlanmasına, nəqliyyat və kommunikasiya xətlərinin inkişafına da zəmin yaratmışdır. Cənubi Qafqaz ölkələri ilə yanaşı, Şimal-Cənub, Şərq-Qərb nəqliyyat korridorlarında maraqlı olan bütün kənar dövlətlər də regional əlaqələrin canlanmasından

fayda qazanacaqdır.

Ermənistanla Azərbaycan arasında imzalanmış sazişə əsasən Ermənistanın öz ərazisindən Azərbaycanın Naxçıvan bölgəsinə korridor verməsi, müvafiq istiqamətdə dəmiryolu və şosse yolu infrastrukturunun qurulması Naxçıvanın izolyasiyasına son qoyacaq, həmçinin yük və ticarət daşımaları üçün yeni imkanlar açaraq regional əlaqələri gücləndirəcəkdir.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında iqtisadi inkişaf üçün ən mühüm məsələlərdən biri də regionda potensial müqayisəli üstünlüklərin müəyyən edilməsidir. Həm daxili, həm də xarici üstünlüklərin müəyyən edilməsində bölgənin təbii və iqtisadi ehtiyatlarına, işğaldan əvvəlki məşğulluğa, repatriantların təcürbə və bilik səviyyəsinə diqqət yetirilməlidir (Qarabağın iqtisadiyyatı yenidən qurulacaq, 2021: https://science.gov.az/ru/news/open/16136). Məhz buna görə də bölgənin bütün resurs və iqtisadi potensialı sovet dövründə mövcud olmuş məlumatlarla müqayisə əsasında yenidən qiymətləndirilməli, habelə müvafiq istiqamətlərdə dövlət siyasəti hazırlanmalı, ixtisaslı qurum və şəxslər tərəfindən yol xəritələri və planlar müəyyən edilməlidir.

Mütəxəssislərin proqnozlarına əsasən bölgə iqtisadiyyatı altı istiqamət üzrə təşkil ediləcəkdir. Bunlar aqrar biznes, qida, mədənçıxarma sənayeləri, təmiz enerji, nəqliyyat, logistika və turizmdir. 200 mindən hektardan artıq yararlı ərazinin aqrar məqsədlər üçün istifadəsi yaxın onilliklərdə Azərbaycan iqtisadiyyatına 10 faizdən çox gəlir gətirəcək. Faydalı qazıntı yataqlarının istismarı ölkənin müvafiq sənaye sahələrinə 5 faizdən çox əlavə dəyər qata bilər. Qarabağ bölgəsinin ölkənin mədənçıxarma sənayesinə 5 faizdən artıq, emal sənayesinə isə təxminən 4 faiz təsir edəcəyi proqnozlaşdırılır. Qarabağ bölgəsinin Azərbaycanın nəqliyyat xidmətlərinə əlavə etdiyi dəyər 5 faiz civarında olacaq və bütövlükdə qeyri-neft ÜDM-in formalaşmasına 5,1 faiz müsbət təsir göstərəcək. Mütəxəssislərin digər qənaəti də ondan ibarətdir ki, növbəti 10 ildə işğaldan azad edilmiş ərazilər Azərbaycanın qeyri-neft sektorunun 5-10 faizini təşkil edə bilər (İnterfax, 2021: http://interfax.az/view/837086/az).

Aqrar sektorun inkişafı nöqteyi-nəzərindən ciddi potensialı ilə seçilən

sahələrin yenidən qurulması və inkişaf etdirilməsi Azərbaycanın regional iqtisadi mövqelərinin və iqtisadi təhlükəsizliyinin daha da möhkəmləndirilməsində mühüm rol oynayacaqdır. Azərbaycanın 1,7 milyon hektara yaxın ərazisi erməni işğalı nəticəsində uzun illər səmərəsiz şəkildə istismar edilmiş, yaxud da istismar üçün yararsız vəziyyətə salınmışdır. Nəzərə alsaq ki, bu torpaqların böyük bir hissəsi, xüsusilə də Qarabağın aran əraziləri kənd təsərrüfatı və əkinçilik üçün yararlıdır, işğaldan əvvəlki dövürdə becərilmiş müxtəlif növ məhsulların yenidən becərilməsi və emalı ölkənin kənd təsərrüfatı məhsuldarlığına mühüm fayda verəcəkdir. Məlumat üçün qeyd edək ki, Dövlət Statistika Komitəsinin rəsmi məlumatlarına əsasən, 1980-ci illərdə bölgədə 139.8 min hektar əkilmiş sahə mövcud olmuşdur. Əkinlərin strukturunda taxıl sahələri və üzümlüklər üstünlük təşkil edib: əkilmiş sahənin 55%-i taxıl məhsullarının, 35%-i üzümlüklərin payına düşüb. Bu məlumatları nəzərə alaraq, işğaldan azad edilmiş ərazilərin gələcək əkinçilik strukturunda taxıl və üzümçülük məhsullarının üstünlük təşkil edəcəyini söyləmək mümkündür. Lakin Azərbaycan hökümətinin kənd təsərrüfatı strategiyasına müvafiq olaraq, bölgənin xüsusiyyətləri də nəzərə alınmaqla əkinçilik üçün seçilən yeni prioritet sahələrin (tütünçülük, pambıqçılıq və s.) inkişaf etdirilməsi də mümkündür. Hal-hazırda ölkədə taxılçılıq və üzümçülüyün faktiki inkişaf dinamikası da nəzərə alınmaqla, taxıl və üzüm istehsalında bu bölgənin payının təqribən eyni səviyyədə olması gözlənilir. Bundan başqa ənənəvi olaraq Qubadlı, Zəngilan və Kəlbəcər rayonlarında tütünçülüyün, Ağdam və Füzuli rayonlarında pambıqçılığın, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan və Ağdərə bölgələrində üzümçülük sahələrinin bərpa edilməsi nəzərdə tutulur (Fikrətzadə, F., 2020: https://agroeconomics.az/az/article/34/isgaldan-azad-olunan-erazilerimizde-kend-teserrufa/).

Hazırda aparılan hesablamalara əsasən işğaldan azad edilmiş ərazilərdə aparılacaq bərpa işlərindən sonra 200 min hektardan çox ərazi əkinçilik üçün yararlı olacaqdır. Bu, eyni zamanda bölgənin özünü yeyinti məhsulları ilə təchizatında və ümumilikdə Azərbaycanın qida təhlükəsizliyində əhəmiyyətli amillərdən biridir. Qarabağda kənd təsərrüfatının inkişafının sistemli xarakter daşıması, hökümətin inkişaf prioritetləri seçməsi və qida təhlükəsizliyi məsələsi ölkə başçısının bu

istiqamətdəki çıxışlarında dəfələrlə vurğulanan başlıca məsələlərdən biridir.

Böyük Qayıdışdan sonra bölgədə məskunlaşaraq yaşayacaq əhalinin maldarlıqla məşğul olması üçün imkanların yaradılması, arıçılığın inkişaf etdirilməsi, rayonlar üzrə ixtisaslaşmanın yenidən konkretləşdirilməsi aqrar sektorun dirçəldilməsi üçün çox mühümdür. İlkin hesablamalara görə, bu sahələr üzrə kənd təsərrüfatına investisiyaların qoyulması, ilk növbədə, milli qida təhlükəsizliyi və əhali məşğulluğunun təmin edilməsinə, yeni maliyyə vəsaitlərinin axınına və su resurslarından səmərəli istifadəyə töhfə verəcəkdir. Nəticədə qeyri-neft sektorunun inkişafı sürətlənəcək, əkinçilik dirçələcək, qida təchizatı yaxşılaşacaq, suvarma əkinçiliyi yeni mərhələyə qədəm qoyacaqdır (Qarabağın biomüxtəlifliyi mövzusunda onlayn konfrans başlayıb, 2021: https://science.gov.az/az/news/open/16972).

İşğaldan azad edilmiş ərazilər faydalı qazıntılarla zəngindir və kənd təsərrüfatı, habelə ölkə sənayesinin inkişafı üçün güclü potensiala malikdir. Bu yataqlarda sənaye ehtiyatları təsdiqlənmiş132,6 min ton qızıl, 37,3 min ton qurğuşun, 189 milyon ton yonqar, 1 milyon 526 min ton gips, 18 milyon 432 min ton üzlük daşı, 23 milyon 243 min ton gildir, 96 milyon 987 min ton qum-çınqıl, 1898,4 min ton civə, 4 milyon 473 min ton perlit, 2 milyon 144 min ton pemza, 129 milyon 833 min ton soda istehsalı üçün əhəngdaşı, 147 milyon 108 min ton sement və s. mövcuddur. Bu ehtiyatlar Qarabağ sənayesinin inkişafı üçün həyati əhəmiyyətlidir (İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, 2020: https://ereforms.gov.az/az/media/xeberler/isgal-olunmus-erazilerin-azad-edilmesi-azerbaycan-iqtisadiyyatina-ne-ved-edir-193). Artıq qeyd edildiyi kimi, bu faydalı qazıntı yataqları Ermənistanın təcavüzü nəticəsində uzun illər qeyri-leqal yollarla və vəhşicəsinə istismar və talan olunmuşdur. Lakin erməni işğalına son qoyulması ilə bölgədəki faydalı qazıntı yataqlarının Azərbaycan tərəfindən istismarına və bu sahəyə xarici investisiyalarına cəlbinə start verilmişdir. Həmçinin bölgənin faydalı qazıntı yataqlarının yenidən geologiyası, qiymətləndirilməsi və hazırkı potensialının üzə çıxarılması onların faydalı şəkildə istifadəsi və iqtisadiyyata yeni investisiyaların cəlb edilməsi üçün mühüm əhəmiyyət kəsb edir.

Qarabağın yenidən inşasına dövlət və özəl investisiyaları cəlb etmək bölgədə dayanıqlı iqtisadi inkişafın təməlini təşkil edəcəkdir. Qarabağa dövlət sərmayesi özəl sektor və xarici investisiyaya da zəmin yaradacaqdır. Qarabağın bərpası və yenidən qurulması üçün artıq Türkiyə, İtaliya, İngiltərə, Pakistan, İsrail və s. dövlətlərlə əməkdaşlıq müqavilələri bağlanaraq, müvafiq sahələrə sərmayelər cəlb edilməkdədir.

Artıq qeyd edildiyi kimi, Qarabağ su potensialı və ehtiyatları ilə zəngin bir bölgədir. Azərbaycanın su resurslarının 25 faizi Qarabağda yerləşir. Bölgənin başlıca çayları Tərtərçay, Bazarçay, Həkəri və digər kiçik çaylar su enerjisi üçün çox böyük potensiala malikdir. Qarabağın günəş enerjisi potensialının 3-4 min meqavat, külək enerji potensialının 3-5 yüz meqvat olduğu təxmin edilməkdədir. İran ilə ortaq layihə əsasında inşa ediləcək Xudafərin və Qızqalası hidroelektrik stansiyaları 280 meqavat enerji istehsal edəcək, Kəlbəcər və Laçın ərazisində qurulması planlaşdırılan su elektrik stansiyaları isə 120 meqavat enerji istehsal edəcəkdir. Bütün bu istehsal gücünün bölgənin elektrik enerjisinə olan ehtiyaclarını təmin edəcəyi təxmin edilməkdədir.

Bundan əlavə, Kəlbəcər rayonunda 3093 $m^3$/gün, Şuşada isə 412 $m^3$/gün termal su resursları yaşıl enerjinin inkişafı üçün böyük potensiala malikdir. Burada əsas məsələlərdən biri sadəcə yaşıl enerji qaynaqlarından enerji hasil etmək deyil, eyni zamanda enerjinin ötürülməsi, paylaşımı və səmərəli və smart sistemlərdən istifadədir.

Həm sovet dövründə, həm də müstəqillik dövründə bölgənin su resursları Azərbaycanın kənd təsərrüfatı üçün həyatı əhəmiyyətli olmuşdur. Hazırda davam edən və getdikcə artan qlobal iqlim böhranını və növbəti on illiklərdə suya olan tələbatın getdikcə yüksələcəyini nəzərə aldıqda, işğaldan azad edilmiş ərazilərdə mövcud olan su ehtiyatlarının Azərbaycan iqtisadiyyatı üçün nə qədər kritik önəm daşıdığı məlum olur. Su ehtiyatlarından səmərəli şəkildə istifadə edilməsi və gələcəkdəki su qıtlığının diqqətdə saxlanılması Azərbaycan hökümətinin bu istiqamətdəki fəaliyyətində mühüm yer tutur.

Qarabağın və ətraf ərazilərin su ehtiyatları ilə zənginliyi Azərbaycanın aqrar sənayesinin inkişafında həmişə mühüm rol oynayıb. Bu ərazilər işğaldan azad edildikdən sonra isə kənd təsərrüfatında suvarma suyuna olan tələbatın ödənilməsi üçün yeni imkanlar yaranmışdır. Vaxtilə Tərtər çayı üzərində inşa edilmiş Sərsəng

su anbarının tutumu 560 milyon $m^3$-dir. Respublikanın bir neçə rayonunun su ilə təmin edilməsində əhəmiyyətli rol oynayacaq Sərsəng su anbarı növbəti illərdə təxminən yüz min hektara torpağın suvarılmasına mühüm töhfə verəcəkdir. Qeyd edək ki, Sərsəng su anbarı ilə yanaşı, işğaldan azad edilmiş ərazilərdə ümumi sustutumu 80 milyon kubmetrdir. $m^3$ olan bir neçə anbar da mövcuddur. Onlardan səmərəli şəkildə istifadə əlavə olaraq 15 min hektar torpaq sahəsinin suvarılması üçün yeni imkanlar açacaqdır.

Bölgənin əkinçilik üçün yararlı torpaqlarının su ilə təchizat probleminin həllində ötən il Azərbaycanın nəzarətinə keçən Suqovuşan su anbarının da rolu olacaqdır. Xüsusilə, Tərtər rayonunda suvarma probleminin həllində Suqovuşan anbarına böyük ümidlər var.

Digər əhəmiyyətli bir su rezervi isə Xudafərin su anbarıdır. İşğaldan azad edilmiş Cəbrayıl və Zəngilan rayonları ərazisində yerləşən Xudafərin su anbarı əkinçilik üçün yararlı 75 min hektar ərazinin suvarılmasında faydalı olacaqdır. Su anbarının həcmi hesablamalara əsasən təxminən 1.6 mlrd. kubmetrdir.

Suvarma probleminin həllində Qarabağ iqtisadi rayonundakı yeraltı şirin su rezervləri də diqqətə alınmalıdır. Bölgədə 11 yeraltı şirin su ehtiyatı vardır ki, bu da 1 milyon 968 min $m^3$/gün yeraltı şirin su təchizatı deməkdir.

Azərbaycanın mineral su rezervlərinin təxminən 40 faizi işğal altında olan torpaqlarda yerləşirdi. Regionun işğaldan azad edilməsi ilə bu rezervlərdən səmərəli şəkildə istifadə edilmə imkanları yaranmış, turizm-rekreasiya sənayesinin daha da genişlənərək ölkə iqtisadiyyatına töfhə verilməsi diqqət mərkəzinə gəlmişdir.

Mövcud su potensialı elektrik enerjisinin istehsalında və bölgənin elektrik enerjisi ilə təmin edilməsində də kritik əhəmiyyətə malikdir. Belə ki, Sərsəng SES hazırda fəaliyyət göstərmək üçün yararsız halda olsa da, gələcəkdə onun bərpa edilməsi, isthesal gücünün artırılması həm Qarabağ iqtisadi rayonunun elektrik enerjisinə olan tələbatının təmin edilməsində, həm də Azərbaycanın qonşu ölkələrdən elektrik enerji asılılığının aradan qaldırılmasında mühüm rol oynaya bilər. 2016-cı ildə İran hökuməti ilə Azərbaycan hökuməti arasında bağlanmış Sazişə əsasən hazırda inşa edilən Xudafərin SES ilə Araz çayı üzərindəki su elektrik

stansiyalarının gücü 280 meqavata qədər yüksələ bilər. Bu layihələrin reallaşması Azərbaycana illik 368 milyon kVt/saat elektrik enerjisi istehsalı gətirə bilər (Trend, 2020: https://az.trend.az/business/3320233.html).

# II FƏSİL. ERMƏNİSTANIN İŞĞALI NƏTİCƏSİNDƏ AZƏRBAYCANA VURULMUŞ MADDİ, MƏNƏVİ VƏ EKOLOJİ ZİYANIN MİQYASI

## 2.1. Ermənistanın işğalı nəticəsində Azərbaycanın sosial-iqtisadi infrastrukturuna vurulmuş ziyanın miqyası

Keçmiş Dağlıq Qarabağ və işğala məruz qalmış ətraf yeddi rayon öz tarixi irsi, maddi-mədəni zənginliyi, gözoxşayan təbiəti, təbii sərvətləri, zəngin sosial-iqtisadi bazası və turizm üstünlükləri ilə tarixən Azərbaycanın ən mühüm bölgələrindən biri olmuşdur. Həmçinin Qarabağın kənd təsərrüfatı və heyvandarlıq üçün məhsuldar torpaqları və təbii zənginlikləri bölgənin Azərbaycan iqtisadiyyatı və sənayesində hər zaman mühüm yer tutmasına səbəb olmuşdur. Lakin uzun illər erməni işğalı altında qalması, istismar, talan və baxımsızlığa uğraması bölgənin sosial-iqtisadi potensialında ciddi ziyanlara yol açmış, illərlə formalaşmış sənaye və sosial-iqtisadi infrastrukturun tamamilə yox edilməsi ilə nəticələnmişdir. Ermənistanın işğalçı siyasəti bölgənin resurs potensialı, əkinçilik üçün əlverişli torpaq sahələri, habelə ətraf mühit və ekoloji balansı ilə yanaşı, Azərbaycan maddi-mədəniyyət abidələrinə də ciddi zərərlər vurmuşdur. Dissertasiya işinin bu fəsildə ermən işğalı nəticəsində Azərbaycana vurulmuş maddi və mənəvi zərərin miqyası aydınlaşdırılmağa çalışılmışdır.

Ermənistanın işğaçılıq siyasəti və Azərbaycan ərazisinin 20 faizindən çoxunu 30 ilə yaxın işğal altında saxlaması işğalın ilk illərindən etibarən bölgədə humanitar vəziyyətin pisləşməsi, aqrar-sənaye infrastrukturunun dağılması və Azərbaycan iqtisadiyyatına milyardlarla dollar zərər dəyməsi ilə nəticələnmişdir. İllər ötdükcə vurulmuş maddi və mənəvi ziyanın miqyası böyümüş və nəticədə onun qiymətləndirilməsi də buna müvafiq olaraq çətinləşmişdir.

1-ci Qarabağ Müharibəsinə qədər keçmiş Dağlıq Qarabağ və ətraf rayonlarında mövcud olmuş sənaye müəssisələri Azərbaycan iqtisadiyyatında xüsusi yer tuturdu. Bölgə əsasən yüngül, yeyinti və tikinti materialları sənayesi üzrə ixtisaslaşıb inkişaf etmişdi. Bu sahələrin inkişafı üçün bölgədə zəngin təbii resurslar və xammal materialları mövcud idi. Xüsusilə, yüngül sənaye, şərabçılıq və yağ-

pendir məhsulları bölgənin ərzaq ehtiyacının böyük bir qismini ödəməklə yanaşı, Respublikanın digər bölgələrinin də ərzaq təminatında mühüm rol oynayırdı.

Dağlıq Qarabağ Muxtar Vilayətində (DQMV) mövcud olan sənaye sahələri özünün inkişafına görə Azərbaycan SSR-nin digər iqtisadi bölgələri arasında 4-cü yerdə idi. Siyahıda ilk yerdə Abşeron, daha sonra isə Gəncə-Qazax və Naxçıvan Muxtar Respublikası (NMR) gəlirdi. Dağlıq Qarabağın sənaye infrastrukturu və potensialı əsasən Dağlıq Qarabağ Muxtar Vilayətini əhatə edirdi. Məsələn, Vilayət tikinti və sənaye müəssisələrinin sayına görə (137 müəssisə) ilk yerdə qərarlaşmışdı. Vaxtilə işğal altında olmuş rayonlarda istehsal olunan sənaye mallarının təxminən 40 faizi və əsas fondların təxminən 19 faizi DQMV-nin payına düşürdü. İşğaldan əvvəl Qarabağ ətrafı rayonlardan sənaye və tikinti sektorları üzrə ən inkişaf etmiş rayonlar Ağdam və Füzuli idi. Sənaye məhsuları və yaradılmış əsas fondlar üzrə Ağdam və Füzuli rayonlarının payı müvafiq olaraq 5 faiz və 41 faiz idi. Digər inzibati rayonlar – Cəbrayıl, Qubadlı, Zəngilan, Laçın və Kəlbəcər sənaye cəhətdən zəif inkişafı ilə seçilirdi.

Rəsmi statistik rəqəmlərə görə 1988-ci ildə Azərbaycan SSR-nin ümumi sənaye məhsulunun 2,7 faizi, əsas fondların isə 3,4 faizi işğal altında olan rayonlarda istehsal olunurdu (Süleymanov, E., və Süleymanov V., 2012: s. 78). İşğal altında olmuş rayonlarda işğaldan əvvəlki sənaye istehsalını sənaye məhsulları üzrə qruplaşdırıb ölkə sənayesindəki payına baxsaq, aşağıdakı nəticələri əldə edərik. İşğaldan öncə Azərbaycan sənayesində şərab məhsullarının 35 faizi, inək yağının 25 faizi, ətin 5, konservlərin 7 faizi, divar məhsullarının 11 faizi, əhəngin 7,8 faizi, tikinti məhsullarının isə 3 faizi işğal edilmiş ərazilərin payına düşürdü. Bundan əlavə, ayaqqabı istehsalının 11 faizi, xam ipəyin 13.5 faizi, mineral suların 15 faizi Dağlıq Qarabağ və ətraf rayonlardakı sənaye müəssisələrində istehsal olunurdu. Bu sənaye sahələri üzrə Respublikada və ölkə xaricində məşhur olan Ağdam və Muxtar Vilayətin mərmər zavodları, mineral su qablaşdırma müəssisələri (İstisu, Turşsu və s.), Ağdam və digər şərab zavodları, bir sıra ərzaq və yüngül sənaye müəssisələri, habelə Qarabağ İpək Kombinatı və s. işğal nəticəsində tamamilə yox edilmiş və nəticədə Azərbaycanın sənaye istehsalı ciddi itkilərlə üzləşmişdir.

İşğala qədər Bakıda fəaliyyət göstərən sənaye müəssisələrinin Dağlıq Qarabağ və ətraf rayonlarda əllidən artıq filialı fəaliyyət göstərirdi. İşğal nəticəsində bölgə ilə paytaxt arasında dinamik iqtisadi əlaqələr kəsilmiş və filiallar fəaliyyətini dayandırmışdır. Ümumilikdə götürdükdə isə işğal olunmuş ərazilərdə 183-ü sənaye, 127-si tikinti olmaqla, 310-dan artıq sənaye və tikinti müəssisəsi erməni təcavüzü nəticəsində itirilmişdir.

Qarabağ bölgəsi Ermənistanın işğalına məruz qalana qədər özünün kommunikasiya, su, boru, elektrik, qaz, yol, körpü və s. üzrə geniş potensial və imkanları ilə Azərbaycanın digər regionları içində özünəməxsus yer tuturdu. İşğal nəticəsində bölgənin 25 min kilometrdən artıq avtomobil və torpaq yol infrastrukturu, 160 körpüsü, təxminən 15 min kilometrə yaxın elektrik xətləri, 2,3 min kilometr su və 2 min kilometr qaz kəməri xətti, 240 kilometr kanalizasiya xətti, 34-dən çox qazpaylayıcı və 2500 transformator qurğusu, 35 min evi əhatə edən telefon stansiyası məhv edilmişdir. Bundan əlavə, bölgədə xüsusi əhəmiyyətli dörd hava limanı, iqtisadi daşımalarda mühüm yer tutan Bakıdan Ağdama və Horadizdən Ordubada qədər uzanana dəmiryolu xətləri də işğalın qurbanı olmuşdur. Öz strateji əhəmiyyəti ilə seçilən Bakı-Xankəndi-Naxçıvan qaz kəməri də erməni işğalı nəticəsində dağılmışdır.

Dağlıq Qarabağ və ətraf rayonlar işğala qədər Azərbaycanın yüngül, tikinti və yeyinti sənayesində tutduğu xüsusi yeriylə yanaşı, həm ölkənin ən məhsuldar torpaqlarının bir qisminin yerləşdiyi böyük kənd təsərrüfatı bölgəsi idi. Əlverişli iqlim şəaiti, geniş düzənlik və yaylalar bölgədə həm aqrar, həm də heyvandarlıq sənayesinin inkişafı üçün geniş imkanlar təmin edirdi. Dağlıq Qarabağda və ətrafında yerləşən inzibati rayonlar əkinçilikdə əsasən üzümçülük, tütünçülük, kartofçuluq, pambıqçılıq, taxılçılıq, yem istehsalı sahələri, heyvandarlıqda isə qoyunçuluq üzrə ixtisaslaşmışdı. Bu sahələr arasında üzümçülük və şərabçılıq xüsusilə seçilirdi. Bu istiqamət üzrə infrastruktur və müəssisələrin inkişaf etdirilməsinə 1970-ci illərdən sonra xüsusi diqqət ayrılmışdı.

Bölgənin sənaye məhsulları strukturunda tütünçülük də əhəmiyyətli yer tuturdu. Erməni işğalı fəaliyyətini dayandıran bir çox aqrar müəsissələr kimi,

tütünçülük müəssələrinin də fəaliyyətinə son qoymuş və tütünçülüyün ölkənin sənaye məhsulları istehsalındakı payına xeyli ziyan vurmuşdur.

İşğala məruz qalmış ərazilərdə kənd təsərrüfatı üçün zəruri infrastruktra da vurulan ziyanın miqyası çox böyük olmuşdur. Belə ki, 7296 ədəd hidroqurğu, 36 ədəd nasos stansiyası, 26 ədəd suvarma sistemi, 18 ədəd suvarma sisteminin baş qurğusu, 1200 km təsərrüfatlar arası suvarma kanalı, 5600 km təsərrüfatdaxili sistem sıradan çıxarılmış, habelə 127,7 min ha keyfiyyətli suvarılan torpaq qalmışdır (Süleymanov, E., və Süleymanov V., 2012: s. 80).

Beləliklə, qeyd edilənləri ümumiləşdirsək, birinci Qarabağ müharibəsindən öncə Respublikada istehsal olunan taxıl məmulatlarının təxminən 14 faizi, üzüm məhsullarının üçdə birindən artığı, ətin 15 faizi, süd məhsullarının 17 faizi, yunun 19, baramanın isə 17 faizi Dağlıq Qarabağ və ətrafındakı rayonların payına düşmüşdür. Bu rəqəmlər erməni işğalının Azərbaycanın yüngül və yeyinti sənayesinə, o cümlədən ərzaq təhlükəsizliyinə, bütövlükdə isə ölkə iqtisadiyyatıa nə qədər böyük həcmdə ziyan vurduğunun bariz nümunəsidir. Bundan əlavə, nəzərə alsaq ki, bu ərazilərdə istehsal olunan sənaye və kənd məhsullar öz keyfiyyətinə və ekoloji baxımdan təmizliyinə görə digər bölgələrin emal sənayesindən xüsusilə seçilirdi, bu halda vurulan ziyanın üstünə bu faktorları əlavə etmək lazım gəlir.

Keçmiş Dağlıq Qarabağ və ətraf rayonlarun heyvandarlıq potensialı özünün yüksək inkişafı ilə diqqət çəkirdi. Erməni işğalı heyvandarlıq sahələrinə də çox böyük həcmdə ziyan vurmuş, bundan əlavə, işğala yaxın illərdə bölgədə bu sahəyə ayrılmış investitsiyaların, inkişaf etdirilmiş iri heyvandarlıq təsərrüfatlarının məhv olmasına gətirib çıxarmışdır. Azərbaycana erməni işğalı ilə dəyən ziyanın həcmi və miqyası o qədər böyükdür ki, aşağıdakı rəqəmlər bu ziyanın yalnız kiçik bir hissəsini əhatə edir. Azərbaycanın işğal olunmuş ərazilərində 310-dan çox kənd təsərrüfatı müəssisəsi qalmışdır ki, bunun 140-dan çoxu son illərdə əsası qoyulmuş və dövrü üçün müasir texnologiya ilə təchiz edilmiş şərabçılıq müəssisəsi olmuşdur. İşğal nəticəsində dağıdılan müəssisələr sırasında Qarabağ atları yetişdirən Ağdam atçılıq zavodunun da ölkə üçün xüsusi əhəmiyyəti var idi. İşğal nəticəsində itirilmiş iribuynuzlu mal-qaranın sayı 300 min başdan çox, qoyun və keçinin sayı isə

təxminən 1.1 milyon baş olmuşdur. Tələb olan heyvandarlıq məhsulları içərisində 20 min ton ət, 76 min ton süd, 800 milyon tondan çox digər illik heyvandarlıq məhsulları qeydə alınmışdır. Ölkədə heyvandarlığın inkişafı və yaşaması üçün xüsusi əhəmiyyət kəsb edən otlaq sahələrinin 70 faizi işğal olunmuş ərazilərdə qalmışdır (İşğalın ağır sosial-iqtisadi nəticələri, https://azerbaijan.az/information/907).

Ermənistanın işğalçılıq siyasəti təkcə Qarabağın dağlıq hissəsi və ətraf rayonlarına deyil, o cümlədən işğal olunmuş ərazilərlə sərhəd olan digər rayonlara və Ermənistanla həmsərhəd rayonların sosial-iqtisadi infrastrukturuna kütləvi ziyan vurmuşdur. Müharibə və erməni işğalı nəticəsində bu rayonların bir sıra yaşayış məntəqələri dağıntılara məruz qalmış, əhali yaşayış yerlərini tərk etmək məcburiyyətində qalmış, sənaye və kənd təsərrüfatı müəsissələri ilə yanaşı, maddi-mədəniyyət obyektləri də dağıdılmışdır. Belə ki, erməni işğalı nəticəsində sərhədyanı Tovuz, Qazax, Ağstafa, Tərtər, Bərdə, Ağcabədi rayonlarına, o cümlədən Naxçıvan Muxtar Respublikasına böyük miqdarda maddi və mənəvi, ekoloji ziyan dəymişdir.

Ümumilikdə, 900-dən çox qəsəbə (şəhər, qəsəbə, kənd və s.), ümumi sahəsi 9,1 milyon m2 olan 150 minə yaxın ev və mənzil, 798 səhiyyə obyekti, o cümlədən 695 xəstəxana və digər tibb müəssisəsi, 927 kitabxana, 1510 mədəniyyət müəssisəsi, 598 rabitə obyekti, 4366 sosial-mədəni obyekt, 7000 ictimai bina, 2389 sənaye və kənd təsərrüfatı obyekti, 1025 məktəb, 855 uşaq bağçası, 4 sanatoriya Ermənistanın Azərbaycan ərazilərinin 20 faizini işğalı nəticəsində dağıdılmışdır. Həmçinin 5198 km avtomobil yolu, 348 km körpü, 286 km dəmir yolu, 116 dəmir yolu körpüsü, 224 su anbarı, 7568 km su xətti, 2000 km qaz kəməri, 76940 km elektrik verilişi xətləri sıradan çıxarılmışdır.

İşğala qədər Dağlıq Qarabağın və ətraf rayonların ölkə iqtisadiyyatında tutduğu yeri daha aydın təsəvvür etmək üçün qeyd etmək olar ki, işğala qədər ölkə üzrə ÜDM istehsalının 24%-i, üzüm istehsalının 41%-i, kartof istehsalının 46%-i, ət istehsalının 18%-i, süd istehsalının 34%-i bu rayonların payına düşmüşdür. Bundan əlavə, Azərbaycann meşə massivlərinin təxminən dörddə biri, yəni 280 min hektar meşə sahəsi işğal olunmuş ərazilərdə qalmışdır (Fikrətzadə, F., 2020:

https://agroeconomics.az/az/article/34/isgaldan-azad-olunan-erazilerimizde-kend-teserrufa/).

Ermənistanın işğalçılıq siyasəti nəticəsində Azərbaycana dəyən maddi və mənəvi ziyanın miqdarının hesablanması praktik cəhətdən imkansızdır. Xüsusilə, dünya maddi-mədəni irsinin tərkib hissəsi olan Azərbaycan mədəniyyət abidələrinə, ətraf mühitinə, bioloji müxtəlifliyinə, bitki örtüyünə və florasına vurulmuş ziyan qiymətləndirilə bilməz. Bununla belə, erməni işğalı nəticəsində Azərbaycanın sosial-iqtisadi infrastrukturuna vurulmuş maddi zərəri qismən qiymətləndirmək mümkündür. Müharibədən qısa müddət sonra Azərbaycanın BMT Nümayəndəliyinin 1996-cı ildə Təşkilatın Baş Katibinə ünvanladığı məktubda qeyd edilirdi ki, erməni işğalı nəticəsində Azərbaycana dəyən madii ziyanın ümumi dəyəri, ilkin və tam olmayan qiymətləndirmələrə əsasən, 10 milyardlarla ABŞ dollarını əhatə etmişdir (Azərbaycanın Birləşmiş Millətlər Təşkilatındakı Daimi Nümayəndəsinin Baş Katibə 25.10.1996-cı il tarixli məktubu, https://digitallibrary.un.org/record/207153/files/S_1996_170-EN.pdf).

Azərbaycanın üzv olduğu daha bir beynəlxalq təşkilat, İslam Konfransı təşkilatının 2008-ci il tarixli rəsmi sənədinə əsasən bu məbləğ 60 milyard amerika dolları olmuşdur (11-ci İslam Zirvə Konfransı, 2008, https://www.oic-oci.org/docdown/?docID=40&refID=9, s. 13). Bu maddi zərərin 30 milyarddan artıq hissəsi keçmiş DQMV-nin sosial-iqtisadi infrastrukturuna dəymiş zərərdir. 1994-cü ilin ilkin qiymətləndirməsinə əsasən, təkcə Şuşa şəhərinə dəymiş maddi ziyanın həcmi 4 milyard ABŞ dollarından çox olmuşdur (Süleymanov, E., və Süleymanov V, 2012: s. 83). Şuşa şəhərinə vurulan bu zərər qiymətləndirilərkən ermənilər tərəfindən məhv edilmiş 250-ə yaxın tarixi abidə, Daşaltıdakı təbiət yasaqlığı, Paleolit dövrünə aid olan Xan mağarası və s. kimi tarixi maddi-mənəvi abidələri pul vahidi ilə dəyərləndirmək mümkün olmadığı üçün onların qiyməti göstərilən rəqəmdə əks olunmamışdır.

Münaqişənin işğal edilmiş 7 rayonun sosial-iqtisadi infrastrukturuna vurduğu ziyanın ilkin qiymətləndirilməsi (1994) zamanı vurulmuş birbaşa maddi ziyanın həcmi 28 milyard ABŞ dollarından artıq müəyyən edilmişdir.

Belə ki, erməni işğal nəticəsində Kəlbəcər rayonuna 1 milyar 774 milyon

dolları, Ağdam rayonuna 6 milyard 100 milyon, 107 min dollar, Füzuli rayonuna 4 milyard 742 milyon 936 min dollar, Qubadlı rayonuna 1 milyard 485 milon 627 min dollar, Cəbrayıl rayonuna 3 milyard 450 milyon dollar, Zəngilan rayonuna 3 milyard 414 milyon 170 min dollar, Laçın rayonuna 7 milyard 99 milyon 526 min 500 dollar birbaşa maddi ziyan dəymişdir.

**Cədvəl 3: Şuşa şəhərinin dağıdılmış və məhv edilmiş sosial-iqtisadi infrastrukturu barədə məlumat**

| **Sıra №** | **Ziyan görmüş və məhv edilmiş obyektlər** | **Ölçü vahidi** | **Ümumi miqdarı** |
|---|---|---|---|
| 1 | İşğal edilmiş və ya dağıdılmış yaşayış məntəqələri | ədəd | |
| ‘ | Şəhərlər | ədəd | 1 |
| | Kəndlər | ədəd | 37 |
| | Qəsəbələr | ədəd | 1 |
| 2 | Yaşayış evləri, mənzillər | ədəd | 6800 |
| 3 | Sənaye obyektləri | ədəd | 35 |
| 4 | Kənd təsərrüfatı obyektləri (texnika, nəqliyyat və s.) | ədəd | 183 |
| 5 | Maldarlıq təsərrüfatları | ədəd | 1 |
| 6 | Kənd təsərrüfatı heyvanları | Baş | 39500 |
| 7 | Quşlar | ədəd | 26000 |
| 8 | Arılar | ailə | 1000 |
| 9 | Texnika, nəqliyyat, mexanizmlər və s. | ədəd | 1050 |
| 10 | Rabitə obyektləri, teleməkəz | ədəd | 15 |
| 11 | Səhiyyə müəssisələri | ədəd | 29 |
| 12 | Tədris müəssisələri | ədəd | 44 |
| 13 | Mədəniyyət müəssisələri | ədəd | 6576 |
| 14 | Avtomobil yolları | Km | 300 |
| 15 | Dəmiryolu xətləri | ədəd | - |
| 16 | Körpülər | ədəd | 25 |
| 17 | Su anbarları | ədəd | 2 |
| 18 | Su xətləri | Km | 500 |
| 19 | Elektrik xətləri | Km | 850 |
| 20 | Qaz boru xətləri | Km | 620 |
| 21 | İstilik sistemləri | ədəd | 1 |
| 22 | Kanalzasiya sistemləri | Km | 35 |
| 23 | Digər | ədəd | - |
| **Dəymiş ziyanın ümumi miqdarı (ABŞ dolları ilə), 1994-cü ilin qiymətləndirilməsi** | | **4.257.474.000** | |

**Mənbə:** Süleymanov, E., və Süleymanov V, 2012: s.109-113

Qeyd etmək yerinə düşər ki, bu rəqəmlər Birinci Qarabağ Müharibəsindən

dərhal sonrakı, 1994-cü il qiymətləri ilə hesablanmışdır.

**Cədvəl 4: 1994-cü ilin ilkin qiymətləndirməsinə əsasən Şuşa və ətraf yeddi rayona dəymiş sosial-iqtisadi ziyanın həcmi (ABŞ dolları ilə)**

| İşğala məruz qalmış Şuşa və ətraf yeddi rayon | Dəymiş sosial-iqtisadi zərərin həcmi (ABŞ dolları ilə, 1994-cü ilin qiymətləndirməsi) |
|---|---|
| Şuşa | 4.257.474.000 |
| Kəlbəcər | 1.774.000.000 |
| Ağdam | 6.100.107.000 |
| Füzuli | 4.742.936.050 |
| Qubadlı | 1.485.627.000 |
| Cəbrayıl | 3.450.000.000 |
| Zəngilan | 3.414.170.000 |
| Laçın | 7.099.526.500 |

**Mənbə:** Süleymanov E., və Süleymanov V., 2012: s.85

Bununla belə, Ermənistanın işğalçılıq siyasəti nəticəsində Azərbaycanın sosial-iqtisadi infrastrukturuna vurulmuş maddi ziyanın həcmi qeyd edilən rəqəmlərlə məhdudlaşmır. Erməni işğalı ölkənin cəhbəyanı və işğalçı dövlətlə sərhəd rayonlarına da külli miqdarda maddi ziyan vurmuşdur. Müharibə və işğal nəticəsində Azərbaycanın Tərtər, Qazax, Tovuz, Ağcabədi, Ağstafa, Beyləqan və Gədəbəy rayonlarına ümumilikdə 1 milyard 389 milyon 233 min 285 dollar (1994-cü ilin qiymətləndirilməsi, ABŞ dollar ilə) maddi ziyan dəymişdir.

Artıq qeyd edildiyi kimi, erməni işğalına məruz qalmış ərazilərə dəymiş maddi zərər üzrə bütün bu qiymətləndirmələr 1994-cü ilə aiddir. Həmin ildən hazırkı dövrə qədər ABŞ dolları bir neçə dəfə inflyasiyaya uğramış, habelə alıcılıq qabiliyyəti də buna müvafiq olaraq zəifləmişdir.

İşğal nəticəsində Azərbaycan sosial-iqtisadi infrastrukturuna vurulmuş zərərin miqdarı 1994-cü ildə 60 milyard ABŞ dolları həcmində qiymətləndirilirdisə, bu məbləğ dolların alıcılıq qabiliyyətini nəzərə alsaq, növbəti illərdə dəfələrlə qalxmışdır. Məsələn, 2011-ci ildə dolların alıcılıq qabiliyyətini nəzərə alaraq aparılmış yenidən qiymətləndirməyə görə Ermənistanın təcavüzü və işğalı nəticəsində Azərbaycana dəymiş zərərin miqdarı 300 milyard dolları ötmüşdür.

Ekologiya və Təbii Sərvətlər Nazirliyində yaradılmış İşçi Qrupu tərəfindən 2014-cü ildə hazırlanan hesabatda ermənilərin işğalı nəticəsində Azərbaycana vurulan maddi-mənəvi zərərin 22 illik işğal dövrü ərzində 285 milyard dollar

çərçivəsində olduğu qeyd edilmişdir (http://eco.gov.az/az/nazirlik/xeber?newsID=6574). Ermənistanın Qarabağ və ətraf rayonları işğalı ilə Azərbaycan dövlətinə vurulmuş maddi ziyanın həcminin dünyada qəbul edilmiş üsullarla aparılmış məhkəmə-ekspertizası nəticəsində müəyyən edilmişdir ki, Azərbaycana təxminən 819 milyard ABŞ dolları məbləğində maddi ziyan vurulmuşdur (https://mod.gov.az/az/pre/24525.html).

Artıq qeyd edildiyi kimi, erməni işğalı qədər Azərbaycan ÜDM-nin təxminən 25 faizi DQMV və ətraf yeddi rayonun payına düşürdü. Nəticədə 28-29 illik işğal dövründə Azərbaycan öz ÜDM-sinin 25 faizindən və yaxud da işğal altında olmayan ərazisində istehsal edilən ümumdaxili məhsulunun üçdə birindən məhrum olmuşdur.

Nəticədə, Dövlət Statistika Komitəsinin rəsmi məlumatlarına əsasən 1995-ci ildən 2010-cu ilə qədər Azərbaycan 86 milyard 702 milyon dollar ümudaxili məhsulundan məhrum olmuşdur.

Beləliklə, Ermənistanın Azərbaycana qarşı 30 ilə yaxın davam edən işğalçılıq fəaliyyəti nəticəsində ölkəyə dəymiş sosial-iqtisadi ziyanın 2010-cu il tarixinə 300, 2018-ci il tarixinə isə 818 milyard ABŞ dollarından artıq olduğu müəyyən edilmişdir.

## 2.2. Ermənistanın işğalı nəticəsində Azərbaycanın maddi-mədəniyyət abidələrinə vurulmuş ziyanın miqyası

Qarabağ köklü tarixi keçmişə və zəngin mədəni irsə malik ən qədim yaşayış məskənlərindən biridir. Müxtəlif memarlıq abidələri, sənət əsərləri, arxeoloji qazıntılar nəticəsində əldə edilmiş tapıntılar ölkənin uzaq keçmişə və geniş mədəni irsə malik olduğunu göstərir.

Mədəni irs həm də ölkənin keçmişindən xəbər verən, yalnız cəmiyyətin tarixini deyil, həm də mədəni dəyərlərini əks etdirən arxivlərdir. Azərbaycanın Qarabağ bölgəsi mədəni irs baxımından zəngindir. Qarabağın işğalından sonra mədəni irsin qəsdən zədələnməsi və məhv edilməsi, şəhərlərin mədəni fakturasının, arxeoloji xüsusiyyətlərinin dəyişdirilməsi həm Azərbaycan mədəniyyətinə, həm də dünya sivilizasiyasına zərbə kimi qiymətləndirilə bilər. Mədəni mirasa dəymiş ziyanın maddi ölçülərini müəyyən etmək çətin olmaqla yanaşı, bu dağıntıları kompensasiya etmək də çətindir. Azərbaycanın işğal altında olan tarixi-mədəni irsi dünya mədəni irsinin bir hissəsini təşkil etdiyi üçün bu irsin qorunub saxlanılması və gələcək nəsillərə ötürülməsi böyük əhəmiyyət kəsb edir.

Qarabağ qədim sivilizasiyaların ilk mərkəzlərindən biri olduğu üçün böyük tarixi-coğrafi əhəmiyyətə malik bir bölgədir. Dünyanın ilk insan məskənlərindən biri sayılan və 2 milyon illik tarixi olan Azıx və Tağlar mağaraları kimi arxeoloji tapıntılar bunu sübut edir. Bundan başqa, Qarabağın əhalisi qədim zamanlarda türklər və Qafqaz tayfalarından ibarət olub, e.ə. IV-III əsrlərə aid Azərbaycan dövləti olan Qafqaz Albaniyasının tərkib hissəsi idi. Qarabağ orta əsrlərdə yaranmış Atabəylər, Eldəgizlər, Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi dövlətlərinin tərkibində də tarix səhnəsində öz mühüm yerini tutmuşdur.

Qarabağda alban memarlığını əks etdirən IV-XVI əsrlərə aid bir neçə alban kilsəsi gəlib dövrümümüzə çatmışdır. Bunlardan Laçındakı Ağoğlan Monastırı, Kəlbəcərdəki Xudavəng Monastırı, Xocavənddəki Amaras Manastırı, Ağdərədəki Müqəddəs Yelisey Monastırı və Gəncəsar Monastırı və digərlərini misal göstərmək olar. Qafqaz Albaniyasında şərq-xristian memarlığının bütün növlərinə rast gəlmək mümkündür. Qarabağdakı alban xaç daşlarının üzərində xristianlıqdan əvvəlki

inancların əlamətlərini və kainat anlayışını özündə birləşdirən işarələr var.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli, 132 nömrəli qərarı ilə təsdiq edilmiş "Dünya əhəmiyyətli tarixi-mədəni irsin və sərvətlərin siyahısı", "Milli əhəmiyyətli tarixi-mədəni irsin və sərvətlərin siyahısı" və "Yerli əhəmiyyətli tarixi-mədəni irsin və sərvətlərin siyahısı"na əsasən işğal olunmuş ərazilərdə qeydə alınmış tarixi-mədəni irs və sərvətlər də daxil olmaqla, respublika üzrə mədəni irs və sərvətlərin ümumi sayı 900-dən çoxdur (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli qərarı, http://www.e-qanun.az/framework/2847).

Bunlardan 13-ü beynəlxalq (6-sı memarlıq və 7-si arxeoloji), 292-si milli (119-u memarlıq və 173-ü arxeoloji) və 330-u yerli (270-i memarlıq, 22-si arxeoloji, 23-ü bağ, park, monumental əsər, 15-i dekorativ sənət nümunəsi) olmaqla, işğal olunmuş ərazilərdə 635 mədəni irs obyekti yerləşir. Qarabağ müharibəsi zamanı bu mədəni irs abidələrin bir çoxu işğalçılar tərəfindən dağıdılıb, zədələnib və ya mənimsənilib. Daşınar bir çox mədəni dəyərə malik əsər isə Ermənistana aparılmışdır. Memarlıq əsərləri arasında ən çox zədələnən, dağıdılan və məhv edilən məscidlər (67 ədəd), türbələr və digər dini inanc yerləridir. Cəmi 67 məsciddən (Şuşada 13, Ağdamda 5, Zəngilanda 16, Cəbrayılda 5, Qubadlıda 8 və Laçında 8) 63-ü tamamilə dağıdılıb, 4 məscidin (Ağdam Cümə məscidi, Aşağı Göhərağa, Yuxari Gövhərağa, Saatlı məscid) divarlarını isə beynəlxalq təşkilatların təzyiqləri nəticəsində qorumaq mümkün olmuşdur. Bundan əlavə, işğal olunmuş rayonlarda 40 mindən çox eksponatı olan muzeylər də dağıdılıb, eksponatlarının bir hissəsi məhv edilib, bir qismi isə Ermənistana aparılıb (Rzayeva S., 2020: s.22, https://ytbweb1.blob.core.windows.net/files/2020/2020Belgeler/Azerbaycan%20ve%20Da%C4%9Fl%C4%B1k%20Karaba%C4%9F.pdf).

Azərbaycan ərazilərinin erməni qəsbkarları tərəfindən işğala məruz qalması nəticəsində ölkənin sosial-iqtisadi infrastrukturu ilə yanaşı, maddi mədəniyyət nümunələri də məhv edilmiş, dağıdılmış və ya qəsb edilmişdir. Nəticədə, Azərbaycanın mədəni və mənəvi irsinə misligörülməmiş zərərlər dəymişdir.

Azərbaycanın maddi-mədəni abidələrinin erməni işğalçıları tərəfindən məhv edilməsi və dağıdılması "Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması

haqqında" Haaqa Konvensiyası (1954) və "Mədəni sərvətlərin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizə haqqında" (1970) Avropa Konvensiyası, "Arxeoloji irsin qirunması haqqında" Avropa Konvensiyası (1992) və "Ümumdünya mədəni və təbii irsin mühafizəsi üzrə" YUNESKO Konvensiyasının (1972) müddəalarını ciddi və kobud şəkildə pozmuşdur. Azərbaycan Respublikası Haaqa Konvensiyasının hər iki protokoluna qoşulmuşdur (Süleymanov, E., və Vurğun Süleymanov, 2012: s.65).

Belə ki, erməni işğalı nəticəsində zəbt edilmiş ərazilərdə ibtidai məskənlərdən hesab edilən dünyaca tanına Azıx və Tağlar mağaraları, Qaraköpək, Üzərliktəpə kimi kurqanlar qəsdli şəkildə hərbi məqsədlərin qurbanına çevrilmişdir. Xocalı, Ağdam, Ağdərə, Füzuli, Cəbrayılda yerləşən qədim kurqan abidələri ilə yanaşı, işğala məruz qalmış Şuşa, Lacın, Kəlbəcər, Qubadlı, Zəngilan, Füzuli rayonlarının ərazilərind yerləşən qəbir abidələri, türbələr, məzarüstü abidələr, məscidlər, məbədlər, Qafqaz Albaniyasına aid tarixi əsərlər vəhşicəsinə məhv edilmiş və yaxud da erməni məqsədləri üçün təhrif edilmişdir.

Şuşa rayonu ərazisində Azərbaycan xalqının milli sərvətləri olan Yuxarı və Aşağı Gövhərağa məscidləri, Mərdinli və Köçərli cümə məscidləri, Bülbül, Üzeyir Hacıbəyov kimi Azərbaycan milli musiqi sənətində özünəməxsus yer tutan dahi sənətkarların ev muzeyləri, habelə Qarabağ xanlığının tarixində əhəmiyyətli yer tutan Molla Pənah Vaqifin 1980-cı illərdə qurulmuş məqbərəsi, Xurşudbanu Natavanın sarayı, Qarabağ ziyalılarından Firudin bəy Köçərli və Zöhrabbəyovların malikanələrin, tarixi əhəmiyyətli yaşayış evləri, məzarlıqlar tamamilə dağıdılmış və erməni vandallığının qurbanı olmuşdur. Tamamilə yerlə yeksan edilmiş və Qafqazın Xirosiması adlandırılan Ağdamda Azərbaycanın maddi-mədəniyyət nümunələrinə qarşı daha dəhşətli cinayətlər törədilmişdir. Ağdamda yerləşən Pənah xanın imarəti, tarixi Cümə məscidi, müharibə bombardımanının qurbanı olan Çörək muzeyi və Ağdam çay evi ermənilər tərəfindən tamamilə dağıdılaraq hərbi məqsədlər üçün istifadə edilmişdir.

Azərbaycanın tarixi-mədəni abidələrinə qarşı erməni terroru Laçın rayonundan da yan keçməmişdir. İşğalçılar Laçın rayonu ərazisində yerləşən Həmzə Sultan və Soltan Əhməd saraylarını, məscidləri, ziyarət və ibadət yerlərini, daş

heykəlləri, qəbir abidələrini, kurqanları, tarixi əhəmiyyətli yaşayış binalarını vəhşicəsinə yerləbir etmiş, daşınar tarixi abidləri Ermənistana aparmışdılar.

Erməni işğalçılar Azərbaycan ərazilərində yerləşən maddi-mədəniyyət abidələrini dağıtmaq, məhv etmək və mənimsəməklə yanaşı, tarixi əhəmiyyətli məskunlaşma yerlərində, kurqan və qəbir abidələrində uzun illər qanunsuz qazıntı işləri aparmış, onları dağıtmış və qarət etmişdirlər. Həmçinin bu abidələri beynəlxalq hüquqa zidd olaraq, öz milli sərvətləri kimi təqdim etmiş və satmışlar. Beynəlxalq əhəmiyyətli Kəlbəcər və Laçın diyarşünaslıq muzeylərində mövcud olan 18 mindən çox eksponat, qiymətli və nadir rast gəlinən əşyalar Ermənistana aparılmış və onlardan bəziləri qanunsuz şəkildə dünyaca məşhur hərraclarda satışa çıxarılmışdır. Bu, silahlı münaqişələr zamanı mədəni sərvətlərin qorunması və qanunsuz dövriyyəsinin qarşısının alınmasını tənzimləyən 1954-cü il tarixli Haaqa Konvensiyası və 1970-ci il tarixli Paris Konvensiyasının (1970) ciddi formada pozulması mənasına gəlir.

İşğal nəticəsində Şuşada yerləşən otuz iki kitabxana, səkkiz muzey, on yeddi klub, səkkiz mədəniyyət evi tamamilə dağıdılmışdır. Erməni işğalçılar tərəfindən Şuşa şəhər muzeyinin beş minədək tarixi eksponatı, iki dövlət əhəmiyyətli tarixi muzeyin Şuşadakı minədək eksponatı, məşhur azərbaycanlı bəstəkar Üzeyir Hacıbəyovun ev muzeyindən üç yüzdən artıq əşyası, böyük sənətkar Bülbülün dörd yüzədək əşyası, rəssam və musiqiçi Mir Mövsüm Nəvvabın yüzdən çox əşyası, digər müzeylərin, Ağdam tarix muzeyinin iki mindən çox əşyası, Qubadlı tarix muzeyinin üç mindən cox əşyası, Zəngilan tarix muzeyinin altı minədək əşyası və digər tarixi əhəmiyyətli fondları talan edilmişdir. Ümumilikdə isə erməni işğalçıları tərəfindən Azərbaycan mədəni sərvətlətinə daxil olan 100 mindən çox tarixi əhəmiyyətli eksponat qarətə və vandalizmə məruz qalmışdır (Şahbazov, T., Ermənistanın işğalı nəticəsində Azərbaycana vurulmuş maddi və mənəvi ziyanın, onun ödənilməsinin hüquqi aspektləri, 2018, https://mod.gov.az/az/pre/24525.html).

Ermənilər tərəfindən dağıdılan tarixi və mədəni əhəmiyyətli tikililər içində məşhur azərbaycanlı musiqi xadimi Qurban Pirimovun Ağdam rayonundakı xatirəsinə tikilmiş muzey, Cəbrayıl, Füzuli və Xocalı rayonlarında yerləşən tarix-

diyarşünaslıq muzeyləri də vardır. Dağıdılmış və qarət edilmiş muzeylərdə tarixi və mədəni dəyəri ölçüyəgəlməz qiymətli eksponatlar, əşyalar, heykəltəraşlıq nümunələri, qədim xalçaçılıq məhsulları və digər qiymətli əşyalar erməni qarətçiliyinin qurbanı olmuşdur. Şuşa, Lacın və Qubadlı rəsm qalereyalarının Azərbaycanın görkəmli rəssam və heykəltəraşlarının əsərlərindən ibarət fondları da dağıdılmışdır.

Erməni təcavüzkarları Azərbaycan musiqisinin böyük xadimləri Üzeyir Üzeyir Hacıbəyovun və Bülbülün, Xurşudbanu Nətavanın heykəlləri güllələnmiş və Ermənistan ərazisinə aparılsa da, daha sonra Azərbaycan hakimiyyətinin böyük səyləri sayəsində geri qaytarılaraq Bakıya gətirilmiş və onlar hal-hazırda Azərbaycan Dövlət İncəsənət Muzeyində sərgilənməkdədir.

Beləliklə, Azərbaycanın tarixi-mədəni sərvətlərinə erməni işğalı nəticəsində vurulmuş maddi ziyanın miqyası ölçüyəgəlməz miqyasdadır. Sosial-iqtisadi infrastruktura vurulmuş ziyanın maddi həcmini müəyyən etmək mümkün olsa da, erməni təcavüzü nəticəsində Azərbaycan xalqının milli-mənəvi sərvətlərinə vurulmuş ziyanın həm maddi həcmini, həm də mənəvi miqyasını qiymətləndirmək praktik cəhətdən imkansızdır. Bu abidələr və mənəvi sərvətlər yalnız Azərbaycanın tarixi-mədəni irsinin tərkib hissəsi deyil, eyni zamanda dünya mədəniyyətinin də tərkib hissəsidir və bu baxımdan erməni təcavüzünün Azərbaycan mədəni abidələrinə vurduğu mənəvi ziyan universal xarakter daşımaqdadır.

## 2.3. Ermənistanın işğalı nəticəsində Azərbaycanın ətraf mühitinə və təbii sərvətlərinə vurulmuş ziyanın qiymətləndirilməsi

Ermənistanın işğalı nəticəsində Azərbaycanın ətraf mühitinə və təbii sərvətlərinə vurulmuş ziyanın qiymətləndirilməsinin əhəmiyyəti 44 günlük Vətən Müharibəsi ilə Azərbaycanın ərazilərini işğaldan azad edilməsindən sonra daha da aktuallaşmışdır. Sosial-iqtisadi və maddi-mədəniyyət abidələrinə vurulmuş ziyanla yanaşı, ekosistemə və təbbi sərvətlərə dəymiş zərərin müəyyən edilməsi gələcəkdə bu ziyanın ödənilməsi imkanlarını da asanlaşdıracaqdır.

1988-1993-cü illərdə Ermənistanın silahlı təcavüzü nəticəsində Azərbaycan Respublikasının işğal altına düşən meşə sahəsi 1,7 milyon hektar ərazini əhatə etmişdir. İşğala məruz qalmış rayonlardakı meşə əraziləri əsasən Kiçik Qafqazın dağlıq hissəsinə daxildir və Azərbaycan respublikasının meşə sərvətinin 25 faizini əhatə edirddi. Həmçinin erməni işğalına məruz qalmış ərazilərdə nadir fauna və flora, bitki və heyvan növləri özlərinin heyrətamiz gözəllikləri ilə Respublikanın digər bölgələrindəki təbiət sərvətlərindən fərqlənirdi. İşğala qədər bu meşələrdə yabanı bitən kol və ağacların sayı 460-ı ötürdü. Xüsusilə, bu növlərdən təxminən 70 növ yerli təbiətə məxsus idi və dünyanın digər yerlərində təbii halda yetişmirdi. Bunlardan Qaracöhrə, ayıfındığı, Araz palıdı, yalanqoz, şərq çinarı, adi nar, meşə üzümü, pirkal, şümşad, eldar şamı, adi xurma, söyüdyarpaq armud və s. növlər işğal illərində ciddi məhv edilmə təhlükəsi ilə üzüzə qalmış və yaxud da bir çoxu məhv edilmişdir. Bundan əlavə, bu ərazilərdə məməli heyvanların dörd növü, quşların səkkiz növü, balıqların bir növü, amfibiya və reptililərin üç növü, həşaratların səkkiz növü, bitkilərin isə iyirmi yeddi növü "Azərbaycan Respublikasının Qırmızı Kitabı"na düşmüşdü və xüsusi olaraq qorunurdu (Azərtac, 2017: https://azertag.az/xeber/Ermeni_vandalizmi_Xan_Magarasi_amansizliqla_mehv_edilir-1038879).

Xüsusilə vurğulanmalıdır ki, Dağlıq Qarabağ və ətraf rayonların flora və faunasını, bitki və heyvanat aləmini qorumaq və inkişafını stimullaşdırmaq üçün işğaldan əvvəlki dövrdə 890 min hektar xüsusi rejimdə qorunan təbiət əraziləri yaradılmış, qoruqlar və yasaqlıqlar təşkil edilmişdi. Lakin görülən bu tədbirlər

erməni işğalı nəticəsində məhv edilmək təhlükəsi üzləşmiş, yaradılmış qorunan təbiət ərazilərinin təxminən 43 min hektarı qəsibkarların əlinə keçmişdir. 30 ilə yaxın müddət ərzində Bəsitçay, Qaragöl Dövlət Təbiət Qoruqları, habelə Arazboyu, Laçın rayon, Qubadlı rayon və Daşaltı Dövlət Təbiət Yasaqlıqlarının əhatə etdiyi təbiət ərazilərində bitən müxtəlif ağac və digər bitki növlərinin böyük bir hissəsi Ermənistanın talançılıq siyasətinin qurbanı olmuş və məhv edilmişdir. Məsələn, Bəsitçay Dövlət Təbiət Qoruğu 1970-ci illərdə Azərbaycanın cənub-qərb ərazilərini əhatə etməklə Zəngilanın Bəsitçay dərəsində yaradılmışdır. Qoruğun yaradılmasında əsas məqsəd xüsusi növlərdən olan şərq çinarı qorumaq olmuşdur və onun ərazisi yüz yeddi hektardan artıq ərazini əhatə etmişdir. Burada yaşı 500 ilə çatan şərq çinarları Respublikanın “Qırmızı Kitab”ına düşmüşdür. Daha bir misal Laçın rayonu ərazisində salınmış dövlət əhəmiyyətli təbiət yasaqlığıdır. 1961-ci ildə yaradılmış yasaqlığın ərazisi iyirmi bir min hektardan çox sahəni əhatə edirdi. Yasaqlığın ərazisində sayı beş yüzü keçən cüyür, təxminən dörd yüz baş daş keçisi, dörd yüz çöl donuzu, quşlardan sayı birlikdə üç min beş yüzə çatan turac və kəklik qorunurdu. İşğalın acı nəticələrindən biri də yasaqlığda qorunan quş və heyvanların ermənilər tərəfindən məhv edilməsi olmuşdur.

Azərbaycan SSR dövründə təşkil olunmuş olunmuş bu qoruq və yasaqlıqlar ölkənin və bütövlükdə regionun biomüxtəlifliyini, təbii balansının qorunub saxlanılması və inkişaf etdirilməsinə hesablanmışdı. Lakin uzun illər erməni işğalı altında qalması 247352 ha meşə sahəsi, o cümlədən 13197,5 ha qiymətli meşə sahəsinin, 152 ədəd təbiət abidəsinin və 5 ədəd geoloji obyektin böyük bir qisminin Ermənistan dövləti tərəfindən məhv edilməsi ilə nəticələnmişdir.

Kəlbəcər rayonu ərazisində yerləşən 1000 hektara yaxın ayıfındığı meşəsi işğal illərində erməni qəsbkarları tərəfindən qırılmışdır. Kəlbəcərdə iki yüzü müalicəvi əhəmiyyətli olmaqla, dörd mindən çox bitki növü işğalçıların əlinə keçmiş və qırılaraq kütləvi formada və qanunsu şəkildə xarici bazarlarda satılmışdır. Nəticədə regionun təbiəti üçün endemik olan bir çox bitki növünün kökü kəsilmiş və regionun florası bərpası mümkün olmayan ziyanla üzləşmişdir. Azərbaycan təbiətinə və ətraf mühitinə qarşı Ermənistan tərəfindən məqsədli şəkildə illərlə

törədilən bu ekosid cinayəti Cənubi Qafqaz regionunun təbiəti ilə vəhdəd təşkil edən işğala məruz qalmış ərazilərin florasını böyük təhlükələrlə üzləşdirmişdir.

Ermənistan dövlət olaraq təbiətə qarşı həyata keçirilən genosidin başlıca iştirakçısı olmaqla yanaşı, bu işə xarici ölkə şirkətlərini cəlb etməklə beynəlxalq hüququn müvafiq norma və prinsiplərini kobud şəkildə pozmuşdur. Məhv edilmiş yasaqlıqlar, unikal bitki və heyvan növləri bölgənin ekoloji tarazlığı üçün bərpası mümkün olmayan təhlükəli bir prosesin başlanğıcını qoymuşdur. Laçın rayonunda yerləşən Hacışamlı meşəsində xüsusi növ olan qırmızı palıdın qırılması və ticari məqsədlərlə xarici şirkətlərin iştirakı ilə tədarük edilməsi, habelə bu məqsədlə Bəsitçay qoruğunda bitən genişyarpağlı palıd, çinar və s. ağacların məhv edilməsi bu ekosidin bariz nümunəsidir. 2005-ci ilə qədər işğal edilmiş ərazilərdən qırılmış və müxtəlif məqsədlər üçün istifadə edilmiş ağacların miqdarı 700 min kub metrdən çox olmuşdur.

İki yüz qırx hektarlıq bir ərazini əhatə edən Qaragöl qoruğu da uzun illər məhv təhlükəsi ilə üzüzə qalmışdır. Qaragöl qoruğunda işğaldan əvvəl Azərbaycan təbiətinə məxsus altmış səkkiz bitki növü və iyirmi yeddi bitki ailəsi bitirdi. Qubadlı rayonunun 13160 ha meşə sahəsi isə bütövlükdə məhv edilmişdir.

Xüsusi əhəmiyyətli təbiət abidələrindən biri də Şuşa şəhərinin yaxınlığında yerləşən Xan Mağarasıdır. Xüsusi olaraq mühafizə edilən və dəniz səviyyəsində 1300 metrdən artıq hündürlüyə malik olan abidə işğal illərində hərbi və digər məqsədlər üçün istifadə edilərək dağıdılmışdır.

Ermənistanın təcavüzkar siyasəti və Azərbaycan ərazilərini işğal etməsi ölkənin su potensialında və əkin sahələrinin suvarılmasında xüsusi yer tutan bir sıra göllərin də işğal atına düşməsinə səbəb oldu. Regionun ekoloji balansı üçün də əhəmiyyətli rol oynayan Böyük Alagöl, Kiçik Alagöl, Zalxagöl, Qaragöl, Canlıgöl, İşıqlı Qaragöl və Qaragöl kimi şirin su mənbələri uzun illər qeyri-müasib məqsədlər üçün istifadə edilmiş, çirkləndirilmiş və baxımsız vəziyyətə düşmüşdür.

İşğala məruz qalan rayonlar mülaciəvi su ehtiyatlarına görə də Azərbaycanın digər bölgələrindən seçilirdi. İşğala qədər bu ərazilərdə yüz iyirmiyə qədər müxtəlif mineral tərkibli su ehtiyatları mövcud idi. Xüsusilə, Kəlbəcər, Laçın, Şuşa

rayonlarında yerləşən mineral sullar həm iqtisadi, həm də turizm potensialına görə Azərbaycanın iqtisadi həyatında mühüm yer tuturdu. İstisu bulağında keçən əsrin 80-ci illərində tikilmiş zavod həm istirahət, həm də mineral sudan iqtisadi məqsədlərlə istifadə üçün nəzərdə tutulmuşdu. Zavod gün ərzində 800 min litrə yaxın su istehsalı ilə fərqlənirdi. Şuşaya yaxın yerləşən Turşsu bulağı müxtəlif mədə-bağırsaq xəstəliklərinin müalicəsi üçün istifadə edilməklə yanaşı, şəhərin su ilə təmin edilməsində mühüm əhəmiyyət kəsb edirdi. Ümumilikdə isə Azərbaycanın mineral su ehtiyatının 39,6%-i keçmiş DQMV və işğal altında olmuş ətraf rayonların payına düşürdü. Uzun illər erməni işğalı altında qalması bu su ehtiyatlarının bir qisminin məhv olmasına və qurumasına səbəb olmuşdur. Bundan əlavə, ətraf rayonların suvarma sistemi və su təminatında bu su ehtiyatlarının rolu çox böyük idi. Erməni işğalı bu ərazilərdə yerləşən su ehtiyatından istifadəni məhdudlaşdırmaqla Azərbaycanın əkinçilik və su ilə təchizat sisteminə böyük təhlükələr yaratmışdır.

Oxçuçay və Ağstafaçayın ermənilən tərəfindən mütəmadi olaraq çox böyük həcmdə çirkləndirməsi bu çayların suyundan istifadə edən azərbaycanlı əhalinin həyatı üçün təhlükə yaratmaqla yanaşı, çayda mövcud olan fauna və floranın da yaşaması üçün təhlükə törədir. Bu çayların çirkləndirilməsi hazırda da davam etməkdədir (https://sputnik.az/20210629/Ermnistann-Oxuay-irklndirmsi-il-bal-faktlar-aqlanb-427343630.html).

Qeyd edilən su resurslarından əlavə, Azərbaycanın su ehtiyatlarında çay şəbəkəsinin sıxlığı ilə seçilən və uzun müddət erməni işğalı altında olmuş Kiçik Qafqaz dağları da xüsusi əhəmiyyət kəsb edirdi. Bu dağlardan başlanan bütün çaylar, xüsusən də Kürün sağ qolları, Tərtər, Həkəri, Xaçınçay, Köndəlançay və başqaları düzənliklərə bol su gətirir, bəzilərində süni göllər və suvarma kanalları vardı. 1970-ci illərdə Tərtər çayının üstündə qurulmuş ümumi su ehtiyatı 560 milyonn kub metr olan Sərəng su anbarı ölkənin Tərtər, Ağdam, Bərdə, Goranboy və s. rayonlarının ərazisində yerləşən düzən ərazilərin suvarılmasında həyati əhəmiyyətli rola malik idi. Anbarın ehtiyatları hesabına təxminən 79000 ha əkin ərazisi suvarılırdı. Ermənistanın işğalçılıq siyasəti Azərbaycanı Sərsəng su anbarının suvarma

imkanlarından məhrum etməklə yanaşı, ətraf ərazilərdə ekoloji balansın pozulmasında da xüsusi rola malikdir.

Həcmi 674 milyon kub metr olan su anbarlarının, yeddi mindən çox suvarma qurğusunun, 26 suvarma sistemindən ibarət olan 1203 kilometrlik irriqasiya infrastrukturu və su kommunikasiya sisteminin tamamilə məhv edilməsi nəticəsində ətraf rayonlarda yüz min hektardan artıq əkin sahəsindən uzun illər yararlanmaq mümkün olmamışdır. Bundan əlavə işğal nəticəsində 1 milyon hektardan artıq əkinçilik üçün yararlı torpaq, habelə 127700 hektar suvarılan ərazi və 34600 hektar meyvəçilik sahəsi istifadə edilməyərək yararsız vəziyyətə düşmüşdür.

Ermənistan tərəfindən Araz, Ağstafa kimi transsərhəd çaylarının çirkənləndirilməsi və onlara zəhərli tullantılar atılması Azərbaycana qarşı həyata keçirilən qəsdli ekosid siyasətinin digər tərəfidir. Azərbaycanda çay suları resurslarının forlamalaşmasında 70 faiz rolu tranzit çaylar oynayır. Beynəlxalq hüquqla da qadağan edilməsinə baxmayaraq, erməni işğalçılarının uzun illər həyata keçirdiyi cinayətlərdən biri də transsərhədd çayların çirkləndirilməsi olmuşdur.

Azərbaycan region ölkələri arasında öz faydalı qazıntı ehtiyatlarının zənginliyi ilə tarixən fərqlənmişdir. Ölkənin faydalı qazıntı ehtiyatlarının böyük bir hissəsi erməni işğalı altında qalmış ərazilərdə yerləşir. Qarabağ bölgəsi və ətrafı 155 növ faydalı qazıntı yatağı ilə zəngindir ki, işğaldan əvvəl bu resurslar ölkə sənayesinin inkişafında çox mühüm yer tuturdu (Modern, 2020: https://modern.az/az/news/262797). 30 ilə yaxın davam edən işğal dövründə qeyd edilən faydalı qazıntı ehtiyatları xarici şirkətləri cəlb etməklə Ermənistan tərəfindən qanunsuz olaraq istismar və talan edilmişdir. Qızıl, civə, xromit, qurğuşun, sink, mis və sürmə kimi mineral yataqlardan çıxarılan sərvətlər Ermənistan ərazisinə daşınaraq emal edilmişdir. Xüsusilə, Kəlbəcərin Söyüdlü qızıl yatağı, o cümlədən Zəngilan və Kəlbəcərdəki “Vəcnəli” və “Qızıl bulaq” qızıl mədənlərini xarici şirkətlərlə birlikdə qanunsuz istismara məruz qalmışdır.

Ermənistan tərəfi təbiətə qarşı törətdiyi bu genosid siyasətinə əlavə olaraq davamlı şəkildə sərhəd xəttində yerləşən ərazilərdəki torpaqları yandırırdı. Xüsusilə, Ağdam, Füzuli, Cəbrayıl, Tərtər və Xocavənd rayonlarının sərhədyanı ərazilərini

əhatə edən bu yanğınlar münaqişə bölgəsinə dair beynəlxalq hüquq normalarına zidd olmaqla yanaşı, qəsdli şəkildə təşkil olunurdu. Bu yanğınlar çox zaman Azərbaycanın nəzarətində olan ərazilərə də yayılaraq torpağa, ərazidə yaşayan bitki və heyvanlara böyük ziyanlar vururdu. Nəticədə minlərlə hektar əkin sahələri yanaraq tələf olur, bir sıra bitki və heyvan növləri məhv olmaq təhlükəsi ilə qarşılaşırdı. Bu qəsdli yanğınlar nəticəsində işğal illərində ərazinin ekoloji balansı pozulmuş, "Qırmızı Kitab"a və Beynəlxalq Təbiəti Mühafizə İttifaqının "Qırmızı siyahı"sına düşmüş müxtəlif sayda turac, qırqovul və gürzə məhv olmuşdur (Trend, 2011: https://en.trend.az/azerbaijan/karabakh/1909199.html). İlkin qiymətləndirmələrə görə, ekologiya və ətraf mühitə təkcə bu yanğınlardan iki yüz iyirmi milyon ABŞ dollarından çox ziyan dəymişdir.

İşğal illərində Ermənistan tərəfindən Azərbaycan ərazilərinə, bu ərazilərin fauna və florasına, ümumilikdə isə dünya təbii irsinə qarşı törədilmiş cinayətlər barədə təbiətin mühafizəsi və ətraf mühit üzrə ixtisaslaşmış bir çox beynəlxalq təşkilatlar məlumatlandırılmışdır. Bu təşkilatlara Avropa Vəhşi Təbiətin və Təbii Ətraf Mühitin Mühafizəsi üzrə Bern Konvensiyası, Biomüxtəliflik üzrə Konvensiya, BMT İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası, Təbiətin və Təbii Sərvətlərin Mühafizəsi üzrə Beynəlxalq Birlik daxildir. Qeyd edilən təşkilatlar təbiət və canlılar aləminə qarşı həyata keçirilən ekosid barədə mütəmadi olaraq məlumatlandırılmış və təbiətə qarşı törədilən cinayətlərin qarşını almaq üçün təxirəsalınmaz tədbirlərin görülməsi barədə rəsmi müraciətlər edilmişdir.

Erməni işğalı nəticəsində yaranmış itkilərin qiymətləndirilməsi üçün yaradılmış İşçi Qrupunun 2016-cı ildə hazırladığı hesabatda 22 il ərzində Azərbaycana dəyən ümumi ziyan təxminən 265 milyard 281 milyon ABŞ dolları civarında hesablanmışdır. Qiymətləndirmə faydalı qazıntı yataqlarının talan edilməsi, meşələr və biomüxtəlifliyin məhv edilməsi, torpaqların sıradan çıxarılması, suya, su anbarlarına və ətraf mühitə ekoloji zərər vurulması, habelə əhaliyə vurulmuş mənəvi ziyan istiqamətləri üzrə aparılmışdır. (Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəsmi saytı, http://eco.gov.az/az/nazirlik/xeber?newsID=6574).

# III FƏSİL. ERMƏNİSTANIN İŞĞALI NƏTİCƏSİNDƏ AZƏRBAYCAN İQTİSADİYYATINA VURULMUŞ ZİYANIN STATİSTİK TƏHLİLİ VƏ ONUN ÖDƏNİLMƏSİ İMKANLARININ QİYMƏTLƏNDİRİLMƏSİ

## 3.1. Erməni işğalı nəticəsində Azərbaycan iqtisadiyyatına vurulmuş iqtisadi ziyanın ümumi statistik təhlili və ödənilməsi imkanlarının qiymətləndirilməsi

Ermənistanın Azərbaycana silahlı təcavüzü və ölkənin 20% ərazisinin işğalı nəticəsində təbii ehtiyatlar və xammalla zəngin torpaqlar 30 ilə istismar məruz qalmış və Azərbaycan iqtisadiyyatı çox böyük ziyanla üzləşmişdir. Beynəlxalq səviyyədə qəbul edilmiş qiymətləndirmə metodları ilə vurulmuş ziyanın müəyyən edilməsi və ödətdirilməsi imkanlarının araşdırılması hazırda Azərbaycan hökümətinin qarşısında duran ən aktual məsələlərdən biridir. 44 günlük Vətən Müharibəsində Azərbaycanın əldə etdiyi qələbə bu məsələ ilə bağlı tədqiqatların genişləndirilməsi və əldə edilmiş nəticələrin müvafiq beynəlxalq qurumlar qarşısında qaldırılmasını daha da aktuallaşdırmışdır.

Dissertasiyanın bu hissəsində erməni işğalı nəticəsində Azərbaycan iqtisadiyyatına vurulmuş iqtisadi ziyanın ümumi statistik təhlili və ödənilməsi imkanları öyrənilmişdir. Bu məqsədlə, ilk növbədə iqtisadi ziyan anlayışına qısa aydınlıq gətirmək məqsəduyğundur.

Ümumi olaraq, iqtisadi ziyan dedikdə təbiət nemətlərindən istifadə edən əhalinin mənafelərinə və onların gəlirlərinə vurulan ziyan nəzərdə tutulur (Mövsümov M., 2012: s.163). Lakin burada iqtisadi ziyan anlayışı erməni işğalı nəticəsində təbii ehtiyatlara, yəni faydalı qazıntılar, torpaq ehtiyatları, meşə fondu, su resurslarına vurulmuş ziyan gəlirlilik nöqteyindən nəzərdən keçirilmişdir. Həmçinin təbii ehtiyatlardan istifadə prosesində ekosistemə vurulan ziyan da iqtisadi ziyanın tərkib hissəsi kimi nəzərdən keçirilə bilər.

Azərbaycanın işğal edilmiş ərazilərindəki təbii ehtiyatların istismarı nəticəsində vurulmuş iqtisadi zərərin qiymətləndirilməsi üçün həmin resusrların təsnif edilməsi məqsədəuyğundur. İşğal altında qalmış ərazilərdəki təbii ehtiyatları filiz faydalı qazıntılar, qeyri-filiz faydalı qazıntılar, əlvan və bəzək daşları, inşaat

materialları, meşə ehtiyatları, yeraltı şirin su və mineral su ehtiyatları olaraq qruplaşdırmaq olar.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında mövcud olan faydalı qazıntıların həcmi aşağıdakı kimidir:

- Filiz faydalı qazıntıların (qızıl, gümüş, civə, mis, sink, qurğuşun, molibden, sürmə, selen, tellur, kadmium) hesablanmış həcmi 2414.67 min ton civarında qiymətləndirilmişdir.
- Qeyri-filiz faydalı qazıntıların (daş kömür, gəc, vermikulit, soda xammalı, serpentinit) hesablanmış həcmi 173.2 mln. tona min ton civarında qiymətləndirilmişdir.
- Əlvan və bəzək daşlarının (obsidian, oniks, nefritoid, listvenit, jaedit, yəşəm, dekorativ felzit) hesablanmış həcmi 8.5 min ton, 1.1 min $m^3$ (listvenit) civarında qiymətləndirilmişdir.
- İnşaat materialları (mişar daşı, üzlük daşı, tikinti daşları, sement xammalı, əhəng xammalı, qum-çınqıl, perlit-pemza, gil) hesablanmış həcmi 543.2 mln. $m^3$, 318.4 ton (sement və əhəngdaşı) civarında qiymətləndirilmişdir.
- Meşələrin sahəsi 262535 ha civarında qiymətləndirilmişdir.
- Yeraltı şirin su və mineral su resurslarının həcmi 442.2 $m^3$/gün civarında qiymətləndirimişdir (Rasimzadə E., 2018: s. 36).

**Cədvəl 5: İşğal altında qalmış əraziləri faydalı qazıntı potensialı və işğalın meşə təsərrüfatına vurduğu cəmi itkilər (manatla)**

| Sıra № | Faydalı qazıntılar | Yataqların ümumi dəyəri (manat) | Yataqlarının xalis dəyəri (manat) | Orta illik itkilər (manat) | Cəmi itkilər (manat) |
|---|---|---|---|---|---|
| 1. | Filiz faydalı qazıntılar | 10495.9 mln. | 9991.6 mln. | 286.5 mln. | 7735.5 mln. |
| 2. | Qeyri-filiz faydalı qazıntılar | 8041.3 mln. | 5591.2 mln. | 192.7 mln. | 5202.9 mln. |
| 3. | Əlvan və bəzək daşları | 303.5 mln. | 246.07 mln. | 7.03 mln. | 189.81 mln. |
| 4. | İnşaat materialları | 64128.4 mln. | 55342.8 mln. | 1581.2 mln. | 42692.4 mln. |
| 5. | Yeraltı şirin su və mineral sular | 22183.8 mln. | 110889.2 mln. | 1008.4 mln. | 27.226,8 mln. |
| **Cəmi itklilər (manat)** | | **83 milyard 047 milyon 41 min manat** | | | |

**Mənbə:** Rasimzadə E., 2018: s. 36.

İşğal edilmiş ərazilərdəki faydalı qazıntıların ümumi həcmini nəzərə alaraq, bu resurslara vurulmuş ziyanı təxminən 83 milyard 047 milyon 41 min manat manat məbləğində qiymətləndirmək mümkündür.

Hesablama zamanı faydalı qazıntı yataqlarının 1 il üçün orta illik itkiləri sonuncu rayonun işğal tarixindən 2020-ci ilə qədər keçən müddətə, yəni 27 ilə vurulmuş və cəmi itkilər müəyyən edilmişdir.

Azərbaycanın işğal edilmiş ərazilərdə mövcud olan meşə ehtiyatlarına vurulmuş ziyanı qiymətləndirməmişdən əvvəl həmin ehtiyatların rayonlar üzrə bölgüsünə nəzər yetirmək məqsədəuyğundur. Ümumilikdə, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarındakı meşə ehtiyatı təxminən 262 000 hektar təşkil edir. İşğal illərində Azərbaycanın meşə fondunun üzləşdiyi orta illik itkilər oduncaq ehtiyatı üzərindən hesablanmışdır.

**Cədvəl 6: İşğal altında qalmış Azərbaycan ərazilərinin meşə potensialı və orta illik itkilərin həcmi (manatla)**

| Sıra № | Rayonlar | Meşə fondu | Oduncaq ehtiyatı | Orta illik atım | Orta illik itkinin həcmi, Manat |
|---|---|---|---|---|---|
| 1. | Kəlbəcər | 37.9 min ha. | 2.5 mln $m^3$ | 28.4 min $m^3$ | 1 502 360 |
| 2. | Xocavənd | 22.4 min ha. | 17.8 mln $m^3$ | 17.5 min $m^3$ | 925 750 |
| 3. | Laçın | 32.1 min ha. | 2.9 mln $m^3$ | 38.1 min $m^3$ | 2 015 490 |
| 4. | Zəngilan Qubadlı Cəbrayıl | 28 min ha. | 1.5 mln $m^3$ | 32.2 min $m^3$ | 10 214 990 |
| 5. | Ağdərə Ağdam | 80.1 min ha | 10.3 mln $m^3$ | 91.0 min $m^3$ | 7 109 760 |
| 6. | Şuşa Xocalı Füzuli | 47.5 min ha | 5.4 mln $m^3$ | - | 3 655 390 |
| **Cəmi** | **26 milyon 074 min 410 manat x 27 il = 704 milyon 009 min 070 manat** | | | | |

**Mənbə:** Rasimzadə E., 2018: s. 38.

Cədvəldən də göründüyü kimi, Dağlıq Qarabağ və ətraf rayonlar işğal altında olduğu müddətdə həmin ərazilərdə yerləşən meşə resurslarının oduncaq ehtiyatında Azərbaycanın üzələşdiyi illik itki 26 milyon 074 min 410 manat civarında qiymətləndirilmişdir. İşğalın müddətinin 27 il davam etdiyini nəzərə alsaq (sonuncu işğal olunmuş rayonun işğal tarixindən hesablamaqla), ölkənin meşə ehtiyatlarına

vurulan ziyanın həcmi 704 milyon 009 min 070 manat təşkil edir.

Erməni işğalının ən çox ziyan vurduğu təbii resurlar içərisində torpaq ehtiyatları xüsusi yer tutur. İşğal altına düşmüş Azərbaycan ərazilərinin sahəsi 17.2 min km$^2$ olmuşdur. Bu, təxminən ölkə ərazisinin 20 faizini əhatə etməklə, Azərbaycanın kənd təsərrüfatını uzun illər çox ciddi torpaq potensialından məhrum etmişdir. İşğal altında qalmış torpaq fonduna əkinə yararlı torpaqlar, çoxillik əkin sahələri, biçənəklər, örüşlər, dincə qoyulmuş torpaqlar, kolluk sahələri və yararsız sahələr daxil edilmiş və dəymiş ziyanın hesablanması hər biri üzrə ayrı-ayrılıqda aparılmışdır.

**Cədvəl 7: İşğal altında qalmış ərazilərdəki torpaq fondunun təyinatına müvafiq olaraq dəymiş ziyanın həcmi (manatla)**

| Sıra № | Torpaq sahələrinin təyinatı | Sahəsi, hektar | Orta illik icarə qiyməti, Manat | Bazar dəyəri, manat/il |
|---|---|---|---|---|
| 1. | əkinə yararlı torpaqlar | 183 242 ha | 3846 manat/ha | 704.748.732 manat/il |
| 2. | çoxillik əkin sahələri | 46 993 ha | 300 manat/ha | 14.097.900 manat/il |
| 3. | biçənəklər | 17 736 ha | 300 manat/ha | 5.320.800 manat/il |
| 4. | örüşlər | 240 519 ha | 250 manat/ha | 85 129 750 manat/il |
| 5. | dincə qoyulmuş | 7 120 ha | 250 manat/ha | 1 780 000 manat/il |
| 6. | Kolluq sahələri | 38 971 ha | 150 manat/ha | 5 845 650 manat/il |
| 7. | yararsız sahələr | 334 966 ha | 150 manat/ha | 50 244 900 manat/il |
| **Cəmi:** | **867 milyon 167 min 732 manat x 27 = 23 milyard 417 milyon 64 min manat** | | | |

**Mənbə:** Rasimzadə E., 2018: s. 42.

Beləliklə, erməni işğalı dövründə Azərbaycanın torpaq fonduna təxminən 23 milyard 417 milyon 64 min manat həcmində ziyan dəymişdir ki, bu da ölkənin kənd təsərrüfatını çox böyük iqtisadi potensialdan məhrum etmişdir.

Uzun illər davam etmiş erməni işğalı Azərbaycanın su ehtiyatlarına da ciddi ziyan vurmuşdur. Su ehtiyatlarına vurulan iqtisadi ziyanın həcmini hesablamaq o qədər də asan deyil. Bununla belə, Sərsəng su anbarının enerji istehsalı və suvarma məqsədi ilə istifadəsi baxımından dəyən zərəri, habelə gəlir gətirmə baxımından su resurslarına vurulan ziyanı müəyyən üsullarla hesabladıqda Azərbaycan

iqtisadiyyatına vurulmuş zərər 2 milyard manatdan yuxarı müəyyən edilmişdir.

Əldə edilən nəticələri ümumiləşdirsək, 27 illik erməni işğalı ərzində faydalı qazıntı ehtiyatlarına təxminən 83 milyard manat, meşə ehtiyatlarına təxminən 704 milyon manat, torpaq ehtiyatlarına 23 milyard manat, su ehtiyatlarına 2 milyard manatdan çox ziyan dəymişdir. Qiymətləndirilən bu dörd resurs potensialı üzrə ölkə iqtisadiyyatına dəyən zərərin ümumi miqdarı isə təxminən 109 milyard manat civarındadır.

Bununla belə, nəzərə almaq lazımdır ki, bu qiymətləndirmə yalnız dar çərçivədə aparılmışdır. Erməni işğalının Azərbaycan iqtisadiyyatına və sosial-mədəni infrastrukturuna vurduğu ziyanın həcmi bu rəqəmdən 10 dəfələrlə çoxdur. Həmçinin indiyə qədər bu istiqamətdə konkret və yekun hesablama aparılmamışdır. Məsələn, BMT-nin məlumatına görə, işğal nəticəsində Azərbaycan iqtisadiyyatına dəyən ümumi zərər 53,5 milyard dollar civarında qiymətləndirmişdir. 2020-ci il Ermənistan-Azərbaycan müharibəsindən az sonra prezident İlham Əliyev bəyan etmişdir ki, işğal nəticəsində dəymiş ümumi zərərin müasir əsaslarla hesablanması üçün xarici ekspertlər dəvət olunacaqdır (Muradzadə N, 2021, https://moderndiplomacy.eu/2020/11/27/can-economic-cooperation-contribute-to-sustainable-peace-in-karabakh/).

Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin 2015-ci ildə açıqladığı məlumatlara əsasən Ermənistanın təcavüzkar siyasəti nəticəsində Azərbaycanın tarix və mədəniyyət abidələrinə 177 milyard dollar, əhalinin ictimai əmlakına isə 55,4 milyard dollar ziyan dəymişdir. Azərbaycanın təbii sərvətlərinin ermənilər tərəfindən talan və dağıdılması nəticəsində 2015-ci ilə qədər dəymiş ziyan 190 milyard dolları ötmüşdür.

2014-cü ildə Nazirlər Kabineti tərəfindən işğalın səbəb olduğu itki və tələfatların qiymətləndirilməsi məqsədilə yaradılmış İşçi Qrupun Hesabatı da nəzərə alınmalıdır. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin İşçi Qurupla birgə işinin nəticəsi olan hesabata əsasən erməni işğalının Azərbaycanın ekologiya və təbii resusrlarına vurduğu zərərin həcmi təxminən 265 milyard ABŞ dolları civarındadır. İşçi Qrupun 2015-ci ilin noyabr ayında təqdim etdiyi hesabatda isə aparılan

qiymətləndirmə işinin yekunu olaraq Azərbaycana dəymiş maddi ziyanın 818.88 milyard dollar təşkil etdiyi faktlarla öz əksini tapmışdır.

2017-ci ilin fevral ayında erməni təcavüzü nəticəsində Azərbaycan ərazilərində itki və tələfatlara həsr edilmiş beynəlxalq konfransda bu sahə üzrə yaradılmış İşçi Qrupun verdiyi məlumatlar Azərbaycana dəymiş maddi ziyanı daha ətraflı açıqlamaqdadır. İşçi Qrupu tərəfindən aparılan qiymətləndirmələrə görə işğalın Azərbaycana vurduğu maddi ziyanın yekun məbləği 819,15 milyard dollar həcmində olmuşdur. Belə ki, əhalinin tələf olma, sağlamlığın və normal yaşayış səviyyəsinin itirilməsi hesabına humanitar-mənəvi itkilər 140,4 milyard dollar, əmlakının məhv edilməsi nəticəsində əhaliyə dəymiş maddi zərər 7,4 milyard dollar, dövlətə sosial və iqtisadi sahələrdə dəymiş zərər 126,46 milyard dollar, ətraf mühit və təbii sərvətlər üzrə itkilər 244,42 milyard dollar, tarixi və mədəniyyət abidələrinə dəymiş zərər 177 milyard dollar, işğalla bağlı izafi hərbi xərclər, məhdudiyyətlər və itkilər 124,47 milyard dollardır (Sputnik Azərbaycan, 2021, https://sputnik.az/20170222/azerbaycana-800-milyarddan-cox-ziyan-vurulub-409049082.html).

2020-ci ildə Azərbaycan əraziləri işğaldan azad edildikdən sonra Qarabağ və Şərqi Zəngəzur rayonlarına 30 ilə yaxın müddətdə vurulan ziyanın qiymətləndirilməsi imkanları daha real olmuşdur. Bölgədə sürətlə davam edən yenidənqurma proseslərinə paralel olaraq dəymiş maddi-mənəvi ziyanın hazırkı müasir qiymətlərlə hesablanması və sənədləşdirməsi gələcəkdə beynəlxlaq təşkilatlarda Ermənistan dövlətinə qarşı maddi təzminat iddialarının qaldırılması üçün vacibdir. Bu işə yerli dövlət qurumları ilə yanaşı, qeyri-hökümət təşkilatlarının və benəlxalq qiymətləndirmə ekspertlərinin fəal şəkildə cəlb edilməsi aparılan dəyərləndirmələrin şəfaflığı, standartlara uyğunluğu və gələcəkdə beynəlxalq məhkəmələrə təqdimatı baxımından zəruridir. Artıq bu istiqamətdə müvafiq komissiya yaradılmış və fəaliyyətə başlamışdır. Aparılmış qiymətləndirmə işinin yekununa əsasən Azərbaycana dəymiş maddi zərərin qarşılığında Ermənistan tərəfindən təzminat ödənməsi üçün beynəlxalq məhkəmələrə müraciət ediləcəkdir.

Erməni işğalının Azərbaycana iqtisadiyyatına, sosial infrastrukturuna, əhalinin gəlirlərinə, maddi-mədəniyyət nümunələrinə, ətraf mühit və təbii

sərvətlərinə vurduğu maddi zərərlərin ödətdirilməsi imkanlarını da təhlil etməyə ehtiyac vardır. Artıq qeyd edildiyi kimi bu zərərin miqdarının müəyyən edilməsi istiqamətində işlər aparılmışdır və hal-hazırda da davam etməkdədir. Gələcəkdə Ermənistanla Azərbaycan arasında sülh sazişinin və dinc birgəyaşayışın başlıca aspektlərindən biri də Ermənistanın uzun illər davam etmiş işğalçılıq siyasəti nəticəsində Azərbaycana vurduğu maddi ziyan qarşılığında beynəlxalq hüququn tələblərinə müvafiq olaraq kompensasiya ödəməsi olacaqdır. Beynəlxaq hüquqa əsasən işğalçı dövlət özünün qəsbkarlıq əməllərinə görə məsuliyyət daşıyır və hərəkətlərinin səbəb olduğu ziyanı zərərçəkən dövlətə ödəməlidir. Ödəmə beynəlxalq hüquqa əsasən müxtəlif formalarda həyata keçirilə bilər. Bu formalar və işğalçı dövlətin ödəmə üsulları BMT Baş Assambleyasının 12 dekabr 2001-ci ildə qəbul etdiyi 56/83 saylı "Beynəlxalq hüququazidd əməllərə görə dövlətlərin məsuliyyəti" adlı qətnaməsində qeyd edilmişdir. Qətnamədə açıq şəkildə qeyd olunur ki, dövlətlərin hüququazidd hərəkətləri beynəlxalq məsuliyyət yaradır və bunun da hüquqi nəticələri meydana çıxır. Sənədin 34-cü maddəsi hüququazidd əməllərə yol vermiş dövlətin qarşı tərəfə vurduğu zərəri ödəmə formaları barədədir. Həmin maddəyə əsasən beynəlxalq hüququazidd əməl nəticəsində dəymiş zərərin tam ödənilməsi restitusiya, kompensasiya və satisfaksiya (restitution, compensation and satisfaction) formalarında həyata keçirilir. Bu formalar tək və ya kombinasiyalı şəkildə tətbiq edilə bilər (BMT, 2001: s.9).

Bəhs edilən qayda BMT Baş Assambleyasının 2005-ci ildə qəbul edilmiş 60/147 saylı "Beynəlxalq humanitar hüququn ciddi pozuntuları və insan hüquqları sahəsində beynəlxalq normaların ciddi pozuntularının qurbanları üçün zərərin ödənilməsi və hüquqi müdafiə hüququna aid əsas prinsiplər və rəhbəredici müddəalar" adlı qətnaməsində yenidən öz əksini tapmışdır. Qətnaməyə görə ölkələrin daxili qanunları və beynəlxalq hüquqa uyğun olaraq və konkret hallar nəzərə alınmaqla, beynəlxalq insan hüquqları normalarının kobud şəkildə pozuntularının və beynəlxalq humanitar hüququn ciddi şəkildə pozuntularının qurbanları lazımi qaydada və pozuntunun ağırlığına və hər bir işin şəraitinə müvafiq olaraq aşağıdakı formaları özündə əks etdirən tam və effektiv kompensasiya ilə

təmin edilməlidir: restitusiya, kompensasiya, reabilitasiya, satifikasiya və hadisənin təkrarlanmama zəmanətləri (BMT, 2005: s.7).

Artıq tarixə qovuşmuş Ermənistan-Azərbaycan münaqişəsi konteksində Ermənistan tərəfindən vurulmuş ziyanınn zərərin restitusiya formasında ödənilməsi işğal altındakı Azərbaycan ərazilərinin geri qaytarılması, əsir götürülmüş şəxslərin qaytarılması, məcburi köçkünlərin öz yerlərinə qayıda bilməsi, qəsb edilmiş əmlaklarının geri verilməsi və onların öz digər hüquqlarından istifadə edə bilmə imkanlarını əhatə edirdi. Ermənistan dövlətinin Azərbaycanla müharibədə məğlubiyyəti nəticəsində işğal altındakı ərazilər azad olunduğu üçün restitusiya forması öz aktuallığını itirməkdədir. Lakin məcburi köçkünlərin Qarabağın ermənilər yaşayan hissəsində dinc şəkildə yaşayışının təminatı və əhalinin əmlakına vurulmuş zərərlərin Ermənistan tərəfindən ödənilməsi bu forma çərçivəsində nəzərdən keçirilə bilər. Bundan əlavə, erməni işğalı dövründə Azərbaycan ərazilərində qanunsuz fəaliyyət göstərmiş şirkətlərə qarşı beynəlxalq səviyyədə tədbirlərin görülməsi də restitusiya çərçivəsində nəzərdən keçirilə bilər.

Ermənistan tərəfindən həyata keçirilmiş qanunazidd hərəkətlərin səbəb olduğu maddi ziyanın ödənməsinin başlıca forması kompensasiyadır. BMT Baş Assambleyasının "Beynəlxalq hüquqazidd əməllərə görə dövlətlərin məsuliyyəti" adlı qətnaməsinə əlavənin 36-cı maddəsinə əsasən beynəlxalq hüquqazidd hərəkətə görə cavabdeh olan dövlət vurduğu ziyanı restitusiya (zərərin bərpası) ilə ödəyə bilmirsə, onu kompensasiya etmək öhdəliyi daşıyır. Buradan aydın olur ki, vurulmuş zərərin ödənilməsinin kompensasiya forması restitusiya tətbiq edilə bilmədiyi hallarda istifadə edilir. Kompensasiya müəyyən edilmiş həddə, itirilmiş mənfəət də daxil olmaqla, maliyyə cəhətdən qiymətləndirilə bilən hər növdən zərəri əhatə etməlidir.

Kompensasiya beynəlxalq təcrübədə ən çox istifadə edilən zərər ödəmə formasıdır və qeyd etmək lazımdır ki, kompensasiya hesablanarkən hər hansı bir əmlaka zərərin vurulduğu vaxtdakı qiymətlər deyil, ödənmə dövrüdəki mövcud qiymətlərdən istifadə edilir. Və ödəmə də həmin müəyən edilmiş məbləğ həcmində ödənməlidir.

Ermənistan dövlətinin Azərbaycana ödəməli olduğu kompensasiya beynəlxalq hüquqa əsasən yalnız maddi qiymətləndirilməsi rahat olan əmlakları deyil, eyni zamanda ətraf mühit və təbii sərvətlərə vurulmuş zərərləri əhatə etməlidir. BMT Baş Assambleyasının "Beynəlxalq hüquqazidd əməllərə görə dövlətlərin məsuliyyəti" adlı qətnaməsində bu məsələ də qeyd edilmişdir. Qətnaməyə əsasən "utilitar əhəmiyyət daşımayan dəyərlər" adlanan bioloji rəngarənglik, təbii landşaftın gözəlliyi və sair kimi ekoloji dəyərlərə vurulmuş faktiki zərər heç də əmlaka vurulmuş zərərdən az real deyil və ödənilməlidir. Baxmayaraq ki, miqdar cəhətdən onun hesablanması daha çətin ola bilər.

Beyəlxalq təşkilatların Ermənistan-Azərbaycan münaqişəsinə dair qəbul etdiyi çoxsaylı sənədlərdə Ermənistan təcavüzkar dövlət kimi tanınmış və işğal faktı qanunazidd əməl kimi qiymətləndirilmişdir. Məsələn, 2006-cı ilin sentyabrında BMT Baş Assambleyası (BMT BA) tərəfindən qəbul edilən "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı qətnamədə işğal olunmuş ərazilərdə ermənilərin törətdiyi yanğınlar pislənib. Həmçinin BMT BA-nın iki il sonra (03.2008) qəbul etdiyi növbəti qətnamə bütün erməni qüvvələrinin işğal etdikləri Azərbaycan ərazilərindən heç bir şərt olmadan, tamamilə və dərhal çıxarılmasını tələb edir, məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtmasını onların ayrılmaz hüququ kimi tanıyır və onların qayıtması üçün müvafiq şəraitin yaradılmasının, o cümlədən münaqişədən zərər çəkmiş ərazilərin hərtərəfli bərpasının zəruriliyini vurğulayırdı. Qətnamədə eyni zamanda erməni işğalı nəticəsində meydana çıxmış vəziyyətin qanunaziddliyini vurğulanmışdır (BMT, 2008: s.2).

Beləliklə, beynəlxalq hüquqa və Ermənistan-Azərbaycan münaqişəsinə dair qəbul edilmiş sənədlərə baxdıqda, işğal nəticəsində Ermənistanın Azərbaycana vurduğu maddi-mənəvi zərərlərin ödənilməsi üçün geniş hüquqi çərçivənin mövcud olduğunu görmək olar.

## 3.2. İşğaldan azad edilmiş ərazilərdə iqtisadiyyatın bərpası üzrə həyata keçirilən dövlət tədbirləri: iqtisadiyyatın yenidənqurulması siyasəti

2020-ci ilin sentyabr ayının 27-də başlayan 44 günlük Vətən Müharibəsi və Ermənistan üzərində əldə edilmiş qələbə Azərbaycan ərazilərinin işğaldan azad edilməsi ilə nəticələnmişdir. Müharibədən sonra Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpa və yenidən qurulması prosesi yaxın perespektivdə Azərbaycan dövlətinin qarşısında duran başlıca prioritet istiqamətlər içində mühüm yer tutur. Ölkə Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafın milli prioritetləri"ndə işğaldan azad edilmiş ərazilərin ölkə iqtisadiyyatı üçün əhəmiyyəti, bərpası və yenidən qurulmasına dair məqsəd və hədəflər öz əksini tapıb. Sənəddə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ğlkənin vahid iqtisadi sisteminə yenidən inteqrasiyası, habelə qurulacaq beynəlxalq əhəmiyyətli nəqliyyat dəhlizlərinin Azərbaycan iqtisadiyyatının inkişafına böyük töhfələr verəcəyi xüsusi olaraq vurğulanır. Həmçinin azad edilmiş ərazilərin yaratdığı yeni imkanlar və şərtlər Azərbaycanın Cənubi Qafqaz regionun iqtisadiyyatındakı rolunu daha da möhkəmləndirəcəkdir (https://president.az/az/articles/view/50474).

Sənədin növbəti on illikdə Azərbaycanın sosial və iqtisadi inkişafına dair rellaşdırılması nəzərdə tutulan 5 əsas milli prioritet içərisində "azad edilmiş ərazilərə böyük qayıdış" da vardır. Nəzərdə tutulan Böyük Qayıdış işğal nəticəsində öz yurdlarıdan məcburi köçkün düşən Azərbaycan vətəndaşlarının azad edilmiş ərazilərə əbədi olaraq məskunlaşması və bölgənin ölkə iqtisadiyyatına inteqrasiyasında başlıca vasitə kimi qiymətləndirilir. Böyük Qayıdış və inteqrasiya proseslərinin, yenidənqurma və bərpa planlarının həyata keçirilməsi üçün bölgədə təhlükəsizliyin təmin edilməsi, yerli və xarici investisiya üçün əlverişli mühitin yaradılması və dövlət-özəl sektorun əməkdaşlığı əsas çərçivə kimi qəbul edilmişdir.

Bölgədə iqtisadiyyatın bərpası istiqamətində həyata keçiriləcək dövlət tədbirləri üçün çərçivə təşkil edən sənədlərdən biri də 2021-ci ilin 10 dekabr tarixində dövlət başçısı tərəfindən imzalanmış "İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" sərəncamdır (Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 2021: № 3037).

Sərəncam azad edilmiş ərazilərinin yenidən qurulması və bərpası, vahid iqtisadi sistemə reinteqrasiyası, davamlı və stabil inkişafın reallaşdırılması, infrastruktur quruculuğunda ən yeni vasitə və texnologiyalardan istifadə, mədəni və tarixi əhəmiyyət daşıyan abidələrin bərpa edilməsi və layiqli həyat şəraitinin təmin edilməsi istiqamətlərində zəruri və müvafiq tədbirlərin həyata keçirilməsi məqsədlərini əhatə edir. Sərəncamda qeyd edilir ki, Azərbaycan hökuməti 3 ay müddətində aşağıdakı istiqamətlər üzrə təkliflərini hazırlayaraq ölkə başçısına təqdim etməlidirlər:

- vergi güzəştləri, sosial sığorta və digər güzəştlərin tətbiqi;
- sahibkarlar üçün gömrük və vergi güzəştlərinin müəyyən edilməsi;
- sahibkarlar üçün kommunal xidmətlərə görə güzəştlərin müəyyən edilməsi;
- müasir bilik və bacarıqlara malik mütəxəssislərin cəlb edilməsi, əmək miqrasiyası kvotalarının müəyyən edilməsi və iş icazələrinin verilməsi prosedurunun təkmilləşdirilməsi;
- sahibkarların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi;
- ekoloji cəhətdən təmiz texnologiyalar tətbiq edən, "yaşıl inkişaf" yaradan və bərpa olunan enerji mənbələrindən istifadə edən investorların dəstəklənməsi;
- yaşayış massivlərinin tikintisi ilə bağlı dövlət-özəl tərəfdaşlığının inkişaf etdirilməsi.

Göründüyü kimi, Sərəncama əsasən qarşıdakı illərdə işğaldan azad edilmiş ərazilərdə yenidənqurma və bərpa proseslərində iştirak edən sahibkarların fəaliyyətini stimullaşdırmaq və təşviq etmək üçün vergi, gömrük və digər sahələr güzəştlər, habelə istehsal sahəsi quran sahibkarlara dəstək məqsədilə kommunal xidmət üzrə güzəştlər, o cümlədən dövlət maliyyə mənbələrinə çıxış imkanlarının genişləndirilməsi və s. nəzərdə tutulmuşdur. Bərpa və quruculuq istiqamətləri içərisində geri qayıdan əhali üçün yaşayış sahələrinin salınması və bu prosesdə də dövlətlə birgə özəl sektorun iştirakı stimullaşdıracaqdır. Yaşıl texnologiyalardan və bərpa edilən enerji resurslarından istifadə istiqamətində təşviq siyasəti də işğal illərində böyük ekoloji fəlakətlə üzləşmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ətraf mühitinin sağlamlaşdırılmasına ciddi töfhə verəcəkdir.

İşğaldan azad edilən torpaqların bərpası və inkişafı konsepsiyasının hazırlanması prosesi Azərbaycan dövlətinin diqqət mərkəzindədir. Bu məqsədlə həyata keçiriləcək işlərin dörd mərhələdə icra edilməsi nəzərdə tutulmuşdur. İlk növbədə idaretmə, infrastruktur və təhlükəsizlik məsələlərinin həll edilməsi, daha sonra isə sosial xidmətlər, yenidənqurma və inkişaf məsələlərinin həll edilməsi qarşıya məqsəd qoyulmuşdur.

İşğaldan azad edilmiş ərazilərdə yenidənqurma və bərpa prosesləri üçün 2021ci ildə dövlət büdcəsindən 2 milyard 200 milyon manat vəsait ayrılmışdır. Bundan əlavə, nəzərdə tutulan işlərin həyata keçirilməsi üçün Qarabağ Dirçəliş Fondu təsis edilmişdir. Fondun başlıca məqsədi azad edilmiş ərazilərdə layiqli həyat şərtlərinin təmin olunması və sosial-iqtisadi bərpa üçün maliyyə vəsaitlərinin cəlb edilməsidir. Fonun başlıca maliyyələşmə mənbəsi yerli və xarici sərmayədarlar, kredit təşkilatları, beynəlxalq maliyyə təsisatları, habelə könüllü ianəçilərdir. Qarabağ Dirçəliş Fondunun yaradılması büdcədənkənar qanuni vəsaitlərin bölgədəki quruculuq və bərpa proseslərinə cəlbi üçün mühüm vasitə kimi qiymətləndirilə bilər.

İşğaldan azad edilmiş ərazilərin bərpa və yenidən qurulması prosesində işlərin mərkəzləşdirilmiş formada təşkil edilməsi və effektivliyinin artırılması qarşıya qoyulan məqsədləri həyata keçirmək üçün mühüm amillərdən biri kimi diqqət mərkəzində olmuşdur. Bu çərçivədə hələ 2020-ci ilin noyabr ayında, müharibədən dərhal sonra Əlaqələndirmə Qərargahı və onun tərkibində İdarələrarası Mərkəz yaradılmışdır. Daha sonra Mərkəzə tabe olan 17 işçi qrupu təşkil edilmişdir ki, onların fəaliyyətini tərtib edilmiş Strateji Plan tənzimləməkdədir. İşçi qrupları işğaldan azad edilmiş ərazilərlə bağlı bütün istiqamətləri əhatə etmişdir (Beynəlxalq münasibətlərin təhlili Mərkəzi, 2021: s.2-3).

İşğaldan azad edilmiş ərazilərdə istehsal sənayesinin, ticarət və xidmət şəbəkəsinin yaradılması, müasir texnologiyalardan istifadə imkanlarının və əlverişli investisiya mühitinin təşkil edilməsi onların ölkə iqtisadiyyatına inteqrasiyası üçün çox vacibdir. Bu məqsədləri həyata keçirmək üçün gömrük, vergi və kommunal güzəştlər, dövlətin dəstək paketləri nəzərdə tutulmuşdur. Bu güzəştlərə bölgədə

turizmin inkişafı üçün vergi təşviqlərinin tətbiq edilməsi də daxil ediləcəkdir.

Ölkə başçısının müvafiq Sərəncamına əsasən təqdim ediləcək təkliflər paketinə kənd təsərrüfatı fəaliyyəti ilə məşğul olacaq subyektlərin torpaq vergisindən başqa digər vergilərdən azad edilməsi təklifinin də daxil edilməsi gözlənilir. Bölgədə yaradılacaq sənaye sahələrinə qoyulacaq investisiyaları təşviq etmək üçün də Vergi güzəştlər nəzərdə tutulmuşdur. Güzəştlər həm yerli, həm də xarici sərmayəçilər üçün əlçatan olacaqdır. İşğaldan azad edilmiş ərazilərdə iqtisadi bərpa və yenidənqurma proseslərində iştirak edəcək yerli sahibkarlar mənfəət və gəlir vergisi üzrə güzəştlərdən yararlana biləcəklər. Tətbiq ediləcək güzəştlərə sosial sığorta güzəştləri də daxildir.

İşğaldan azad edilmiş ərazilərin iqtisadi cəhətdən təşviq edilməsi birinci növbədə, kənd təsərrüfatında mühüm inkişafa səbəb olacaqdır. Təkcə Ağdam və Füzulidə 233 min hektar əkin üçün yararlı torpaq sahəsi qeydə alınmışdır. Bundan əlavə, iki rayon üzrə yetişdirilməsi mümkün iri və xırdabuynuzlu heyvan potensialı 2 milyon başdan yuxarıdır. Bölgədə heyvandarlıq üzrə tarixən mövcud olmuş potensialı, habelə coğrafi xüsusiyyətləri nəzərə alaraq, gələcəkdə də heyvandarlığa əsaslanan kənd təsərrüfatı məhsulları daha çox istehsal ediləcəkdir. Rayonda ət-süd məhsulları, üzümçülük, tütünçülük, baramaçılıq və arıçılıq sahələri bərpa edilərək genişləndiriləcək. Həmçinin bölgədə yeni təsərrüfat layihələri və intensiv meyvəçiliyin inkişafı üçün müvafiq tədbirlərin həyata keçirilməsi planlaşdırılır. Proqnozlara əsasən yaxın illərdə kənd təsərrüfatının real artımının 9%-i, o cümlədən ölkədə buğda istehsalının 10-12%-i Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının payına düşəcəkdir. Yaxın gələcəkdə bölgədə böyük hissəsi taxıl olmaqla 1 milyard manatdan artıq əkinçilik məhsulları yetişdirilməsi gözlənilir.

Həyata keçirilən digər mühüm tədbir azad edilmiş ərazilərin bərpa və inkişafı üzrə proqramın hazırlanmasıdır. Belə ki, Azərbaycan Prezidentinin tapşırığına əsasən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin 2021-2025-ci illər üzrə bərpası və dayanıqlı inkişafı Dövlət Proqramı"nın yekun layihəsi hazırlanaraq Nazirlər Kabinetinə təqdim olunmuşdur.

Ölkə başçısının fərmanına əsasən sahibkarlıq fəaliyyətini və istehsalını

stimullaşdırmaq, müasir texnologiyalara əsaslanan lazımi infrastruktur və idarəetmə sistemi qurmaq məqsədləri üçün yaradılmış Ağdam Sənaye Parkı da bölgənin iqtisadi potensialının effektiv şəkildə inkişaf etdirilməsi istiqamətində atılan mühüm addımlardan biridir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında belə sənaye parkları və azad iqtisadi zonaların yaradılması işləri davam edəcək və sahibkarlar bu cür zonaların yaratdığı güzəştli imkanlardan yararlanaraq yüksək innovasiyalara əsaslanan sənaye istehsalı qura biləcəklər.

İşğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması prosesində hər bir rayonun iqlim şərtlərinin və əvvəlki dövürdəki iqtisadi profilinin nəzərə alınması, bölgədə müasir turizm marşrutlarının hazırlanması, hava və yerüstü nəqliyyat infrastrukturlarının inşaası, kənd təsərrüfatı sahələrinin inkişafına şərait yaradılması, torpaq islahatlarının aparılması məqsədilə müvafiq mexanizmin tərtib edilməsi, su resurlarından səmərəli istifadə və müasir suvarma sistemlərinin yaradılması, bərpa olunan enerji infrastrukturunun qurulması, əhalinin öz keçmiş yaşayış yerlərinə qayıtması üçün xüsusi proqramın hazırlanması və sair zəruri məsələlər diqqətə alınan başlıca istiqamətləri təşkil etməkdədir (https://nk.gov.az/az/article/1362/print/).

Beləliklə, işğaldan azad edilmiş ərazilərdə iqtisadiyyatın bərpası üzrə həyata keçirilən dövlət tədbirləri və iqtisadiyyatın yenidənqurulması üçün lazımi hüquqi baza yaradılmış və geniş miqyaslı yenidənqurma prosesləri başlamışdır. Bu proseslər növbəti illərdə daha da genişləndirilərək 2030-cu ilə qədər yerinə yetirilməsi qarşıya məqsəd qoyulmuş prioritetlər həyata keçiriləcəkdir.

## NƏTİCƏ VƏ TƏKLİFLƏR

Qarabağ və işğala məruz qalmış ətraf yeddi rayon öz tarixi irsi, maddi-mədəni zənginliyi, gözoxşayan təbiəti, təbii sərvətləri, zəngin sosial-iqtisadi bazası və turizm üstünlükləri ilə tarixən Azərbaycanın ən mühüm bölgələrindən biri olmuşdur. Həmçinin Qarabağın kənd təsərrüfatı və heyvandarlıq üçün məhsuldar torpaqları və təbii zənginlikləri bölgənin Azərbaycan iqtisadiyyatı və sənayesində hər zaman mühüm yer tutmasına səbəb olmuşdur. Lakin uzun illər erməni işğalı altında qalması, istismar, talan və baxımsızlığa uğraması bölgənin sosial-iqtisadi potensialında ciddi ziyanlara yol açmış, illərlə formalaşmış sənaye və sosial-iqtisadi infrastrukturun tamamilə yox edilməsi ilə nəticələnmişdir. Ermənistanın işğalçı siyasəti bölgənin resurs potensialı, əkinçilik üçün əlverişli torpaq sahələri, habelə ətraf mühit və ekoloji balansı ilə yanaşı, Azərbaycan maddi-mədəniyyət abidələrinə də ciddi zərərlər vurmuşdur.

İşğal bölgədə sosial-humanitar vəziyyətin pisləşməsi, aqrar-sənaye infrastrukturunun dağıdılması və Azərbaycan iqtisadiyyatının milyardlarla dollar zərərlə üzləşməsi ilə nəticələnmişdir. İllər ötdükcə vurulmuş maddi və mənəvi ziyanın miqyası böyümüş və nəticədə onun qiymətləndirilməsi də buna müvafiq olaraq çətinləşmişdir.

Ermənistanın işğalçılıq siyasəti nəticəsində Azərbaycana dəyən maddi və mənəvi ziyanın həcmi, xüsusilə də dünya maddi-mədəni irsinin tərkib hissəsi olan Azərbaycan mədəniyyət abidələrinə, ətraf mühitinə, bioloji müxtəlifliyinə, bitki örtüyünə və florasına vurulmuş ziyanın qiymətləndirilməsi praktik cəhətdən çətin prosesdir. Bununla belə, erməni işğalı nəticəsində Azərbaycanın sosial-iqtisadi infrastrukturuna vurulmuş maddi zərəri qismən qiymətləndirmək mümkündür.

İşğal nəticəsində Azərbaycan sosial-iqtisadi infrastrukturuna vurulmuş zərərin miqdarı 1994-cü ildə 60 milyard ABŞ dolları həcmində qiymətləndirilirdisə, bu məbləğ dolların alıcılıq qabiliyyətini nəzərə alsaq, növbəti illərdə dəfələrlə artmışdır. Ermənistanın Qarabağ və ətraf rayonları işğalı ilə Azərbaycan dövlətinə vurulmuş maddi ziyanın həcminin beynəlxalq metodlarla aparılmış qiymətləndirilməsi və məhkəmə-ekspertizası nəticəsində müəyyən edilmişdir ki,

Azərbaycana təxminən 819 milyard ABŞ dolları məbləğində maddi ziyan vurulmuşdur.

*Bu tədqiqat işində təbii resursların 4 növü üzrə statistik təhlil aparılmış və əldə edilmiş nəticələrə əsasən 27 illik erməni işğalı ərzində Azərbaycanın faydalı qazıntı ehtiyatlarına təxminən 83 milyard manat, meşə ehtiyatlarına təxminən 704 milyon manat, torpaq ehtiyatlarına 23 milyard manat, su ehtiyatlarına 2 milyard manatdan çox ziyan dəymişdir. Qiymətləndirilən bu dörd resurs potensialı üzrə ölkə iqtisadiyyatına dəyən zərərin ümumi miqdarı isə təxminən 109 milyard manat civarındadır.*

Bununla belə, nəzərə almaq lazımdır ki, bu qiymətləndirmə yalnız dar çərçivədə aparılmışdır. Erməni işğalının Azərbaycan iqtisadiyyatına və sosial-mədəni infrastrukturuna vurduğu ziyanın həcmi bu rəqəmdən 10 dəfələrlə çoxdur. Həmçinin indiyə qədər bu istiqamətdə konkret və yekun hesablama aparılmamışdır.

*2020-ci ildə Azərbaycan əraziləri işğaldan azad edildikdən sonra Qarabağ və Şərqi Zəngəzur rayonlarına 30 ilə yaxın müddətdə vurulan ziyanın qiymətləndirilməsi imkanları daha real olmuşdur.* Bölgədə sürətlə davam edən yenidənqurma proseslərinə paralel olaraq dəymiş maddi-mənəvi ziyanın hazırkı müasir qiymətlərlə hesablanması və sənədləşdirməsi gələcəkdə beynəlxlaq təşkilatlarda Ermənistan dövlətinə qarşı maddi təzminat iddialarının qaldırılması üçün vacibdir. Bu işə yerli dövlət qurumları ilə yanaşı, qeyri-hökümət təşkilatlarının və benəlxalq qiymətləndirmə ekspertlərinin fəal şəkildə cəlb edilməsi aparılan dəyərləndirmələrin şəfaflığı, standartlara uyğunluğu və gələcəkdə beynəlxalq məhkəmələrə təqdimatı baxımından zəruridir.

Dağlıq Qarabağ və ətraf rayonların uzun illər ərzində işğal altında saxlanılaraq, sənaye, kənd təsərrüfatı, sosial-mədəni infrastrukturunun dağıdılması, talan və məhv edilməsi Azərbaycanın hər şeyi sıfırdan başlamasına səbəb olmuşdur. Məhz bu səbəbdən bölgənin iqtisadi potensialının düzgün şəkildə qiymətləndirilməsi və buna uyğun olaraq Azərbaycan iqtisadiyyatına inteqrasiyası uzun müddətli və çətin proseslərdən biri olacaqdır.

*Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlardan iqtisadi yenidənqurma və*

*bərpa prosesləri çərçivəsində aşağıdakı təklifləri irəli sürmək məqsədəuyğundur:*

- Qarabağ mədən sənayesi, metalurgiya, qida sənayesi, turizm, emal sənayesi, kənd təsərrüfatı, yaşıl enerji, yaradıcı sənaye sahələrində ölçüyəgəlməz inkişaf potensialına malikdir. Bu sahələrin hər birinin inkişafı üçün müvafiq proqramların hazırlanması və həyata keçirilməsi iqtisadi bərpa prosesində prioritet istiqamətlərdən olmalıdır.
- Keçmişdə mövcud olmuş yol-nəqliyyat infrastrukturu və kommunikasiya əlaqələrinin bərpa edilməsi və mövcud iqtisadi siyasətə əsasən yenilərinin qurulması bölgənin Azərbaycanın digər iqtisadi rayonları ilə əlaqələrinin yenidən bərpası və sənaye potensialının dirçəldilməsi üçün mühüm amildir.
- Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında iqtisadi inkişaf üçün ən mühüm məsələlərdən biri də regionda potensial müqayisəli üstünlüklərin müəyyən edilməsidir. Həm daxili, həm də xarici üstünlüklərin müəyyən edilməsində bölgənin təbii və iqtisadi ehtiyatlarına, işğaldan əvvəlki məşğulluğa, repatriantların təcürbə və bilik səviyyəsinə diqqət yetirilməlidir.
- Qarabağda iqtisadiyyatı əsasən 6 istiqamət üzrə qurula bilər. Bunlar aqrar biznes, qida, mədənçıxarma sənayeləri, təmiz enerji, nəqliyyat, logistika və turizmdir. Bundan əlavə, proqnozlaşdırılır ki, növbəti 10 ildə işğaldan azad edilmiş ərazilər Azərbaycanın qeyri-neft sektorunun 5-10 faizini təşkil edə bilər.
- Qarabağın aran əraziləri kənd təsərrüfatı və əkinçilik üçün yararlıdır. İşğaldan əvvəlki dövürdə becərilmiş müxtəlif növ məhsulların yenidən becərilməsi və emalı ölkənin kənd təsərrüfatı məhsuldarlığına mühüm fayda verəcəkdir. Qubadlı, Zəngilan və Kəlbəcər rayonlarında tütünçülüyün, Ağdam və Füzuli rayonlarında pambıqçılığın, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan və Ağdərə bölgələrində üzümçülük sahələrinin bərpa edilməsi üçün yüksək potensial mövcuddur.
- Bölgənin faydalı qazıntı yataqlarının yenidən geologiyası, qiymətləndirilməsi və hazırkı potensialının üzə çıxarılması onların faydalı şəkildə istifadəsi və iqtisadiyyata yeni investisiyaların cəlb edilməsi üçün mühüm əhəmiyyət kəsb edəcəkdir.
- Qarabağın yenidən inşasına dövlət və özəl investisiyaları cəlb etmək bölgədə dayanıqlı iqtisadi inkişafın təməlini təşkil edəcəkdir. Qarabağa dövlət sərmayesi özəl sektor və

xarici investisiyaya da zəmin yaradacaqdır.

- Böyük Qayıdış və inteqrasiya proseslərinin, yenidənqurma və bərpa planlarının həyata keçirilməsi üçün bölgədə təhlükəsizlik tam olaraq təmin edilməli, yerli və xarici investisiya üçün əlverişli mühitin yaradılmalı və dövlət-özəl sektorun əməkdaşlığı əsas çərçivə kimi qəbul edilməlidir.

İşğaldan azad edilmiş ərazilərdə yenidənqurma və bərpa proseslərində iştirak edən sahibkarların fəaliyyətini stimullaşdırmaq və təşviq etmək üçün vergi, gömrük və digər sahələr güzəştlər, habelə istehsal sahəsi quran sahibkarlara dəstək məqsədilə kommunal xidmət üzrə güzəştlər, o cümlədən dövlət maliyyə mənbələrinə çıxış imkanlarının genişləndirilməlidir. *Bu məqsədlə işğaldan azad edilmiş ərazilərdə aşağıdakı güzəşt və stimullaşdırıcı tədbirlər həyata keçirilə bilər.*

- vergi güzəştləri, sosial sığorta və digər güzəştlərin tətbiq edilməlidir;
- sahibkarlar üçün gömrük və vergi güzəştlərinin müəyyən edilməlidir;
- sahibkarlar üçün kommunal xidmətlərə görə güzəştlərin müəyyən edilməlidir;
- müasir bilik və bacarıqlara malik mütəxəssislərin cəlb edilməsi, əmək miqrasiyası kvotalarının müəyyən edilməsi və iş icazələrinin verilməsi prosedurunun təkmilləşdirilməlidir;
- sahibkarların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməlidir;
- ekoloji cəhətdən təmiz texnologiyalar tətbiq edən, "yaşıl inkişaf" yaradan və bərpa olunan enerji mənbələrindən istifadə edən investorların dəstəklənməlidir;
-yaşayış massivlərinin tikintisi ilə bağlı dövlət-özəl tərəfdaşlığının inkişaf etdirilməlidir;
-işğaldan azad edilmiş ərazilərdə istehsal sənayesinin, ticarət və xidmət şəbəkəsinin yaradılması, müasir texnologiyalardan istifadə imkanlarının və əlverişli investisiya mühitinin təşkil edilməsi üçün gömrük, vergi və kommunal güzəştlər, dəstək paketləri tətbiq edilməli, bu güzəştlərə bölgədə turizmin inkişafı üçün vergi təşviqlərinin tətbiq edilməsi də daxil edilməlidir.

İşğaldan azad edilmiş ərazilərin iqtisadi cəhətdən təşviq edilməsi birinci növbədə, kənd təsərrüfatında mühüm inkişafa səbəb olacaqdır. Proqnozlara əsasən yaxın illərdə kənd təsərrüfatının real artımının 9%-i, o cümlədən ölkədə buğda

istehsalının 10-12%-i Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının payına düşəcəkdir. Yaxın gələcəkdə bölgədə böyük hissəsi taxıl olmaqla 1 milyard manatdan artıq əkinçilik məhsulları yetişdirilməsi gözlənilir.

Ölkə başçısının fərmanına əsasən sahibkarlıq fəaliyyətini və istehsalını stimullaşdırmaq, müasir texnologiyalara əsaslanan lazımi infrastruktur və idarəetmə sistemi qurmaq məqsədləri üçün yaradılmış Ağdam Sənaye Parkı da bölgənin iqtisadi potensialının effektiv şəkildə inkişaf etdirilməsi istiqamətində atılan mühüm addımlardan biridir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında belə sənaye parkları və azad iqtisadi zonaların yaradılması işləri davam edəcək və sahibkarlar bu cür zonaların yaratdığı güzəştli imkanlardan yararlanaraq yüksək innovasiyalara əsaslanan sənaye istehsalı qura biləcəklər.

İşğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması prosesində hər bir rayonun iqlim şərtlərinin və əvvəlki dövürdəki iqtisadi profilinin nəzərə alınması, bölgədə müasir turizm marşrutlarının hazırlanması, hava və yerüstü nəqliyyat infrastrukturlarının inşaası, kənd təsərrüfatı sahələrinin inkişafına şərait yaradılması, torpaq islahatlarının aparılması məqsədilə müvafiq mexanizmin tərtib edilməsi, su resurlarından səmərəli istifadə və müasir suvarma sistemlərinin yaradılması, bərpa olunan enerji infrastrukturunun qurulması, əhalinin öz keçmiş yaşayış yerlərinə qayıtması üçün xüsusi proqramın hazırlanması və sair zəruri məsələlər diqqətə alınmalıdır.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

## Azərbaycan dilində

1. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi. Aqrar Tədqiqatlar Mərkəzi. (2020). Kənd Təsərrüfatının İqtisadiyyatı // elmi-praktik jurnal. № 4 (34). Bakı. https://atm.gov.az/pdf/magazine/4.pdf.
2. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Prezident Kitabxanası. (2005). Ermənistan-Azərbaycan münaqişəsi: Tammətnli elektron materiallar məcmuəsi. Bakı. https://files.preslib.az/site/karabakh/gl1.pdf
3. Beynəlxalq münasibətlərin təhlili Mərkəzi. (2021). Azad edilmiş ərazilərdə bərpa prosesinin əsas istiqamətləri. Bakı. 9 səh. https://aircenter.az/uploads/files/orxan%20tehlil%20mart.pdf?fbclid=IwAR0vC980vM4fPLHRgrSz3g5S9O1oavvI-7uIkPNJjtaWHaocTaeYUSK3yfc
4. Əsədov N. (2002). Dağlıq Qarabağ Muxtar Vilayətinin sosial-iqtisadi inkişafı, "Qarabağ dünən, bu gün və sabah" 1-ci ümumrespublika elmi-əməli konfransı tezisləri. Bakı.
5. Əsədov N. (2004). XX əsrin əvvəllərində Qarabağın sənayesinə dair, "Qarabağ dünən, bu gün və sabah" 3-cü ümumrespublika elmi-əməli konfransı materialları. Bakı. 2004. http://www.anl.az/el/q/qarabag_3/q-38.htm
6. Fikrətzadə F. (2020). İşğaldan azad olunan ərazilərimizdə kənd təsərrüfatı sahəsinin bərpası istiqamətləri və istehsal göstəricilərinin proqnozlaşdırılması. Aqrar tədqiqatlar Mərkəzi. Bakı. https://agroeconomics.az/az/article/34/isgaldan-azad-olunan-erazilerimizde-kend-teserrufa/
7. Hacıyev Q. (2005). Qarabağın maddi və mənəvi mədəniyyəti, Qarabağ-suallar və faktlar. Bakı. Qismət mətbəəsi. 152 səh.
8. Həsənov T. (2002). Ermənistan tərəfindən işğal olunmuş ərazilərin təbii ehtiyatları və ekologiyasına vurulan ziyanlar, "Qarabağ dünən, bu gün və sabah" 1-ci ümumrespublika elmi-əməli konfransı materialları. Bakı.
9. Həsənov T. (2003). Qarabağ münaqişəsinin uzanmasının Cənubi Qafqazın qlobal

və regional inteqrasiyasına təsiri”, “Qarabağ dünən, bu gün və sabah” 2-ci ümumrespublika elmi-əməli konfransı materialları. Bakı.

10. İbadoğlu Q. (2002). Qarabağ probleminin həlli müstəvisində sosial və iqtisadi amillərin retrospektiv və perspektiv təhlili”, “Qarabağ dünən, bu gün və sabah” 1-ci ümumrespublika elmi-əməli konfransı materialları. Bakı. 2002.
11. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi. (2020). İşğal olunmuş ərazilərin azad edilməsi Azərbaycan iqtisadiyyatına nə vəd edir? Bakı. https://ereforms.gov.az/az/media/xeberler/isgal-olunmus-erazilerin-azad-edilmesi-azerbaycan-iqtisadiyyatina-ne-ved-edir-193
12. Mahmudov Y., Şükürov K. (2005). Qarbağ tarixi-qədim zamanlardan müasir dövrədək, Qarabağ - suallar və faktlar. Qismət mətbəəsi. Bakı. 380 səh.
13. Məsimli Ə. (2007). Qarabağın işğalının iqtisadi nəticələri, “Qarabağ dünən, bu gün və sabah” 6-cı elmi-əməli konfransının materialları toplusu // Qanun. Bakı.
14. Muradzadə N. (2021). İqtisadi əməkdaşlıq Qarabağda davamlı sülhü təmin edəcəkmi? (ingiliscə). Modern Diplomacy jurnalı. https://moderndiplomacy.eu/2020/11/27/can-economic-cooperation-contribute-to-sustainable-peace-in-karabakh/
15. Mövsümov C. (2021). İqtisadi lüğət. Bakı. 484 səh.
16. Rzayeva S. (2020). Qarabağ müharibəsinin mədəni miras və sərvətlərə təsiri (türkcə). Türkiyə Kültür və Turizm Nazirliyi. “Azərbaycan və Dağlıq Qarabağ” adlı elektron buraxılış. 47 səh.
17. Süleymanov E., Süleymanov V. (2012). //Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü və işğalın ağır nəticələri. Bakı. 206 səh.
18. Şahbazov. T. (2018). Ermənistanın işğalı nəticəsində Azərbaycana vurulmuş maddi və mənəvi ziyanın, onun ödənilməsinin hüquqi aspektləri. https://mod.gov.az/az/pre/24525.html
19. Şahmarov Ə. (2006). İşğal olunmuş ərazilərdə ekoloji problemlər, “Qarabağ dünən, bu gün və sabah” 5-ci ümumrespublika elmi-əməli konfransı materialları, Bakı.

## Qanunvericilik sənədləri və hesabatlar


1. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri. 10 dekabr 2021-ci il. № 3037. http://www.e-qanun.az/framework/48628
2. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər //Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı. 2021. https://president.az/az/articles/view/50474
3. Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 2021. https://azertag.az/xeber/Azerbaycan_Respublikasinda_iqtisadi_rayonlarin_yeni_bolgusu_haqqinda__Azerbaycan_Respublikasi_Prezidentinin_Fermani-1825345
4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı. Bakı şəhəri. 2 avqust 2001-ci il. № 132. http://www.e-qanun.az/framework/2847
5. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin məlumat mərkəzi. // İşğal olunmuş Azərbaycan ərazilərində ətraf mühitə və təbii sərvətlərə dəymiş ziyan. 4 səh. Bakı. http://eco.gov.az/frq-content/plugins/pages_v1/entry/20190823174831_88765600.pdf
6. Azərbaycanın Birləşmiş Millətlər Təşkilatındakı Daimi Nümayəndəsinin Baş Katibə 25.10.1996-cı il tarixli məktubu (ingiliscə). https://digitallibrary.un.org/record/207153/files/S_1996_170-EN.pdf
7. Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası. (2001). // Beynəlxalq hüquqazidd əməllərə görə dövlətlərin məsuliyyəti qətnaməsi (ingilis dilində). 15 səh.https://legal.un.org/ilc/texts/instruments/english/draft_articles/9_6_2001.pdf
8. Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası. (2005). // Beynəlxalq humanitar hüququn ciddi pozuntuları və insan hüquqları sahəsində beynəlxalq normaların ciddi pozuntularının qurbanları üçün zərərin ödənilməsi və hüquqi müdafiə hüququna aid əsas prinsiplər və rəhbəredici müddəaları qətnaməsi. 9 səh. https://www.un.org/en/ga/search/view_doc.asp?symbol=A/RES/60/147
9. Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası. (2008). // Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət qətnaməsi. 2 səh.

file:///C:/Users/Admin/Downloads/A_RES_62_243-EN%20(2).pdf
10. Üzv Dövlətlərə və İƏT-ə üzv olmayan ölkələrə və müsəlman icmalarına İqtisadi Yardımla bağlı Fəaliyyətlərə dair № 2/11-E(IS) Qərar. 11-ci İslam Zirvə Konfransı. Dakar. Seneqal Respublikası. 13-14 mart 2008-ci il. 43 səh. https://www.oic-oci.org/docdown/?docID=40&refID=9

## İnternet resursları

1. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəsmi saytı. Erməni təcavüzü və işğalı nəticəsində Azərbaycanın ətraf mühitinə və təbii sərvətlərinə 265 milyard dollar ziyan dəyib. http://eco.gov.az/az/nazirlik/xeber?newsID=6574
2. Azərbaycan Həmkarlar İttifaqlarının rəsmi qəzeti. İşğaldan azad edilmiş ərazilərdə kimlərə vergi güzəştləri veriləcək. 2022. http://ulfet-az.com/Home/SinglePost?PostId=871
3. Azərbaycan Respublikasi Nazirlər Kabinetinin rəsmi internet səhifəsi. Nazirlər Kabineti Prezidentin tapşırıqları əsasında 2021-ci il üçün prioritetləri müəyyənləşdirdi. 2021. https://nk.gov.az/az/article/1362/print/
4. Azərtac. Erməni vandalizmi: "Xan Mağarası" amansızlıqla məhv edilir. 2017. https://azertag.az/xeber/Ermeni_vandalizmi_Xan_Magarasi_amansizliqla_mehv_edilir-1038879
5. Azərtac. İşğaldan azad edilmiş ərazilərə dəyən ziyanın müəyyənləşdirilməsi üçün statistik məlumatlar toplanır. 2021. https://azertag.az/xeber/Rauf_Zeyni_Isgaldan_azad_edilmis_erazilere_deyen_ziyanin_mueyyenlesdirilmesi_uchun_statistik_melumatlar_toplanir-1890369
6. Azərtac. Qarabağ və Şərqi Zəngəzurda yol infrastrukturu ilə bağlı görülən işlər açıqlanıb. 2021. https://azertag.az/xeber/Qarabag_ve_Serqi_Zengezurda_yol_infrastrukturu_ile_bagli_gorulen_isler_achiqlanib-1936060
7. İnterfax. 2030-cu ilə qədər Qarabağ Azərbaycanın qeyri-neft sektorunda 10%-

dək paya malik olacaq. 2021. http://interfax.az/view/837086/az

8. Kaspi qəzeti. Milyardlarla ölçülən zərər. 2015. https://kaspi.az/az/milyardlarla-lculen-zerer
9. Sputnik Azərbaycan. Azərbaycana 800 milyard manatdan çox ziyan vurulub. 2021. https://sputnik.az/20170222/azerbaycana-800-milyarddan-cox-ziyan-vurulub-409049082.html
10. Sputnik Azərbaycan. Ermənistanın Oxçuçayı çirkləndirilməsi ilə bağlı faktlar açıqlanıb. 2021. https://sputnik.az/20210629/Ermnistann-Oxuay-irklndirmsi-il-bal-faktlar-aqlanb-427343630.html
11. Trend. Ağdam rayonunun işğalından 18 il keçir (ingiliscə). 2011. https://en.trend.az/azerbaijan/karabakh/1909199.html
12. Trend. "Xudafərin" hidroqovşağı üzrə tikinti xərclərinin və dəymiş ziyanın hesablanması məsələlərinə baxılır.2020. https://az.trend.az/business/3320233.html
13. Xalq qəzeti. Azad olunmuş ərazilərin bərpası Azərbaycanı daha da gücləndirəcək. 2021. https://xalqqazeti.com/az/news/78552
14. Yeni Azərbaycan Partiyasının rəsmi mətbuat orqanı. Ermənistanın işğalı nəticəsində Azərbaycana dəyən ümumi maddi zərər məbləği 818,88 milyard ABŞ dolları təşkil edir. http://yap.org.az/az/view/news/9999/ermenistanin-ishgali-neticesinde-azerbaycana-deyen-umumi-maddi-zerer-meblegi-81888-milyard-absh-dollari-teshkil-edir

**Türk dilində**

1. Naskali E. G., Şahin E. (2002). Bağımsızlıklarının Onuncu Yılında Türk Cumhuriyetleri. (Yayına Hazırlayan: Nesrin Sarıahmetoğlu). Harlem. 470 səh.

**İngilis dilində**

1. Kasim, K. (2001). The Nagorno-Karabakh Conflict From Its Inception to the Peace Process. Armenian Studies. Vol. 1. No. 2. s.170-185. http://eraren.org/index.php?Page=DergiIcerik&IcerikNo=227&Lisan=en

## İnternet resursları

1. https://president.az – Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı
2. https://nk.gov.az – Azərbaycan Respublikası Nazirlər Kabinetinin rəsmi internet saytı
3. http://eco.gov.az – Azərbaycan Ekologiya və Təbii Sərvətlər Nazirliyinin saytı
4. https://mod.gov.az – Azərbaycan Müdafiə Nazirliyinin saytı
5. http://www.e-qanun.az – Azərbaycan Respublikası Ədliyyə Nazirliyi normativ hüquqi və normativ xarakterli aktlarının rəsmi mətnini özündə əks etdirən elektron məlumat bazası
6. https://atm.gov.az – Aqrar Tədqiqatlar Mərkəzinin saytı

## Cədvəllərin siyahısı

**Cədvəl 1:** Qarabağın işğalının Azərbaycanın işçi qüvvəsinə təsirləri..........................................15
**Cədvəl 2:** İşğal nəticəsində Qarabağın sosial-iqtisadi infrastruktuna dəyən ziyan.......................22
**Cədvəl 3:** Şuşa şəhərinin dağıdılmış və məhv edilmiş sosial-iqtisadi infrastrukturu barədə məlumat.........................................................................................................................40
**Cədvəl 4:** 1994-cü ilin ilkin qiymətləndirməsinə əsasən Şuşa və ətraf yeddi rayona dəymiş sosial-iqtisadi ziyanın həcmi (ABŞ dolları ilə)...............................................................................41
**Cədvəl 5:** İşğal altında qalmış əraziləri faydalı qazıntı potensialı və işğalın meşə təsərrüfatına vurduğu cəmi itkilər (manatla)..........................................................................................55
**Cədvəl 6:** İşğal altında qalmış Azərbaycan ərazilərinin meşə potensialı və orta illik itkilərin həcmi (manatla).........................................................................................................................56
**Cədvəl 7:** İşğal altında qalmış ərazilərdəki torpaq fondunun təyinatına müvafiq olaraq dəymiş ziyanın həcmi (manatla)...........................................................................................................57